# DİNİMİZİ ÖYRƏNƏK

(65 dərsdə)

*KERİM UÇAR*



*Bismillahir-rəhmanir-rəhim*

*KERİM UÇAR*

# DİNİMİZİ ÖYRƏNƏK

## (65 dərsdə)

**Tbilisi 2019**

*Kitabın adı:*
*65 dərsdə dinimizi öyrənək*

*Müəllif:*
*KERİM UÇAR*

*Kömək edən:*
*Ummu Muhsin*

Çevirən:
Bahar Məmmədova

*Redaktor:*
*Akif Xansultanlı*

© Gürcüstan Müsəlmanları İdarəsi 2019

# Ön söz

Həmd Allaha məxsusdur ki, övənlər onu haqqı ilə tərif edə bilməz, Sayanlar nemətlərini saya bilməz, çalısıb-çabalayanlar haqqını əda edə bilməz. Salat və salam aləmlərə rəhmət və ümmətə nemət olaraq göndərilən Məhəmməd Abdullaha (s) olsun.

Yenə Allahın salat və salamı ümmətin imamı və mürşidi, Mustafanın (Sallallahu aleyhi və alihi və sallam) varisi Əli bin Əbu Talib (ə) və onun on bir haqq xəlifə və xüsusən aləmin xilaskarı, Qaim Əli Məhəmməd İmam Məhdiyə (ə) olsun!

İslam dini, bütün bəşəriyyəti hidayətə və haqqa çağıran, ilahi bir nizamdır. Bu dinin qayəsi, insanı dünya və axirət səadətinə qovuşdurmaqdır. Bu səbəbdəndir ki İslam, insanın Allaha qul, Peyğəmbərə (s) ümmət və bəşəriyyətə xidmət edəcək şəkildə yetişməsini bu məqsədə çatmağını əsası sayır.

Etiqad və əsas düşüncələr, hər dəyər sisteminin və hər nizamlı ideologiyanın əsasını yaratmaqda, şüurlu və ya şüursuz olaraq insanların davranışlarının formalaşmasında təsirli olur. Bu səbəblə, bəşəriyyət aləmində İslam dininin dəyər və davranış sisteminin yaranması, möhkəmlənməsi və beləliklə də, şirin meyvələri, insanların dünya və axirət səadətini təmin edə bilməsi üçün bu böyük və bərəkətli ağacın kökləri sayılan inanc əsasları, hər qəlbə yerləşdirilməlidir.

Hər inancın varlığının davamlılığı, onun elmi olaraq açıqlanması zəruri olduğu kimi, müəyyən bir inanca sahib olan insanların, o inancı doğru bir formada öyrənmələri onların ən təbii haqqıdır.

Bu isə o inamın mahiyyətini ortaya qoyan, şəxsən o inanc sahibi olan insanlar tərəfindən qələmə alınan yazılı əsərlər olmadan mümkünsüz olduğuna görə, bu cür əsərlərin yazılmasının nə qədər vacib olduğu ortaya çıxır.

Bu səbəblə, İslam üləması, İslam dininin şərtini ilk günündən etibarən müxtəlif formalarda və fərqli metodlarla İslam etiqadını açıqlayıblar, məsələn, kəlam alimləri fərqli səviyyələrdə olanlar üçün, yəni qarşı tərəfin idrak səviyyəsinə görə, bir çox kəlam kitabları yazmışlar.

Şübhəsiz, uca İslami dəyərlərə çatmaq üçün, İslamın etiqadlarını açıq şəkildə cəmiyyətə, xüsusilə də, gənc nəslə doğru bir şəkildə təqdim etməkdən daha yaxşı bir yol yoxdur. Bizə görə, cəmiyyətin diqqətini, xüsusilə də, gənc nəslin diqqətini bu təmiz dinə çəkməyin ən yaxşı və ən səmərəli yolu onlara inancları orijinal formada çatdırmaqdır.

Bir malın qəbul görməsi üçün, onu yaxşı formada təqdim edilməsi lazımdırsa, İslamın əsas inanclarının da əsl təsirini açıq və aydın bir şəkildə bildirmək lazımdır. İslam təlimləri elə güclü bir çəkim gücünə malikdir ki, onu əsl mənbəyindən olduğu kimi təqdim etmək təmiz yaradılışları özünə çəkməklə yetərli olacaqdır.

Bu gün bir qisim təhsilli gənclərimiz İslamdan qorxmuş vəziyyətdədirlər. Bizcə, bunun əsas səbəbi, bu müqəddəs dinin etiqadlarının doğru bir şəkildə, yəni həqiqi şəkildə onlara təqdim edilməməsindən irəli gəlir.

Bizcə, keçmiş əsrlərdə İslamın sürətlə yayılması və çox qısa bir zamanda köhnə dünyanı dağıdıb yerinə elm, həyat, ruh, təqva və mərhəmətlə dolu yeni bir dünya inşa etməyə nail olmasının səbəbini, İslamın həqiqi şəkildə o günün insanlarına tanıdılmış olmasında axtarmaq lazımdır.

Bu gün də fəsad, münaqişə, ixtilaf, isti və soyuq müharibələr, silahlanma yarışı və sümürgəçilik atəşində yanmaqda olan dünya: dürüstlük və səmimiyyətin olduğu bir dünyaya çevirəcək olan yeganə din uca İslam dini və onun müqəddəs etiqadlarıdır.

Beləliklə, bir daha etiraf etməliyik ki, İslamı yaymağın, onu doğru bir formada tanıtmağın ən yaxşı yolu, onun inanclarını və

təlimlərini eynilə olduğu şəkildə xalqa təqdim etməkdir. Onu da qeyd etmək lazımdır ki, bu kitabda təqdim olunan məlumatlar, İslam etiqadını məzmunlu, geniş əmrlərin xülasə və ana xətlər daxilində çatdırmaqdır. Ümid edirik ki, hər kəs, "xüsusilə gənc nəsil" bu kitab sayəsində İslamın əsl etiqadları barəsində doğru ideologiya öyrənərək, həyatlarında əks etdirər və səhvlərdən uzaq bir cəmiyyət üzvü halına gələrlər.

Çalışmamızda dinimizin inanc və etiqad əsaslarını başa düşülən bir üslubla və doğru bir formada hazırlamağa səy etdik. Məqsədimiz, gənclərimizin və uşaqlarımızın əqidədə sadiq, əməli-saleh, əxlaqda kamil olmalarına yardımçı olmaq, onların elm, ədalət, hüquq, əxlaq və fəzilət sahibi kimi yetişmələrini təmin etməkdir. Diqqətlə hazırlanan bu əsərdə gənc nəslin ağıllarına gələn soruları və onlar üçün dini maraq dairəsindən doğan həvəskar mövzulu sualları Əhli-Beyt (ə) məktəbi əsasına görə, qısaca cavablamağa çalışmışıq.

Kitabın daha yaxşı başa düşülməsi və diqqətlə oxunması üçün, onu dərslər şəklində hazırladıq və hər dərsin sonunda da dərslə bağlı suallar verdik. Beləliklə, hər dərsdən sonra, etiqadımızı necə öyrəndiyimizi mühakimə edə və nöqsanlarımızı daha diqqətli bir şəkildə oxuyaraq aradan qaldıra bilərik.

Bu dəyərli işdə hər cür dəstəklərini bizdən əsirgəməyən əziz ustadım Latif Yılmaztekinə təşəkkür edir, uca Allahdan uğurlarının davamını niyaz edirəm.

**Kerim Uçar**
***Sentyabr 2009***
***Ramazan 1430***

**DƏRS: 1**

# DİNİN TƏRİFİ

Din anlamı, ərəbcədə itaət və cəza mənasına gəlir. Lüğətdə təslimiyyət və uyğunluq mənasındadır. *Ragib İsfahani Müfrədat* kitabında belə deyir: "Din - itaət və cəza mənasına gəlir. Şəriətə, itaət edilməsi lazım olduğu üçün, din deyilmişdir"[1].

## Quranda dinin tərifi

Qurani-Kərimdə din müxtəlif mənalarda istifadə edilmişdir. Bəzən cəza və hesab[2], bəzən qanun və şəriət[3], bəzən də itaət və qulluq[4] mənasında istifadə edilmişdir.

"Allah yanında haqq din İslamdır[5]".

## Alimlər yanında dinin tərifi

Bir qisim müsəlman mütəfəkkirləri dinin kəlamdakı istilahı mənasını belə şərh etmişlər: Allahın həvarilərə təlqin yoluyla, bəşərin hidayət və səadəti üçün, Peyğəmbər tərəfindən göndərdiyi əmr və qadağalar birliyinə din deyilir.

Qərbli din tədqiqatçıları da dinin tərifi haqqında müxtəlif fikirlər irəli sürmüşlər. Onlardan bəzilərinin fikirləri:

**1. William Ceyms:** Fərdlərin, tək olduqları bir zamanda ruhiyyət qarşısındakı duyğu, əməl və mənəvi vəziyyətlərinə din deyilir.

---

[1] Gənclər üçün etiqad dərsləri, Ustad Şirvani, s.15
[2] Fatihə, 4; Vaqiə, 97.
[3] Tövbə, 33.
[4] Yunus, 22.
[5] Ali-İmran, 19.

**2. Parsonez:** Din - insanları müxtəlif icmalarda yaratdıqları etiqad, əməl, ənənə və dini təşkilatlar birliyidir[1].

**Dinin növləri**

Dinlər iki hissəyə bölünür:

I. Batil dinlər

II.Haqq dinlər

**Batil dinlər:**

a) İnduizm

b) Buddizm

c) Şamanizm

**Haqq dinlər**

a) Təhrif olmuş dinlər:

b) Təhrif olunmamış ilahi din

**a) Təhrif olmuş dinlər**

**-** Yəhudilik

- Xristianlıq

**b) Təhrif olunmamış ilahi din**

Müqəddəs İslam dini.

**Batil dinlər**

Allahın birliyinə əsaslanmayan və insanların uydurduğu dinlərdir. Tanrı olmayan batil dinlərin ortaq xüsusiyyətləri isə bunlardır:

1-Bu dinlərdə tövhid inamı yoxdur. Allahdan başqa görünən, toxunulan şeylərə inanırlar.

2-Peyğəmbərlik inamı yoxdur.

---

[1] *Gənclər üçün etiqad dərsləri, Ustad Şirvani, s.16.*

3-Bu dinlərin qanunu insanlar tərəfindən qoyulmuşdur.

## Haqq dinlər

Tövhid əsasına söykənən və Allah tərəfindən peyğəmbərlər vasitəsi ilə göndərilən din. Bu dinlərə ilahi dinlər və ya səmavi dinlər də deyilir.

Bu dinləri bütün peyğəmbərlər təbliğ etmiş və yaymışlar.

## Yəhudilik

Hz.Musa (ə) tərəfindən İsrail oğullarına gətirilən dindir. Yəhudiliyə "Yəhudilik" də deyilir. Yəhudilərin müqəddəs kitabı Tövratdır. Yəhudilər, İncil və Qurana inanmazlar. Peyğəmbərlərdən Hz.İsadan (ə) və Hz.Məhəmməddən (s) başqa hamısına inanırlar. Yəhudilərin ibadət yerlərinə "Havra" və ya "Sinaqoq" deyilir.

Yəhudilər ibadət yerlərində "Ravvin" deyilən din adamlarının himayəsi altında Tövratdan bölümlər oxuyaraq dua edirlər.

Yəhudilərin müqəddəs günü şənbədir. Buna görə də o gün çalışmır və bütün günü istirahət edir və işçilərinə də istirahət etdirirlər.

## Xristianlıq

Hz. İsa (ə) tərəfindən gətirilən ilahi dindir. Xristianlıq Həzrət İsadan (ə) sonra təhrif olmuş və haqq din olma xüsusiyyətini itirmişdir. Xristianların müqəddəs kitabı İncildir.

Xristianlıqda üç tanrıya inanma prinsipi var:

1-**Ata:** Kainatın xaliqi hər şeyin sahibidir.

2-**Oğul:** Həzrət İsadır (ə). Xristianlara görə Həzrət İsa (ə) Allahın oğludur.

**3-Ruhül-Qudüs (Müqəddəs Ruh):** Varlıqları idarə edən tanrının hissidir.

Xristianlar, Həzrət Məhəmməd (s) və Qurani-Kərim istisna olmaqla, bütün Peyğəmbərlərə və kitablara inanır.

Xristianların ibadət yerləri "Kilsə" adlanır. İbadətləri kilsələrdə bazar günü kütləvi halda "Keşiş və Rahib" himayəsi altında keçirilir. Xristianlar, doğulan uşaqlarını kilsəyə apararaq "xaç" etdirirlər. Keşiş tərəfindən "xaçetdirmə" müqəddəs qəbul edilən su ilə uşaqların yuyulmasıdır.

## Əhli Kitab kimlərdir?

Özlərini yəhudi və xristianlar kimi kitabı olan peyğəmbərlərdən birinə tabe etdirən kəslərə dində Kitab əhli mənsubları deyilir.

**Dinin Təlimləri**

İslam mütəfəkkirləri İslam dininin təlimlərini üç hissədə toplamışlar:

**1 -** Etiqad (inanclar)

**2 -** Əxlaq

**3** - Hökm (hökmlər)

**1 – Etiqad**

İstər etiqadı bilmək və inanmaq müsəlmanlığın şərti olsun, istər olmasın, dini, varlıq aləmini, onu yaradanı, başlanğıc və sonunu doğru şəkildə bəxş edən təlimləri əhatə edir. Kəlam elmi dinin bu qismi ilə bağlıdır.

**2 – Əxlaq**

Bu qism insanın yaxşı və pis əxlaqını, xasiyyətlərini, bəyənilən insani sifətləri və bu sifətləri qazanaraq onunla əxlaqını bəzəmə yollarını bəyan edən İslami təlimləri əhatə edir. Təqva, ədalət, sədaqət, düzgünlük, əmanətdarlıq və s. kimi.

Ustad Şəhid Mürtəza Mütəhhəri deyir:

Əxlaqi hissə- “İnsanın ruhi sifətlər və mənəvi xüsusiyyətlər baxımından necə olmasının vacibliyini göstərən əmr və məsələləri əhatə edir[1]”.

Əxlaq elmi də dinin bu hissəsini açıqlayır.

**3 – Hökm**

Bu hissə iş və əməllərlə bağlıdır. Yəni insana nələr etməsinin lazım olduğunu **(vacib)**, nələri etməməli **(qadağa-haram)**, nələri etməsi daha yaxşıdır **(müstəhəb)**, nələri etməməsi daha yaxşıdır **(məkruh)**, nələri edib etməməsi eyni dəyəri daşıyır **(mübah)** kimi təlimləri insana tanıdan hissədir. Dində bu qismin açıqlanması “Fiqh elmi”nə aiddir[2].

**1-ci dərsin sualları**

1 – Qurani-Kərimdə din necə açıqlanmışdır?
2 – Neçə növ din vardır?
3 – Xristianlıq əqidəsini izah edin?
4 – Əhli-kitab kimlərə deyilir?
5 – Dinin təlimləri nələrdir?

[1] Aşinai Ba Qəribə İslam, c.2, s.2.
[2] Gənclər üçün etiqad dərsləri, Ustad Şirvani, s.19.

**DƏRS: 2**

# DİNİ HÖKMLƏRİN ƏSAS MƏNBƏLƏRİ

Cəfəri məzhəbinin (şiə) fiqhi dörd aparıcı mənbəyə əsaslanır:

1 – Kitabullah (Quran)

2 – Sünnət

3 – Ağıl

4 – İcma

**1) Quran:**

Şübhəsiz, bütün ümmətin ittifaq səbəbi sayılan Qurani-Kərim İslamı tanımaq üçün, ümmət və məzhəblərin ən mühüm mənbəyi olmuşdur. Bu ilahi kitabı yol göstərən bir rəhbər olaraq görmüşdülər. Fiqh Quran dəlil tapdığı zaman sünnət, ağıl və icmaya müraciət etməz.

**2) Sünnət:** Qurani-Kərimdən sonra, İslamı tanımaqda ən mühüm mənbə, Həzrət Peyğəmbərin söz və davranışlarından ibarət olan qanundur.

Sünnətə bu xüsusiyyəti verən, Qurani-Kərimdir.

Çünki Peyğəmbər (s) Qurandan şəhadət gətirildiyi zaman heç bir vaxt istək və arzuya görə danışmaz.

Dönmədi (Məhəmməd) və batilə inanmadı; O, arzusuna görə də danışmadı[1].

**3) Ağıl:**

Ağıl tamamilə vəhylə uyğun gəlir və İslamı öyrənməkdə etibarlı mənbələrdən sayılır. Bəzi hədislərə əsasən, Allahın insanlar üzərində iki dəlil və hacəti var ki, onların vasitəsilə Allahın istəyi və iradəsi aydın olur.

Batini dəlil: ağıl

Zahiri dəlil: peyğəmbərlər

---

[1] Nəcm surəsi, 3.

**4) İcma:** Ümumi olaraq İslam hökmlərinin öyrənilməsində mənbələrdən biri də icmadır. Şiələrə görə icma, yəni bütün müsəlmanların və ya alimlər kimi müsəlmanların bir qrupu, bir görüşdə birləşmələri, həmfikir olmaları, başlı başına dəlil və sübut kimi qəbul edilmir. Amma müsəlmanlar və ya İslam alimləri arasında görüş birliyi Həzrət Peyğəmbərin (s) sünnəsini kəşf edib ortaya çıxarırlarsa, dəlil kimi qəbul edilə bilər və ondan da Allahın hökmünün nə olduğu aydınlaşar[1].

## İnsanın dindən gözləntisi nədir?

Bu sualın qısaca cavabını belə verə bilərik: İnsanın dindən gözləntisi, özünü dünya və axirətdə, ən uca kamal və səadətə çatdırmasıdır. Bu böyük ümidə də dindən başqa heç bir şey cavab verə bilməz. Dinin xaricində verilən hər bir cavab müvəqqəti olub insanların susuzluğunu aradan qaldırmır. Yalnız din, insanların həyatlarına məna qatıb, onlara çətinliklərə dözmə gücü və əmin-amanlığı verə bilir[2].

## Dinin insandan gözləntisi nədir?

Dinin insandan gözləntisi, yəni uca Allahın insandan olan gözləntisidir. Qısaca, dini var edənin insandan gözləntisi: İnsanın dini inancları qəbul edərək onlara ürəkdən inanması, onun əmr və hökmlərini yerinə yetirməsi, dinin istədiyi formada əxlaq və hərəkətlərini bəzəməsi, pis sifətləri və vərdişləri özündən uzaqlaşdıraraq, yerinə fəzilətləri və gözəl əxlaqları qazanmasıdır.

Dinin insandan bu gözləntisi var,- dedikdə, insan özündən dində olmayan bir şeyləri verməsi demək mənasına gəlmir. Bəlkə bu gözlənti insanın öz xeyrinə olan bir gözləntidir.

Bir başqa sözlə, dinin insandan istəyi insanın özünü kamala çatdıraraq, ən üstün və uca ilahi bəxşişlərdən istifadə etməsidir[3].

---

[1] Şiəliyə baxış, doktor Məhəmməd Əli Şimali, s.84.
[2] Gənclər üçün etiqad dərsləri, Ustad Şirvani, s.27.
[3] Gənclər üçün etiqad dərsləri, Ustad Şirvani, s.31.

**Din nə üçün lazımdır?**

İnsanı ən üstün varlıq kimi yaradan Allahın göndərdiyi dinlər insanlara doğru yolu göstərmişdir. Dinin vacibliyi mövzusunda bunları sıralaya bilərik:

1- Din - gözəl əxlaqı və insanın insanlıq cəhətini qoruyur, dəstəkləyir və möhkəmləndirir.

2- Din - əxlaqsızlıqların azalmasına və yerinə ədalətin yerləşməsinə yardımçı olur.

3- Din - insanların haradan gəlmişik, haradayıq və hara gedəcəyik kimi böyük və mühüm suallarına cavab verir.

4- Din - insanların iç dünyalarında daha rahat və xoşbəxt olmalarını təmin edir.

5- Din - insanları eqoizmdən uzaqlaşdırır.

6- Din - insanlara yaradanı tanıyıb varlıq aləminin mənbəyinə yönəlmək üçün bələdçilik edir.

7- Din - insanlara dünya həyatından sonrakı axirət həyatını anladır. Beləliklə, hər bir insan daha məsuliyyətli və şüurlu davranır, apardığı hər bir işin öz gələcəyinə təsir edəcəyini bilir.

8- Din - insanlara qohumun, irqçiliyin və maraqların kənarında bir qardaşlıqda birləşməyi öyrədir.

9- Din - bütün həyatı yemək, içmək, şəhvət kimi şeylərlə məhdudlaşdırmağa mane olur. İnsanların uca insani və mənəvi həyatdan məhrum qalmalarına icazə vermir.

10- Din - insana ətrafındakı digər insanların, heyvanların və bütün varlıqların qorunmasında onun qarşısındakı vəzifələri öyrədir.

**2-ci dərsin sualları**

1- Dini hökmlərin əsas mənbəyi nədir?
2-Dini hökmlərin əsas mənbəyindən yaranmış sünnət nədir?
3-Dinin insandan gözləntisi nədir?
4-Həyatımızda din nə üçün lazımdır?

**DƏRS: 3**

# BÜTÜN DİNLƏR DOĞRUDURMU?

Bütün dinlər haqqında araşdırmdan bir mənalı olaraq heç biri doğru deyildir, - deyə qəti fikir bildirmək bugünkü reallığa ziddir. Amma bu, bütün dinlərin tamamilə yanlış və zərərli olduğu anlamına da gəlmir. Dinlər, əsasən insanlara doğruluğu, gözəlliyi və Uca Yaradana ibadət etməyi öyrədirlər. Bir çox dinlərin səhvləri olsa belə, doğruları səhvlərindən daha çoxdur. Qısaca desək, ən pis din də dinsizlikdən yaxşıdır. Tam mənada layiq olan və insanları yalnız doğruluğa istiqamətləndirən yeganə din isə İslam dinidir. Onu da qeyd etmək lazımdır ki, yəhudilik və xristianlıq kimi Allah dərgahından gəldiyinə əmin olduğumuz dinlər bu gün də olmasına baxmayaraq, onların zamanla təhrifə məruz qalmalarından dolayı onların da kamilcəsinə varlığı şübhə altına düşmüşdür. Bir neçə digər din isə heç bir ilahi mənbədən qidalanmadığı üçün saysız-hesabsız səhvlər və xurafatlarla dolmuşdur.

Məsələn, bütün dinlər son din olan İslam dini gəlincə qüvvələrini itirmişdilər. Çünki İslam dini ən mükəmməl bir dindir. İslam dini gəldikdən sonra, bütün bəşəriyyətin vəzifəsi bu dinə tabe olmaq və keçmiş dinlərdən əl çəkməkdir.

## Niyə İslam dininə tabe olmalıyıq?

Bu suala cavab vermək üçün aşağıdakı dörd təməli dərindən dərk etmək lazımdır:

1-Allah tərəfindən insanlara göndərilən son din, İslam dinidir.

2-Hz. Məhəmməd (s) İslam dinini insanlara çatdırmaq üçün seçilmiş bir elçi kimi, İslama dəvətinin haqlı olduğunu müxtəlif dəlillərlə sübut etmişdir.

3-İslam dininin ən əsas mənbəyi olan Qurani-Kərim kitab olaraq, başqa dini kitablardan fərqli olaraq heç bir tarixi dönəmdə dəyişikliyə məruz qalmayan yeganə dini kitabdır. Bir hərfinin belə dəyişdirilmədiyi yeganə dini mənbədir.

4-İslam dini, ağıla, elmə və bəşəriyyətin xasiyyətindəki xüsusiyyətlərə uyumu ilə hər zaman haqqa niyyətini nümayiş etdirmişdir.

## İslam dininin əsas xüsusiyyətləri nələrdir?

İslam dininin mühüm və əsas xüsusiyyətlərini belə sıralaya bilərik:

1-İnsana insanın yaradıcısı tərəfindən göndərilən son və qüsursuz həyat proqramıdır.

2-İnsanın yaradılışı ilə yüz faiz harmoniya təşkil edir. Çünki, bu din insanı yaradan Allah tərəfindən göndərilmişdir.

3-İslam dini ağıl və məntiq dinidir.

4-İslam dini, məlumat, fikir yaymaqda əhəmiyyətli bir vasitədir və "Oxu" hökmüylə öyrənməyə xüsusi əhəmiyyət verib bununla ucalır.

5-İslam dini bütün insanlığa göndərilmişdir. Bütün millətlər, bütün irqlər, qadın kişi hər kəs bu dinin sahibidir.

6-Ağıl, Qurani-Kərim, Peyğəmbər (s) və Əhli-Beytin (ə) sünnəti İslam dininin əsas mənbələridir.

7-İslam dini insanlar arasındakı fərqli üstünlüyü ancaq təqva üzərindən qəbul edir. Təqva insanın həyatında günahdan çəkinib öz vəzifələrini yerinə yetirməsinə deyilir.

## İslam dini yalnız axirət üçündürmü?

Xeyr, İslam, insana dünya və axirət xoşbəxtliyi qazanmağın yollarını öyrətmək üçün gəlmişdir. Dünyası gözəl olmayanın axirəti də gözəl olmaz. Yəni dünya həyatında davranışları yaxşı

olmayanın axirət həyatı da gözəl olmaz. Çünki dünya və axirət bir-birindən ayrı deyil.

Dinimiz cəhənnəmdən qorunub cənnətə girə bilmənin yolunu öyrətməklə bərabər, bu dünyanı da təmiz, gözəl, ədalətlə, sevgi və qardaşlıqla cənnətə çevirməyi öyrətməkdədir. Buna görə də İslam dini ibadət qanunlarından başqa, təmizlik, sağlam həyat, ictimai ədalət, doğru ticarət, uşaq tərbiyəsi, ailə səadəti, geyim, yemək, içmək və bənzəri bir çox məsələlərdə minlərlə həyat və xoşbəxtlik verən müddəa və tövsiyələri əhatə edir.

Həqiqi bir müsəlman axirətini qazandığı kimi dünyasını da təmiz, xoşbəxt, sevgi, sağlam və dinc bir həyat halına gətirmək üçün səy göstərir.

İslam bizə dünyadakı halal nemətlərdən və zövqlərdən istifadə etməyi qadağan etməz. Bunun əksinə, gözəl dinimiz bizə halal ləzzətlərdən bəhrələnməyi, xoşbəxt və gülərüzlü olmağı, insanlarla birləşməyi, sevməyi və sevilməyi tövsiyə edir.

## Qərbdə niyə dindən qorxurlar?

Bildiyimiz kimi, Avropada xüsusilə XVIII əsrdən bu yana, xalqın böyük bir qismi dinsizliyə yönəlmiş və lap az bir qism dini qəbul etməyə meyllənmişdir. Bu qaçış və qorxu da bir sıra amillərin nəticəsidir.

Biz sadəcə burada dindən qaçış və qorxunun səbəblərini qısaca başlıqlar altında işarə etməklə kifayətlənirik.

**1.Əxlaqi və əməli fəsadlar:**

Dini qəbul etmək və ona tabe olmaq insanın hərəkətlərinə sərhədlər gətirir. Bu səbəbdən, maddi və şəhvətlərə batmış, dini öz azad hərəkətləri qarşısında bir maneə kimi görənlər, dini inkar edərək özlərinin özbaşnalıqdan ibarət olan yolunu və önünü açmaq istəyənlərdir.

Qurani-Kərim də qiyaməti və axirəti inkar edənlərin şəhvət və arzularına görə inkarçı olduqlarını buyurur. "Lakin insan (bundan sonra da) önündəkini (qiyaməti) danmaq (pis işlər görmək) istəyər"[1]. Digər yandan günahlar əxlaqi və əməli fəsadlar, haqqı və həqiqəti müəyyənləşdirməyə mane oldu.

**2. Dinlə dünya səadətinin bir-birinə zidd olduğunu göstərmək:**

Qərbdə insanlar axirət səadətini istəyən birinin dünya nemətlərindən uzaqlaşması, ruhbanlığa, quru müqəddəsliyə yönələrək qüdrət və sərvəti tərk etməsi lazım olduğuna, bir sözlə, dünyada bədbəxt olmaq lazım olduğuna inandırırdı. Halbuki, gerçək din, həm dünya, həm də axirət səadətini birlikdə qazanmağı istəmişdir.

Rusell belə deyir:

"Kilsənin öyrətdikləri insanları iki bədbəxtlik və ümidsizliyin arasında qoyur: Ya dünya bədbəxtliyini və onun nemətlərindən ümidini kəsmək, ya da axirət bədbəxtliyi və ümidsizliyini...".

Kilsəyə görə insan bu iki şeydən birini seçməlidir. Ya dünya bədbəxtliyini seçib axirətin ləzzətini dadsın, ya da dünya nemətlərindən faydalanıb axirət nemətlərindən məhrum olmağı qəbul etsin.

**1.Din məsələsində ixtisası olmayanların fikir bildirmələri:**

Xalqa bilib inanmaları lazım olan Allahı tanıması yolunda əsası çox sadə və fitri ilahiyyat olduğunu bildirmək yerinə, onun anlayış olaraq dəqiqini bilmək çox çətin və zəhmət tələb edən bir işdir,- deyə beyinlərə yeridilməsidir. İmam Əlinin (ə) buyurduğu kimi, Allahın sifətləri haqda, qəza-qədər, cəbr, qoca və s. kimi məsələlər barədə hər kəs fikir bildirə bilməz. Ona girmək olmaz, çünki çox dərin bir dənizdir.

---

[1] Qiyamət, 5.

Təəssüf ki, həm qərbdə, həm şərqdə, hər kəs özünə bu barədə fikir bildirmə haqqı tanımışdır, bu məsələləri yanlış bir şəkildə xalqa yeritmişlər və bu da ona səbəb olmuşdur ki, xalqı dinin hakimiyyəti məsələsində şübhəyə salmışdılar[1].

**3-cü dərsin sualları**

1- İndiki bütün dinlər doğrudurmu?

2-İslam dininin əsas xüsusiyyətləri nələrdir?

3- Din yalnız axirət üçünmü gəlmişdir?

4- Bugünkü dünyada dindən qaçışın səbəbləri nələrdir?

[1] Daha geniş bilgi üçün bax: Gənclər üçün etiqad dərsləri, Ustad Şirvani, s.39.

**DƏRS: 4**

# ÜSULU DİN

Dinin əsası beşdir:
1- Tövhid
2- Ədalət
3- Peyğəmbərlik
4- İmamət
5- Diriltmək (Məad)

**Tövhid**

Allahın varlığına və təkliyinə inanmağa tövhid deyilir. Yəni, Allahın tək və var olduğuna inanmaqdır. Tövhid inancının başlıca əsaslarını bu şəkildə sıralaya bilərik:

Hər seyi var edən yeganə məbud Allahdır. Allahın heç bir şeyə ehtiyacı yoxdur və hər şey Ona möhtacdır. O doğmamış və doğulmamışdı. Tayı və bənzəri yoxdur. Allah bütün gözəl sifətlərə malikdir. Hər şeyi biləndir. Hər şeyə qadirdir. Ən şəfqətli və mərhəmətli olandır. Bütün gözəlliklərin və yaxşılıqların mənbəyidir. Allah bütün nöqsanlardan uzaqdır.

Heç vaxt yanılmaz, unutmaz, aciz qalmaz. Heç bir şeyə ehtiyac duymaz. İbadət və itaətə layiq yalnız Allahdır.

Sadəcə Allaha inanmaq kifayət deyil, bu inanc eyni zamanda müsəlmanların həyatına da əks olunmalıdır. Tövhidə həqiqətən inanan bir müsəlman Allahın hökmü qarşısında heç bir hökmü qəbul etməməlidir.

## Tövhid neçə hissədir?

Tövhid dörd əsas ana xəttə ayrılır:

1- **Tövhid zatı:** Yəni Allahın zatı hər şeydən uzaqdır, ucadır. Birdir, şəriki, bənzəri, danışacağı, görüşəcəyi biri yoxdur. Varlığı

özündəndi. Cismi, şəkli və məkanı yoxdur. Qüdrəti və elmi hər şeyi əhatə etmişdir.

2- **Tövhid sifəti:** Allah daimi olaraq diridir. Əvvəlinə bir əvvəl təsəvvür edilməyəcəyi üçün qədim, sonuna bir son düşünülməyəcəyi üçün də baqidir. Hər şeyə gücü yetər və iradə sahibidir.

3- **Tövhid xaliqi:** Hər şeyi o yaratmışdır. Yaradıcılığında bir ortağı və köməkçisi yoxdur.

4- **Tövhid ibadət:** Yəni ibadət ancaq ona məxsusdur. Allahdan başqa heç bir şeyə ibadət edilməz və yalnız ona qulluq edilər.

## Uca Allahın sifətləri

Uca Allahın sifətləri üçün müxtəlif bölgülər edilmişdir. Bu bölgülərin ən əsası, Allahın sifətlərinin zatı və əməli sifətlər olmaq üzrə ikiyə bölünməsidir.

**1- Zatı sifətlər:** Allahı, zatı xaricində bir şeyi göz önünə almadan səciyyələndirdiyimiz sifətləridir. Bir başqa sözlə, Allahı onlarla qiymətləndirmək üçün, Allahın öz zatının başqa bir şeyi nəzərdə tutub sonra zatla ölçməyə ehtiyac yoxdur.

**2- Əməli sifətlər:** Zatı sifətlərinin qarşısında faktiki sifətləridir. Yəni Allahı onlarla səciyyələndirmək üçün, yalnız Allahın zatını nəzərə almaq kifayət olmayıb, onun zatının başqa bir şeyin də olması və onun zatla olan əlaqəsi (Allahın zatı ilə) də nəzərə alınmalıdır.

Məsələn, əgər heç bir şey yaradılmamış olsaydı Allah (Yaradan-Yaradıcı) kimi qiymətləndirilməzdi[1].

[1] Təməl Anlayışları Din, Əli Şirvani, s.81.

## Zatı sifətlərlə feli sifətlər arasındakı fərq

**1-** Əməli sifətlər zatın öz əməli üçün və onunla müqayisə edilməklə adlandırılan sifətlərdir. Yəni bu sifətlər Allahın əməl məqamından alınır. Halbuki zatı sifətlər zatın məqamından alınır.

**2-** Əməli sifətlər isbat və inkar edilə bilər. Yəni qeyri-müəyyən vəziyyətdə Allah üçün isbat edilib, digər bir vəziyyətdə mən edilir. Məsələn, uca Allah yer üzünü yaratmazdan əvvəl yerin "yaradıcısı deyildi", amma yaratdıqdan sonra "yer üzünün Yaradıcısıdır" deyə bilərik[1].

## Sübuti və Səlbi sifətlər

Başqa bir məqamda Uca Allahın sifətləri sübuti və səlbi olaraq ikiyə ayrılır:

Sübuti sifətlər - Allahın zatının mükəmməlliyini bəyan edən sifətlərdir. Allahın sübuti sifətlərində heç bir nöqsan yoxdur.

Səlbi sifətlər - hər hansı bir nöqsanı Allah haqqında rədd edilən sifətlərdir.

Bu sifətlər Allahın digər varlıqlardan fərqli olduğunu və onun pak olduğu nöqsanları açıqlayır. Sübuti sifətlərə Cəmal sifətlər, səlbi sifətlərə isə Cəlal sifətlər də deyilir[2].

**4-cü dərsin sualları**

1-Üsul-i Din neçə hissədir?

2-Tövhid neçə hissəyə bölünür?

3-Tövhid əsasında ibadət nədir?

4-Uca Allahın zatı sifətilə, feli sifəti arasındakı fərq nədir?

---

[1] Təməl Anlayışları Din, Əli Şirvani, s.82.

[2] Təməl Anlayışları Din, Əli Şirvani, s.83.

## DƏRS: 5

## ALLAH CİSİMDİRMİ, GÖZLƏ GÖRÜLƏ BİLƏRMİ?

Allah-Təala heç vaxt gözlə görünməz, çünki bir şeyin gözlə görünməsi demək onun cisim, məkan, yer, rəng, forma və istiqaməti olması deməkdir ki, bütün bunlar məxluqlarda xas faktlardır. Allah isə məxluqlara xas sifətlərə sahib olmaqdan uzaq və pakdır.

"Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər. O, lətifdir (cismlikdən uzaqdır), (hər şeydən) xəbərdardır![1]".

# İSLAMDA ALLAH

### Qurani-Kərimdə Allah anlayışına ümumi bir baxış

İslam dininin yaranması və yayılmasında əsas hədəfin zatı müqəddəs olan Allahı layiq olduğu şəkildə tanıtmaq olduğunu bilirik. Uca Allah heç bir etiqadda və dini təlim məktəblərində Qurani-Kərimdəki qədər tanıdılmayıb. Hətta əvvəlki ilahi dinlərdə belə, bu dəyərləndirmələr həqiqi kamal və əsl olanına çatmamışdı. Qurani-Kərim Allahı ən kamil şəkildə insana tanıtmaq niyyətində olan bir kitabdır.

Qurani-Kərimdə Allah aşağıdakı xüsusiyyətlərdə təqdim olunmuşdur:

- Rəhmət və neməti genişdir, hər şeyi biləndir[2].
- Bilin ki, hökm Onundur (Allahındır) və O, ən tez haqq-hesab çəkəndir[3]!
- Diri və hər şeyə hakimdir[4].

---

[1] Ənam, 103.
[2] Bəqərə, 115.
[3] Ənam, 62.
[4] Taha, 111.

- Çox uca və uludur[1].
- Əzəmət və kərəm sahibidir[2].
- Ən gözəl adlar Allahındır. O halda Ona gözəl adlarla dua edin[3].
- Hara dönsək, Allah oradadır[4].
- O birdir[5].
- Ən uca sifətlər Allaha aiddir[6].

Qurani-Kərim, həqiqətən Allahı tanıma və mərifət kitabıdır. Quran Allahı ən dəqiq, ən gözəl və ən yüksək formada təsvir etmişdir.

İmam Xomeyni bu mövzu haqqında belə buyurur:

"Əgər Quran olmasaydı, Allahı tanıma qapısı əbədi bağlanmış olardı. Onu Quranda olduğu qədər, heç bir kitabda, hətta İslami irfan kitablarında belə tapa bilməzsiniz. Onların təbirləri kimi Quran təbirləri eyni formada deyil, Quranda daha başqa bir şəkildə bir lətafətlər mövcuddur[7]".

## Allahı tanımağın əhəmiyyəti

Allahı, Onun uca ad və keyfiyyətlərini tanıma, elmi, fərdi və ictimai təsirin xaricində insanın səadəti üçün çox dəyərli və təsirlidir. İnsanın təkamülü Uca Allahı düzgün formada tanımasına bağlıdır.

Allahı layiq olduğu şəkildə tanımayan, gözəl işlər görməyə qayğı göstərsə də, heç vaxt imanı kamilliyin son dərəcəsinə çatmayacaqdır.

---

[1] Loğman, 30.
[2] Rəhman, 27.
[3] Əraf, 180.
[4] Bəqərə, 115.
[5] Tövhid, 1.
[6] Nəhl, 60.
[7] Quran Marifətullah Babı, s.32

Allahı doğru bir şəkildə tanımaq kamalın ən yüksək dərəcəsi olub insanı həqiqətə və Allahın tərəfinə doğru yol alır.

"Ona ancaq gözəl sözlər yüksəlir, onları da Allaha əməli-saleh çatdırır"[1].

Şəhid Mütəhhəri bu barədə belə deyir:

"İnsanın insanlığı, Allahı tanımasına bağlıdır. Çünki Allahı tanımaq, insandan ayrı olmayıb, bədəninin ən əsas və dəyərli hissəsidir. İnsan nə qədər varlığı, varlıq aləmini, onun başlanğıcı və əslini tanısa, bu, elm və mərifətin yaratdığı insanlıq cövhərinin, onda yaranması deməkdir. İslami baxımdan, xüsusilə şiə məzhəbinə görə, ilahi mərifəti anlama, o mərifətə bağlı olan elm, ictimai təsirlərdən kənara bunun özü, bəşəriyyətin hədəf və son nöqtəsidir"[2].

**5-ci dərsin sualları**

1- Allah gözlə görülə bilərmi?

2- Allahı tanımağın əhəmiyyəti nədir?

---

[1] Fatir, 10.

[2] Məcmuə Asar, c.2, s.105.

## DƏRS: 6

# ƏDALƏT (ƏDL) ANLAYIŞI

Ədalət ərəbcə bir kəlmə olub, ədl kökündən gəlir və aşağıda zikr edilən mənalarda istifadə edilmişdir.

**1. Varlıqların ölçülü və nizamlı olması**

Əgər, müəyyən bir məqsədə uyğun olan, müxtəlif parçalardan ibarət bir məcmuə nəzərə alsaq, özündən güdülən məqsədin təmin edilməsi və varlığının davam etməsi üçün, onun hissələri arasında kəmiyyət və keyfiyyət baxımından bərabərlik ölçüsünə riayət edilməsi vacibdir. Əks təqdirdə, nə varlığını davam etdirə, nə də özündən güdülən məqsəd əldə edilə bilər.

Allahın *"Göyü ucaltdı və mizanı (tarazlığı) qoydu ki, tarazlığı aşmayasınız[1]"* ayəsi ilə Rəsulallahın **"Göylər və yer ədalət üçün ayaqda durmuşdur"** hədisi bu anlama işarə edir.

**2. Haqq sahibinin haqqına riayət edilməsi**

Ədalətin bu mənası haqq sahibinin haqqına riayət edib, hər kəsin haqqını özünə verməkdir. Bu mənaya görə ədalət: "Hər haqq sahibinin haqqını özünə vermək" olaraq tanınmışdır.

**3. Ədalətin öz yerində olması.**

Bəzən ədalət daha geniş bir məna daşıya bilir. Ədalət əslində hər şeyi öz yeri və mövqeyinə doğru, dürüst qoymaqdır. İmam Əli (ə) belə buyurur: **"Ədalət, işləri öz yerinə qoyar[2]".**

Yəni yaxşıya, yaxşılığının əvəzi olaraq mükafat, pisə də pisliyin qarşılığı olaraq cəza - ədalətin gərəyi və simvoludur.

[1] Rəhman, 7-9.
[2] Nəhcul-Bəlağə, Hikmət: 427-ci daha geniş bilgi üçün bax: Əhli Beyt məktəbində əsas inanclar, Abdullah Turan, c.1, s.223.

Allah hər haqq sahibinə haqqını verir: *"Hər bir fəzilət sahibinə mərhəmətinin (dünya və axirətdə) qarşılığını verir"*[1]. O kimsəyə haqsızlıq etməz...

Heç kimsə qəza-tale adı altında öz etdiyi pisliyi Allah adı ilə bəhanə edə bilməz.

Allah qullarına ədalətli olmağı və hər kəsin haqqını qorumağı buyurmuşdur.

*Şübhəsiz ki, Allah zərrə qədər haqsızlıq etməz.* (Qulun gördüyü iş, əgər bir pislik olsa onun cəzasını ədalətlə verir. *Yaxşılıq olsa, onu mərtəbələr (qat-qat artırır), qatında ona böyük mükafat verər*[2].

## ALLAHIN ƏDALƏTİNİN MƏNASI NƏDİR?

Uca Allah adildir və heç kəsə zülm etməz, - şəklində yayğın sözün geniş mənası vardır.

**1)** Uca Allahın ədalətli olması demək, Onun məntiq və hikmətə zidd heç bir şey etməməsi deməkdir.

**2)** Ədalət, uca Allahın dərgahında bütün insanların hər baxımdan bərabər və bir olması və yaxşı əməllər yerinə yetirərək özünü pisliklərdən uzaq tuta bilənlərdən başqa, kimsənin digərindən üstün sayılmamasıdır: "*Allah qatında ən üstün və ən aziz olan ən təqvalılarınızdır*"[3].

**3)** Haqq üzrə mükafatlandırma və mühakimə etmə: *"Kim zərrə qədər yaxşılıq etsə, onun əvəzini görəcəkdir, kim bir zərrə qədər pislik edərsə, onun əvəzini görəcəkdir"*[4].

**4**- Hər şeyi yerinə qoya bilmək: Ədalətli insan hər şeyi öz yerinə qoyandır[5].

**6-cı dərsin sualları**

1- Ədalət nədir?

2- Allahın ədalətinin mənası nədir?

---

[1] Hud, 3.
[2] Nisa, 40.
[3] Hucurat, 14.
[4] Zilzal, 7.
[5] 40 Dərsdə Əhli Beyt inancları, Ustad Əsğər Əli, s.80.

**DƏRS: 7**

# NÜBUVVƏT

Nübuvvət - Allahın göndərdiyi Peyğəmbərlərin haqq olduğuna inanmaqdır. Allah bəşəriyyətin inam-iman əhlinə 124 min Peyğəmbər göndərmişdir. İlk Peyğəmbər insanların ilki və atası Adəm (ə), sonuncu Peyğəmbər isə Hz. Məhəmməddir (s).

Uca Allah Peyğəmbərləri insanlara doğru yolu göstərmək, Allahı tanıtmaq, ədaləti təmin etmək və gözəl əxlaqı cəmiyyətə qazandırmaq üçün göndərmişdir. Peyğəmbərlər tarixin nümunə insanlarıdır. Biz onlara baxaraq, Allaha necə qulluq edəcəyimizi, necə bir insan olacağımızı öyrənirik.

Yüz iyirmi dörd min Peyğəmbər arasından beş Peyğəmbər ulul-əzm (əzm sahibi) Peyğəmbərlər adlanırlar.

(Ey möminlər, yəhudi və xaçpərəstlərin sizi öz dinlərinə dəvət etmələrinə cavab olaraq) belə deyin: "Biz Allaha, bizə nazil olana (Qurana), İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladına (əl-əsbat) göndərilənlərə, Musaya və İsaya verilənlərə, Rəbbi tərəfindən (bütün) Peyğəmbərlərə verilən şeylərə (möcüzələrə) inanmışıq. Onlardan heç birini digərindən ayırmırıq. Biz ancaq Allaha boyun əyən müsəlmanlarıq!"[1].

## Peyğəmbərlərin sayı

Peyğəmbərlərin sayı xalq arasında da yayılmış olan inanca görə, 124 mindir. Allah Rəsulu (s) belə buyurur: "Peyğəmbərlərin sayı 124 mindir və bunların arasından beşi ulul-əzm Peyğəmbərlərdir".

## Quranda adları keçən Peyğəmbərlər

[1] Bəqərə, 136.

İlk insan və ilk Peyğəmbər Həzrəti Adəm (ə) ilə son Peyğəmbər Hz. Məhəmməd (s) arasında 124 min Peyğəmbər göndərildiyi rəvayət edilmişdir.

"Hər ümmətin bir Peyğəmbəri vardır"[1].

Bu Peyğəmbərlərdən bəzilərinin adı Quranda keçir. Quranda adı keçən Peyğəmbərlər bunlardır:

1-Hz. Adəm *(ə)*
2-Hz. İdris *(ə)*
3-Hz. Nuh *(ə)*
4-Hz. Hud *(ə)*
5-Hz. Saleh *(ə)*
6-Hz. Lut *(ə)*
7-Hz. İbrahim *(ə)*
8-Hz. İsmayıl *(ə)*
9-Hz. İshaq *(ə)*
10-Hz. Yaqub *(ə)*
11-Hz. Yusif *(ə)*
12-Hz. Şüəyb *(ə)*
13-Hz. Harun *(ə)*
14-Hz. Musa *(ə)*
15-Hz. Davud *(ə)*
16-Hz. Süleyman *(ə)*
17-Hz. Əyyub *(ə)*
18-Hz. Zülkil *(ə)*
19-Hz. Yunis *(ə)*
20-Hz. İlyas *(ə)*
21-Hz. Elyasa *(ə )*
22-Hz. Loğman *(ə)*
23-Hz. Üzeyr *(ə)*
24-Hz. Zəkəriyyə *(ə)*
25- Hz. Yəhya *(ə)*
26-Hz. İsa *(ə)*
27-Hz. Məhəmməd (s)[2]

---

[1] Yunus, 47.
[2] Əhli-beyt məktəbində əsas inanclar, Abdullah Turan, c.1, s.425.

# Quranda adı keçməyən bəzi Peyğəmbərlər

1-Hz. Hizkil *(ə)*
2-Hz. Danyal *(ə)*
3-Hz. Xızır *(ə)*
4-Hz. İşmuil *(ə)*
5-Hz. Sadikul-Vaad *(ə)*[1]

# Ulul-əzm Peyğəmbərlər

1-Hz. Nuh *(ə)*
2-Hz. Musa *(ə)*
3-Hz. İbrahim *(ə)*
4-Hz. İsa *(ə)*
5-Hz. Məhəmməd *(s)*

**7-ci dərsin sualları**

1- Üsuli-dində Peyğəmbərliyin məqsədi nədir?
2- Uca Allah neçə Peyğəmbər göndərmişdir?
3- Quranda adları çəkilən Peyğəmbərlər kimlərdir?
4- Neçə Ulul-əzm Peyğəmbər var və adları nədir?

[1] Əhli-beyt məktəbində əsas inanclar, Abdullah Turan, c.1, s.425.

**DƏRS: 8**

# NƏBİ, RƏSUL VƏ VƏHY

## Nəbi

Nəbi kəlməsinin lüğətdə iki mənası var:

1) Mühüm xəbər sahibi
2) Böyük və üstün mövqeyə sahib olan kimsə

**Kəlam elmində Nəbi:** Allah tərəfindən özünə vəhy gələn və xalqı son səadətə hidayət etmək üçün vəzifələndirilən kimsədir[1].

Bir başqa təbirlə desək: - Nəbi - bir insanın vasitəçiliyi olmadan, Allahdan vəhy alıb, onu insanlara bildirən kimsədir[2]. Peyğəmbərlər, vəhyin qəbul ediciləri və daşıyıcıları olduqlarına görə Nəbidirlər.

## Rəsul

Rəsul sözü, vəhy dilində Allahdan vəhy alma və xəbər vermənin yanında, Allahın mesajını insanlara çatdırmaqla vəzifələndirilən kimsə mənasındadır[3]. Peyğəmbər, vəhyin qəbul ediciləri və daşıyıcıları olmaları və bu vəhyi insanlara çatdırmaqla öhdəliyi olmaları səbəbiylə rəsuldurlar.

"Əgər üz döndərsəniz, bilin ki, Rəsulmuzun vəzifəsi, yalnız açıq-aşkar təbliğ etməkdir[4]".

[1] əl-İlahiyyat, Ustad Cəfər Subhani, c.2, s.20.
[2] ər-Resailu'l-Asr, Şeyx Tusi, s, 111.
[3] Cevaplıyoruz, Rza Hüseyni Nəsəb, s.92.
[4] Maidə, 92.

## Vəhy nədir?

Allah-Təalanın Peyğəmbərliyə seçdiyi kəslə qurduğu ünsiyyət şəklini ifadə etməkdə olub, həqiqət və xüsusiyyəti isə bizlərin hiss və idrakını aşmaqdadır. Uca Allah öz buyruqlarını, bu sözlə ifadə edilən üsulla seçdiyi Peyğəmbərlərinə çatdırmaqdadır[1].

“Biz Nuha və ondan sonrakı Peyğəmbərlərə vəhy etdiyimiz kimi, sənə də vəhy göndərdik”[2].

Vəhy lüğətdə müxtəlif mənalarda istifadə edilmişdir: “İşarə, yazmaq, yazı, məktub, xəbər, örtülü söz, gizlində elan və.s”

## Qurani-Kərimdə vəhy

Qurani-Kərimdə vəhy bir neçə mənada istifadə edilmişdir:

1- **Gizli işarə:** “Bunun üzərinə Zəkəriyyə, məbəddən qövmünün qarşısına çıxaraq: “Səhər-axşam təqdis edin” deyə işarə etdi”[3].

2- **İnstinktiv hidayət:** Hər cür varlığın, yəni bitki, heyvan, insan hətta bir mənada cansız varlıqları belə sahib olduqları, onun vəsiləsiylə öz davam və qalıcılıqlarını, davam etdirdikləri, təbii və instinktiv bir şəkildə sahib olduqları hidayət.

"Rəbbin bal arısına: Dağlarda, ağaclarda və insanların qurduqları çardaqlarda özlərinə evlər (evlərin damında, üzümlüklərdə) edin. Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə asanlaşdırdığı yayılım yollarına gir, deyə vəhy etdi”[4].

**3- İlham:** Təmiz insanlar həyatları boyunca bəzən təbiət sonrası və qeybdən, bəzi xəbərlər dərk edirlər. Bu qeybdən gələn xəbərlər

---

[1] Əhli-beyt məktəbində təməl inanclar, Abdullah Turan, c.1, s.379.

[2] Nisa, 163.

[3] Məryəm, 11.

[4] Nəhl, 68-69.

lazım olduğunda, xüsusilə insanın çıxılmaz vaxtda qaldığı zamanlarda, bir nur kimi, ürəyində parlayaraq yolunu işıqlandırır.

"Musanın anasına: Onu əmizdir, özünə zərər gələcəyindən qorxduğunda onu dənizə tulla, heç qorxub, narahat olma, çünki biz onu sənə qaytaracaq və onu Peyğəmbərlərdən biri edəcəyik,- deyə vəhy etdik"[1].

## Peyğəmbərlərə gələn vəhy

Bu mənada vəhy yalnız, Peyğəmbərlərə xas olub Peyğəmbərlik məqamına aiddir. Bu mənada vəhy, Quranda yetmişdən çox yerdə istifadə edilmişdir.

"Şəhərlərin anası (Məkkə) və onun ətrafındakıları xəbərdar edəsən və əsla şübhə doğurmayan məhşər günüylə onları qorxutmağın üçün, sənə ərəbcə bir Quran vəhy etdik"[2].

**8-ci dərsin sualları**

1-Nəbi və Rəsul nə deməkdir?

2-Vəhy nədir, Qurani-Kərimdə vəhy necə gəlmişdir?

[1] Qəsəs, 7.

[2] Şura, 7.

**DƏRS: 9**

# PEYĞƏMBƏRLƏRDƏKİ İSMƏT

İsmət - lüğətdə maniə yaratma və qorunma deməkdir. Peyğəmbərlərin ismətə sahib olmalarının mənası budur:

1- Vəhy alma, qoruma və xalqa çatdırmaq məqamında hər cür səhvdən qorunmuşlar.

2- Hər cür günah və pisliyə, hətta ən kiçik səhvlərə belə bulaşmaqdan qorunmuşlar.

## Peyğəmbərlər həyatları boyunca günahsızmı olurlar?

Bütün Peyğəmbərlər günahsız olub hər cür günahlardan təmizlənmişlər. Yəni, istər Peyğəmbərliklə vəzifələndirilmədən əvvəl, istər Peyğəmbər olmaları əsnasında, həyatları boyunca hər növ səhv, xəta və günahdan uzaqdırlar və Allah-Təalanın xüsusi qoruması altındadırlar.

## Peyğəmbərlər nə üçün məsum olmalıdırlar?

Peyğəmbərlərdə olan iki xüsusiyyət onları hər cür günah və xətalardan uzaqlaşdırır:

1- Günahların pis nəticəsinə olan tam bir inanc və onları hər cür günah və səhvlərdən uzaqlaşdıracaq ölçüdə dərin bir elm.

2- Şəhvət və bənzəri istəklərinə qarşı olan güclü hakimiyyət və iradələri Peyğəmbərləri böyük və seçilmiş insanlar etmişdir. Onların iradələrində zəiflik və acizlik əsla ola bilməz.

## Hz. Məhəmmədin (s) məsumiyyəti

Müsəlmanlar ümumi olaraq Peyğəmbərlərin Allahın ayələrini digər insanlara təbliğetmə mövzusunda günahsız olduqlarına inanırlar. Lakin bu məsumiyyətin əhatəsi və zamanı mövzusunda fərqli qrup və məzhəblər arasında görüş ayrı-seçkiliyi vardır.

- Şiə məzhəbinə görə, Peyğəmbərimiz istər elçilik dövründən əvvəl olsun, istərsə də sonra, xəta və ya təbliğə bağlı işlərdə və ya xüsusi mövzularda günahsızdır.
- Əhli-sünnət ümumi olaraq Peyğəmbərin yalnız elçilik zamanında günahsız olduğuna inanır.

## Allah nə üçün Peyğəmbərlər göndərmişdir?

Allah-Təala insan oğlunu hidayət və kamala çatdırıb, sonsuz səadətə qovuşmasını təmin etmək məqsədi ilə Peyğəmbərlər və elçilər göndərmişdir. Peyğəmbərlərin göndəriliş fəlsəfəsini qısaca belə sıralaya bilərik:

1- **Müəllim:** Peyğəmbərlərin ilk işi xalqı maarifləndirmək və tədrisə yönəltməkdir. Yəni bilmədikləri və ya öyrənməyə gücləri olmadığı şeyləri onlara öyrətmişlər.

(Onlar yenə dedilər:) "Ey Rəbbimiz! Onların (nəslimizin) içərisindən özlərinə elə bir Peyğəmbər göndər ki, Sənin ayələrini (hökmlərini) onlara oxusun, (Sən göndərən) Kitabı (Qur´anı) və (oradakı) hikməti onlara öyrətsin, onları (günahlardan) təmizləsin! Həqiqətən, Sən yenilməz qüvvət, hikmət sahibisən"[1].

2- **Təzkiyə (Təmizlənmə):** Peyğəmbərlər təmiz, pak və hər cür pis sifətlərdən uzaq olduqları üçün xalqı da gözəl əxlaqı qazanmağa, hər cür rəzillik və pislikdən xilas olmağa dəvət etmişlər. Quranın təbiri ilə Peyğəmbərlər xalqı pis sifətlərdən paklayıb təmizləyirlər.

---

[1] Bəqərə, 129.

3- **Təzəkkür (Xatırlatma):** İnsanlar yaradılışda tək Allahı qəbul etmə fitrəti üzrə yaradılmışlar. Təkamül və səadətə çatmaq, yaradanı tanıma, ibadət etmə istəyi və yaxşı işlərə yönəlmə duyğusu fitrətin yaradılışında mövcuddur. Lakin insanın özündən qafil olması, maddiyat və ətrafındakı müvəqqəti ləzzətlərə dalması bu fitrətin üzərini örtür. Buna görə ilahi Peyğəmbərlər davamlı olaraq dəyişik mesajlarla insanın bu unudulmuş amma, müqəddəs olan fitrətin üzərindəki tozları təmizləyərlər.

"O halda (Rəsulum) sən öyüd-nəsihət ver. Çünki sən ancaq öyüd-nəsihət verənsən"[1].

4- **Əsarətdən qurtuluş:** Peyğəmbərlər, insanların əsarət zəncirlərindən xilas olmaları yolunda əhəmiyyətli rollara sahibdirlər. Peyğəmbərlər Allah tərəfindən təchiz edilmiş mənəviyyatları ilə insanları maddi müstəmləkəçilərin əsarətindən və şəhvətə düşkünlükdən qurtarmışlar.

"O kəslər ki, əllərindəki Tövratda və İncildə (adını, vəsfini və əlamətlərini) yazılmış gördükləri rəsula-ümmi (heç kəsin yanında oxuyub elm öyrənməmiş və ya məkkəli) Peyğəmbərə tabe olurlar. (O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar (şəriətin çətin hökmlərini götürər). Ona (o Peyğəmbərə) iman gətirən, yardım göstərən və onun (Quranın) ardınca gedənlər məhz onlar nicat tapanlardır!"[2].

5- **Sosial ədalətin təmin edilməsi:** Peyğəmbərlərin ən böyük və əhəmiyyətli məqsədlərindən biri də cəmiyyətdə ictimai nizamı və ədaləti təmin etməkdir. Qurani-Kərim, cəmiyyətdə sosial ədalətin

[1] Ğaşiyə, 21.
[2] Əraf, 157.

tətbiq olunması və qorunmasının Peyğəmbərlərin vəzifəsi olduğunu açıqca bəyan etmişdir.

*"Həqiqətən, Biz Peyğəmbərimizi açıq dəlillərlə göndərdik və insanların ədaləti yerinə yetirmələri üçün özləri ilə kitabı və nizamı nazil etdik"*[1].

**6- Nümunə olmaq:** Bütün psixoloqlar arasında cəmiyyətin təhsilinə nümunə olmaq, birinci dərəcədə əsas və əhəmiyyətli olduğu qəbul etmək bir gerçəklikdir. Nümunə olma, təhsil və təkamüldə çox böyük və əhəmiyyətli bir yerə malikdir. Cəmiyyətdə cəmiyyət fərdləri iç-içə yaşayan Peyğəmbərlərin, ən məhsuldar xüsusiyyətləri onların insanlara bir örnək və fakt olmaları idi.

*"And olsun ki, Rəsulullah, sizin üçün, Allaha və axirət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl bir nümunədir"*[2].

**9-cu dərsin sualları**

1- Peyğəmbərlərdəki ismətdə məqsəd nədir?

2- Peyğəmbərlər nə üçün günahsız olurlar?

3- Peyğəmbərlərin göndəriliş fəlsəfələrindən bir neçəsini zikr edin.

[1] Hədid, 25.

[2] Əhzab, 21.

## DƏRS: 10

# İMAMƏT

İmaməti Peyğəmbərimizdən sonra Allah tərəfindən seçilmiş olan on iki Əhli-Beyt imamının (ə) vilayətinə (öndərliyində) inanmaqdır. On iki imam Hz. Əli (ə) və onun on bir pak övlad şəcərəsidir. On iki imam dinin qoruyucuları və Allahın seçilmiş qullarıdır.

Biz Peyğəmbərimizdən sonra, İmam Əlinin (ə) müsəlmanların həqiqi xəlifəsi və öndəri olduğuna və Allah tərəfindən bu məqama seçildiyinə inanırıq. Peyğəmbərimiz (s) bunu bir neçə dəfə və xüsusilə də Vida Həccində, Qədir-Xum çölündə açıq-aşkar bir şəkildə müsəlmanlara bildirmişdir.

İmam Əli (ə), kiçik yaşlarından etibarən Peyğəmbərimizin (s) tərbiyəsi altında yetişmişdir. İmam Əli (ə), Peyğəmbərimizdən (ə) sonra insanların ən biliklisi, ən təqvalısı və ən üstünüdür.

Peyğəmbərimiz (s) sevimli qızını, yəni Allahın günahsız və tərtəmiz etdiyi, gəlmiş keçmiş ən üstün qadın olan Hz. Fatiməni (ə) İmam Əli (ə) ilə evləndirmiş və ondan başqa kimsənin Hz. Fatimə (ə) ilə evlənməyə layiq olmadığını buyurmuşdur. Bu müqəddəs evlilikdən 11 pak və məsum imam dünyaya gəlmişdir.

12 imamın hamısı günahsızdır, onlar dünyəvi olaraq hakimiyyət və xilafət məqamına oturmamış olsalar da, bütün müsəlmanların həqiqi imamları və xəlifələridir. İmamlarımızın bütün sözləri bizim üçün ölçüdür. Onlar Quran və Peyğəmbər (s) sünnəsini ən gözəl şəkildə açıqlayıb şərh edənlərdir.

12 imamdan 11-i düşmənlər tərəfindən şəhid edilmiş, on ikinci imam olan Hz. Mehdi (ə.s.) isə kiçik yaşda qeybə çəkilmiş, yəni Allahın təqdiri və qoruması ilə insanların gözlərindən gizli olaraq yaşamağa davam etməkdədir.

İmam Mehdi (ə.s.) hələ də yaşamaqda olduğuna görə zamanımızın da imamıdır. Buna görə İmam Mehdiyə (ə.s.) zamanın imamı mənasını verən "İmam Zaman" deyilməkdədir.

"Ey iman gətirənlər! Allaha itaət edin: Peyğəmbərə və özünüzdən olan ulul əmrə (əmr sahiblərinə) də itaət edin"[1].

## Əhli-sünnətin imamət anlayışı

Əhli-sünnət isə, imamət məsələsini İslamın inancı əsasından saymayıb, onun İslamın fəri hökmlərindən biri olduğunu, imamlarda məsumluq, ilahi elm və ilahi təyin kimi şərtlər lazım olmadığını, Hz. Rəsulullahdan (s) sonra imamət işinin xalqın öz seçiminə buraxıldığını və imamətin, cəmiyyətin hamısının və ya cəmiyyətin baş bilənlərinin seçimi ilə və hətta silah zoruyla rəhbərliyin ələ keçirilməsi ilə belə olmaqla reallaşdığını müdafiə etməkdədir[2].

Əhli-sünnətin böyük alimlərindən olan Təftazani belə yazır:

Əgər imam ölsə və şərtinə caiz olan biri, beyət və istihlaf olmadan, imamət məqamını ələ keçirər, gücü ilə insanları özünə itaət etdirər və onları nəzarət altına alırsa, onun xilafəti sabit olar. Bu kişi, fasiq və cahil biri olsa belə, ən güclü görüşə görə hökm eynidir. Bu vəziyyət əgər çətin istifadə edilərək üstünlük əldə etmək yolu ilə birinin iməməti sabit olar, sonra da başqa biri gəlib ona qalib olarsa, birincisinin imaməti düşər və qələbə çalan ikincisi imam olur. Ayrıca imam, fasiq olmaq və s. şeylərlə imamətdən düşməz[3].

---

[1] Nisa, 59.
[2] *Əhli-Beyt məktəbində təməl inanclar,* Abdullah Turan, c.2, s.11.
[3] əl-*Ahkâmü's-Sultaniyə, Əbu Yala, s.40.*

## Şiə və sünninin imamət mövzusundakı fikir ayrılıqları

Şiələr imamət mövzusunda əhli-sünnədən bu üç mövzuda fikir ayrılığındadır:

1- İmam, insanlar tərəfindən deyil, Allah tərəfindən seçilməlidir.

2- İmamın elmi, ilahi elmdən qaynaqlanıb səhvsiz olmalıdır.

3- İmam, günahdan uzaq, məsum olmalıdır.

**10-cu dərsin sualları**

1- İmamlıqda məqsəd nədir?

2- Əhli-sünnətin imamətə baxışı necədir?

3- Şiə və əhli-sünnətin imamət mövzusundakı fikir ayrılıqları nələrdir?

## DƏRS: 11

# ON İKİ İMAMIN ADLARI

Cabir b. Səmurə belə deyir: Allah Rəsulunun (s) belə buyurduğunu eşitdim: “İslam on iki xəlifə sayəsində izzətini davam etdirəcək”. Daha sonra bir şey söylədi, amma mən eşitmədim. “Atama, Peyğəmbərin (s) nə buyurduğunu soruşdum. Atam mənə, Peyğəmbərin imamların hamısının Qureyşdən olduğunu söylədi”[1].

Peyğəmbərimiz (s) başqa hədislərində xəlifələrinin adlarını tək-tək saymışdır:

1-İmam Əli (ə)
2-İmam Həsən (ə)
3-İmam Hüseyn (ə)
4-İmam Zeynəl Abidin (ə)
5-İmam Məhəmməd Baqir (ə)
6-İmam Cəfər Sadiq (ə)
7-İmam Museyi Kazım (ə)
8-İmam Əli Rza (ə)
9-İmam Məhəmməd Təqi (ə)
10-İmam Əliyyən Nəqi (ə)
11-İmam Həsən Əsgəri (ə)
12-İmam Mehdi (ə)

### 12 imamın xüsusiyyətləri

Peyğəmbərin (s) vəsi və xəlifəsi olmaq, xalqın zahiri və batini hidayətini üzərində daşımaq və Qurani-Kərimin həqiqi alimi olmaq çox əhəmiyyətli və ağır vəzifələrdəndir.

---

[1] *60-Səhih-i Müslim, Misir Basqısı, c.6 s.2.*

Beləliklə, xalqın parçalanmaqdan qorunmasında və ilahi müddəaların həyata keçirilməsində təqlid olacaq məqamın (imamın) hər yöndə zamanının ən üstün olması lazımdır. Hər məqamda üstün olmayanın, üstün olana imamlıq etməsi qəbul edilməyəcək bir həqiqətdir.

Qurani Kərimdə belə buyurulur:

*De: "Şərikləriniz içərisində (insanları) haqq yola yönəldə bilən bir kimsə varmı?" (Sənə cavab verə bilməyən müşriklərə) de: "Allah (insanları) haqq yola yönəldir. Belə olduqda, doğru yola yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa, doğru yol göstərilmədikcə, özü onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?1".*

İmam Cəfər Sadiq (ə) imamların xüsusiyyətlərini belə sıralayır:

1- Məsum olmalıdır.
2- Nəss sahibi olmalıdır (Allahın əmri, Peyğəmbərin açıqlaması ilə təyin edilməlidir).
3- Zamanında xalqın elmdə ən üstünü olmalıdır.
4- İnsanların ən təqvalısı olmalıdır.
5- Allahın kitabına hamıdan çox alim və arif olmalıdır.
6- Açıq vəsiyyət sahibi olmalıdır.
7- Möcüzə və dəlil sahibi olmalıdır.
8- Onun gözləri yatsa da, qəlbi yatmamalıdır.
9- Kölgəsi olmamalıdır.
10- Önünü gördüyü kimi arxasını da görməlidir[2].

[1] Yunus, 35.
[2] *Biharul-Ənvar, c.25, s.140*

# İmam səhv və günah edə bilərmi?

İmamlar da Peyğəmbərlər kimi günahsızdırlar və ismət simasına sahibdirlər. Məsum olmayan biri qətiyyən etibarlı olmaz. Bu vəziyyətdə belə birindən, yəni məsum olmayan bir kəsdən dinin dəyişməz üsulları və təfsilatı tam bir inamla yüz faiz doğru bir formada əldə edilə bilməz[1].

Qurani-Kərim, Əhzab surəsinin 33-cü ayəsinin nazil olması ilə imamlar da, Peyğəmbərlər kimi günahsızdırlar:
"Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər![2]".

İbn Abbas belə rəvayət edir: Həzrət Rəsulullahdan eşitdim və (s) buyururdu: "Mən Əli, Həsən, Hüseyn və Hüseynin nəslindən gələcək olan doqquz imam pak və məsumuq"[3].

# İmam necə müəyyən olunur?

Peyğəmbərin varisi olan şəxsin (imam) müəyyən edilməsi, Peyğəmbərin açıq bildirişi və özündən əvvəlki imamın da bunu təyin etməsi ilə müəyyən olunur. Başqa bir təbirlə desək, imam da Peyğəmbər kimi (və şəxsən Peyğəmbər vasitəsilə) Allah tərəfindən təyin edilir və imamət məqamına təyin edilir[4]. Həzrət İbrahimin (ə) imamətliyi ilə əlaqədar ayədə də bildirildiyi kimi, imamı şəxsən Allah-Taala təyin edir: "Şübhəsiz, səni insanlara imam edəcəyəm"[5].

---

[1] *On iki imam etiqadı, Ayətullah Məkarim Şirazi, s.84.*
[2] *Əhzab, 33.*
[3] *Yənabiül-Məvəddət, s.445*
[4] *On iki imam etiqadı, Ayətullah Məkarim Şirazi, s.85*
[5] *Bəqərə, 124.*

## İmamın vəzifəsi nədir?

İmam heç vaxt yeni bir hökm və İslamda olmayan yeni bir qayda gətirməz, əksinə, onun vəzifəsi İslam dinini və Peyğəmbərin (s) sünnəsini qorumaq və bu müqəddəs dinin təbliğ və təlimi ilə məşğul olaraq insanları bu dinə hidayət etməkdir[1].

**11-ci dərsin sualları**

1. On iki imamın adlarını yazın?
2. Bir imamda zəruri olan xüsusiyyətlər nələrdir?
3. İmamlar da Peyğəmbərlər kimi məsumdurlarmı?
4. İmam kim tərəfindən müəyyən olunur və vəzifəsi nədir?

[1] *On iki imam etiqadı, Ayətullah Məkarim Şirazi, s.84.*

## DƏRS: 12

# MƏAD

Məad, öldükdən sonra dirilmə, qiyamət gününün, Cənnət və Cəhənnəmin haqq olduğuna inanmaqdır. Dünya həyatı insanların həyatının yalnız bir hissəsidir. İnsan ölməklə yox olmaz. Sadəcə, bir aləmdən başqa bir aləmə köçər. Dünyadakı həyat prosesini başa vurduqdan sonra, yeni bir həyat prosesinə başlayır. Öldükdən sonra köçdüyümüz aləmə axirət aləmi deyirik.

İnsan öləndə ruhu bədənindən ayrılır və axirət aləminə köçər. Qiyamət günü, ölümdən dərhal sonra başlamaz. Ölənlər Bərzəx aləmi deyilən bir aləmdə qiyamət gününü gözləyirlər. Bu gözləmə zamanı yaxşı insanlar mükafatlandırılırkən, pislər də cəzalandırılır.

Qiyamət günü hər bir insan dünyada etdiyi yaxşılıq və pisliklərə görə, cənnət və cəhənnəm əhli olacaqlar.

"Yoxsa, sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızımı güman edirdiniz?"[1].

## Məad necə baş verəcək?

İnsan yalnız ruhdan ibarət bir varlıq deyil, ruhu ilə birlikdə maddi bədəni də diriləcək və o dünyada yeni bir həyata başlayacaq. Çünki dünya həyatında insan övladı gördüyü hər şeyi, maddi bədəni və ruhu ilə birlikdə keçirir, bu səbəblə də mükafatlandırma və ya cəzalandırmağa da əlbəttə ki, hər ikisinin birlikdə iştirak etməsi lazımdır. Qurani-Kərim də bu fikri dəstəkləyir[2].

---

[1] *Muminun, 115.*

[2] *On iki imam etiqadı, Ayətullah Məkarim Şirazi, s.68.*

"Məgər insan elə güman edir ki, (qiyamət günü) onun sümüklərini bir yerə yığa bilməyəcəyik?!".
"Bəli, Biz onun barmaqlarını da (barmaq sümüklərini də, barmaqlarının uclarını da) düzəltməyə qadirik!"[1].

## Əməl dəftəri

Əməl dəftəri dünyaya gəldikdən sonra həddi-buluğ yaşından başlayaraq ölənə qədər etdiyimiz bütün xeyir və günahların yazıldığı məsələdir. Hesab günündə, etdiyimiz əməllərin yazıldığı dəftər əlimizə veriləcəkdir. Yaxşıların əməl dəftəri sağ əllərinə, pislərinki də sol əllərinə veriləcəkdir[2].

"Artıq kitabı sağ əlinə verilən şəxs (sevinclə məhşər əhlinə) alın kitabımı oxuyun deyir, mən əməllərimin nəticəsinə qovuşacağımdan əmin idim"[3].
"Əməl dəftərləri açılacağı zaman;"[4].

İmam Cəfər Sadiq (ə) buyurur:

**"Qiyamət qopduğu zaman insanın əməl dəftəri özünə veriləcək və oxuması üçün sərəncam olunacaqdır"**.

Ravi deyir: "İmama, görəsən o insan əməl dəftərində olanları (dünyada etdiklərini) tanıya bilərmi? - dedim".

İmam: Allah, ona sanki indi etmiş kimi hər an danışdığı, atdığı addımı, etdiyi hər şeyi xatırladacaqdır. Bu səbəbdən əməl dəftərini alanlar "Vah bizə, əfsus ki, bizə! Bu dəftər necə dəftər imiş! Böyük-kiçik hər şey buraxılmadan hamısını sayıb tökmüş!" - deyəcəkdir[5].

## Sirat körpüsü

---

[1] *Qiyamət, 3-4.*
[2] *On iki imam etiqadı, Ayətullah Məkarim Şirazi, s.70.*
[3] Haqqə, 19-25.
[4] *Təkvir, 10.*
[5] *Nurus-Səqəleyn Təfsiri, c.3, s.267.*

Quran və xüsusilə də hədislərdən belə məlum olur ki, qiyamət günü insanlardan hesabları soruşulduğu zaman onlar cəhənnəm üzərində qurulu olan bir körpüdən keçəcəkləri anlaşılır.

Sirat, hər kəsin üzərindən keçməsi lazım olan və cəhənnəmin üzərinə qurulmuş olan bir körpüdür[1].

"Sizdən elə bir kəs olmaz ki, oraya varid olmasın. Bu, Rəbbinin (əzəldən) buyurduğu vacib bir hökmdür".

"Sonra Biz Allahdan qorxub pis əməllərdən çəkinənlərə nicat verəcək, zalımları isə orada diz üstə çökmüş halda saxlayacağıq!"[2].

Hədislərdə isə sirat körpüsü belə açıqlanmışdır.

İmam Cəfər Sadiq (ə) hədisində belə buyurur: "İnsanlar siratdan təbəqələr halında keçəcəklər. Sirat isə tükdən incə və qılıncdan itidir. Bəzisi şimşək kimi sürətli keçəcək, bəzisi at çaparcasına keçəcək, bəzisi sürünə-sürünə keçəcək, bəzisi yeriyərək keçəcək, bəzisi isə ondan asılı olaraq keçəcək və atəş onun bəzi yerlərini yandıracaq, bəzi yerlərini də yandırmayacaqdır[3]".

Nəticədə, dünyada Quran və Əhli-Beytə tabe olanlar siratdan rahatlıqla keçəcək, onlardan üz çevirib üsyan edənlər isə siratı keçmədən vəd edilmiş dərdli əzaba düşəcəklər.

**12-ci dərsin sualları**

1- Məad nədir və necə baş verəcək?
2- Əməl dəftərinin məqsədi nədir?
3- Sirat körpüsü nədir?

---

[1] *On iki imam etiqadı, Ayətullah Məkarim Şirazi, s.71.*
[2] Məryəm, 71-72.
[3] *Biharul-Ənvar, c.8, s.64*

## DƏRS: 13

# BƏRZƏX ALƏMİ

İnsanın öldükdən sonra, ilk ayaq basdığı aləm, bərzəx aləmidir. Bərzəx - lüğətdə ərəbcə bir söz olub, iki şeyin arasında baş verərək, onların bir-birinə qovuşmasına mane olan pərdə kimi təsvir edilir.

Bərzəx, bu dünya ilə axirət həyatı arasında, qiyamətə qədər bütün insanların ruhlarının orada toplaşdığı Bərzəx adlı üçüncü bir "ölüm və məhşər aləmi" arasındakı bir dövrdür[1].

"Onların önündə dirilib (haqq-hesab üçün Allahın hüzurunda) duracaqları günə (qiyamət gününə) qədər maneə (öldükdən sonra, qiyamətədək qalacaqları bərzəx aləmi) vardır"[2].

## Qurani-Kərimdə Bərzəx

Qurani-Kərimin bəzi ayələrində işarətlərlə və bir hissəsində isə eyham yolu ilə, insanın ölümü başlayandan sonra, qiyamətdə məhşərə yetənə qədər davam edəcək bərzəx həyatına toxunulmuşdur.

"Nəhayət, (müşriklərdən) birinin ölümü gəlib çatdığı zaman o belə deyər: "Ey Rəbbim! Məni geri (dünyaya) qaytar!

Xeyr, bu onun dediyi boş (faydasız) bir sözdür. Onların önündə dirilib (haqq-hesab üçün Allahın hüzurunda) duracaqları günə (qiyamət gününə) qədər maneə (öldükdən sonra qiyamətədək qalacaqları bərzəx aləmi) vardır"[3].

---

[1] *On iki imam etiqadı, Ayətullah Məkarim Şirazi, s.74.*
[2] Muminun, 100.
[3] Muminun, 99-100.

# Hədislərdə Bərzəx

Bərzəx həyatı ilə bağlı olaraq, istər Əhli-Beyt mənbələrindən, istər əhli-sünnə mənbələrindən bir çox hədis nəql edilmişdir. Bizlər məsələyə aydınlıq gətirmək üçün onlardan yalnız bir neçəsini işarə etməklə kifayətlənirik.

İmam Cəfər Sadiqə (ə) Bərzəx nədir deyə soruşanda İmam: **"Bərzəx ölümdən qiyamətə qədər davam edən bildiyiniz qəbir aləmi",-** cavabını vermişdir[1].

İshaq əl-Cəvzi deyir ki, İmam Cəfər Sadiqə -"Möminlərin ruhları haradadır"?- deyə soruşdum. Belə buyurdu: "**Möminlərin ruhları cənnət evindədir. Cənnətin yeməklərindən yeyir, içəcəklər də içirlər. Bir-birilərini ziyarət edir və - Rəbbimiz! Qiyaməti gətir və bizə vəd etdiyini gerçəkləşdir,- deyirlər".**

Mən: "Bəs kafirlərin ruhları haradadır?" dedim. İmam: **"Onların ruhları da cəhənnəm otağındadır. Onlar da onun yeməklərindən yeyir və içəcəklərindən içirlər, bir-birilərini ziyarət edib: Rəbbimiz! Qiyaməti gətirərək bizə vəd etdiklərini həyata keçirmə, - deyə yalvarırlar,- buyurdu"[2].**

# Ruhların toplandığı yerlər

Hədislərin göstərişilə dünyanın hər yerində ölən möminlərin ruhları Nəcəfdə Vadius-Səlam adlanan yerdə toplanır. Başqa sözlə İmam Əliyə (a) qonaq olurlar. Möminlərin ruhları dünyadakı əməllərinin qarşılığı olaraq orada nemətlər içərisində olurlar. Günahkar və kafirlərin ruhları da Yəməndə Berahut deyilən tənha, quraq, heç bir otun bitmədiyi bir səhrada toplanır. Günahkar və kafirlər orada əməllərinin qarşılığında əzab və işgəncə görürlər.

---

[1] *Biharul-Ənvar, c.6, s.267.*
[2] *Üsulu Kafi, c.3, s.246.*

Onlar (ölən gündən qiyamətə qədər qəbir evində) səhər-axşam (gündə iki dəfə) odda yandırılarlar. Qiyamət qopduğu gün isə (deyiləcəkdir): “Firon əhlini ən şiddətli əzaba salın!”[1].

**13-cü dərsin sualları**

1- Bərzəx aləmi nədir?
2- Quran və hədislər bərzəx aləmini necə tanıtmışdır?
3- Ölənlərin ruhu harada toplanır?

[1] *Ğafir, 46.*

**DƏRS: 14**

# QƏBİRDƏ SORĞU-SUAL EDƏNLƏR KİMLƏRDİR?

Ayə və rəvayətlərdən belə nəql edilir: İnsan qəbirə qoyulduqdan sonra, Münkər və Nəkirdən əvvəl "Ruman" adında bir mələk ölmüş şəxsin yanına gəlib onun xeyir və şər əməllərini yazdırar. Daha sonra Münkər və Nəkirə xəbər verir.

Abdullah Salam deyir: Peyğəmbərdən belə soruşdum: "Məzarda ölünün yanına gedən ilk mələk kimdir?".

Rəsuli Əkrəm (s) belə buyurdu: **"Məzarda ölünün yanına ilk olaraq Ruman adlı nurani bir mələk gedər və ölüyə deyər ki: Bütün pis və yaxşı əməllərini yaz. Ruman, ölünün bütün əməllərini yazdırdıqdan sonra altını möhürləyib ölünün boynuna boyunbağı kimi taxar. Daha sonra Nəkir və Münkərə həvalə edər"[1].**

Qurani-Kərim bu mövzu haqqında belə buyurur:

*"Biz hər bir insanın əməlini öz boynundan asar və qiyamət günü (bütün əməllərini) açıq kitab kimi qarşısına qoyarıq"[2].*

## Qəbir sualları

Rəsuli Əkrəm (s) və məsum Əhli-Beyt imamlarından (ə) nəql edilən rəvayətlərə görə, insana qəbirdə ilk olaraq Üsuli-din və Fürui-din haqda suallar soruşulacaq. Biz burada qısaca o suallardan bir neçəsini zikr etməklə kifayətlənirik:

1- Allah

2- Peyğəmbər

---

[1] *İlmu'l-Yakin, Kaşani, c.2, s.885. Envaru'n-Numaniyye, c.4, 220. Kifayetu'l-Muvahhid, Təbərsi, c.3, s.231.*

[2] *İsra, 13.*

3- Din
4- Kitab
5- İmam
6- Ömrün sərf edildiyi yerlər[1]
7- Qazancdan, harada əldə edildiyindən və harada sərf olunduğundan
8- Dostdan[2]
9- Namaz
10- Həcc
11- Zəkat
12- Oruc[3]

## Qəbir sıxıntısı

Bu mövzuda nəql edilən hədislərdən anlaşıldığı kimi, qəbirin ölüyü sıxması heç şübhəsiz inkar edilməyəcək məsələlərdən biridir.

Lakin bizlər üçün qəbir sıxıntısının forması və necə olacağı naməlumdur. Yəni, əlimizdə dəqiq bir məlumat yoxdur. Hədislərdən başa düşülən budur ki, ölü qəbirə qoyulanda özünü böyük bir sıxıntı, qaranlıq və dəhşət içində görür.

Əbu Bəsir deyir: İmam Cəfər Sadiqdən (ə): Heç qəbir sıxıntısından xilas olan olarmı? - deyə soruşdum. İmam (ə): **"Ondan Allaha pənah aparıram, çox az kimsə ondan xilas olar"** buyurdu[4].

Yenə rəvayətlərdən anlaşıldığı kimi, qəbir sıxması (qəbir əzabı) şəxslərin əməllərinə görə, yüngül, normal və şiddətli olur. Bu da bir növ günahların kəffarəsi sayılır.

---

[1] *Biharul-Ənvar, c.6, s.223-264.*
[2] *Biharul-Ənvar, c.6, s 175*
[3] *Envarun-Numaniyye, c.4, s.229.*
[4] *Biharul-Ənvar* c.6, s.261

İmam Cəfər Sadiq (ə) Peyğəmbərdən nəqlində buyurur: **"Qəbir sıxması, imanlı insanlar üçün, israf etdikləri ilahi nemətlərə cavabdır.[1]"**

## Qəbir sıxıntısına səbəb olan əməllər

Əhli-Beytin buyurduqlarından belə aydın olur ki, qəbir sıxıntısı ən çox bu əməllərdən törəyir:

1- Söz gəzdirmə
2- Sidik nəcisindən çəkinməmək
3- Ailəsinə qarşı pis əxlaqlı olmaq
4- İlahi nemətləri israf etmək
5- Ərinə qarşı pis əxlaqlı olmaq
6- Dəstəmazsız namaz qılmaq və namazı əhəmiyyətsiz saymaq
7- Zalımlar qarşısında məzlum və düşkünlərə yardım etməmək
8- Dedi-qodu etmək (qeybət)[2]

## Qəbir əzabını aradan qaldıran əməllər

Bütün xeyir əməllər, Allah üçün edilən işlər qəbir əzabını insandan qaldırır. Ölüləri sıxan o məzar güllük-gülüstanlıq, Cənnət bağçalarından bir bağa çevrilir.

Rəvayətlərdə qəbir əzabını aradan götürən bəzi xeyir əməllər bunlardır:

1- Təhəccüd namazı (Gecə namazı)
2- Namazı qüsursuz yerinə yetirmək
3- Sədəqə vermək
4- Vəhşət namazı qılmaq
5- Həccə getmək
6- Allah yolunda şəhid olmaq

---

[1] *Biharul-Ənvar* c.6, s.221

[2] *Biharul-Ənvar c.6, s. 221-222.*

7- Məhəmməd və Ali Məhəmmədə salavat göndərmək “Allahummə salli əla Muhəmməd və Ali Muhəmməd” demək

8- Əhli-Beyt sevgisi

9- Kasıb və pis əxlaqlı bir ərə dözmək

10- İmam Hüseynin (ə) ziyarətinə getmək

**14-cü dərsin sualları**

1- Qəbirdə kimlər suallar verir?

2- Qəbir sıxıntısı necə baş verir?

3- Qəbir sıxıntısına səbəb olan əməllər hansılardır?

4- Qəbir sıxıntısını aradan qaldıran əməllər nələrdir?

**DƏRS: 15**

# SURA ÜFRÜLÜŞ

Qurani-Kərimdəki bir çox ayələrdə Sura (İsrafilin suru) üfürülməkdən söz edilir. Mövzu ilə əlaqəli ayələri tədqiq etdikdə, iki dəfə Sura üfrüləcəyini görürük:

1- Ölüm Suru: Kainatın sonu gələndə Sura üfürüləcək, bütün məxluqat öləcək və qiyamət qopacaq.

2- Həyat Suru: Sura ikinci dəfə üfürülməsi isə qiyamət gününün başlanğıcı və məhşərin yaranma zamanıdır.

"Sura üfürülür, Allahın istədiyindən başqa, göylərlə yer üzündəki bütün canlılar ölür. Sonra Sura bir dəfə daha üfürürlər və ölənlərin hamısı birdən dirilib hesaba çəkilməyi gözləməyə başlayırlar[1].

## Qiyamətin qopması

Ayələr və Əhli-Beytdən gələn (ə) hədislərə baxılmalı olduqda, qiyamət qopduğu zaman, mövcud quruluşun tamamilə söküləcəyi, onun yerinə yeni bir quruluşun yaranacağı, xüsusilə insanlar və cinlərin təkrar həyata qaytarılacağı incə bir hesab və kitabdan sonra hər kəsin haqq etdiyi qarşılığa qovuşacağı anlaşılır.

Bizlər o yeni aləm haqqında heç bir məlumata sahib deyilik, amma Qurani-Kərim qiyamət qopduğu zaman meydana gələcək bəzi hadisələri və məqamları belə ifadə edir.

**1- Yer kürəsinin halı:**

Yer və dağlar qaldırılıb bircə dəfə bir-birinə çırpılacağı (əzilib toza dönəcəyi) zaman -...[2]

Dənizlər (qaynayıb bir-birinə) qarışacağı zaman;

---

[1] *40 Dərsdə Əhli- Beyt inancları, Ustad Əsğər Əli, s.222.*

[2] *Haqqə, 14.*

**2- Göylərin və ulduzların vəziyyəti:**

"Günəş (əmmamə kimi) sarınıb büküləcəyi (sönəcəyi) zaman";

"Ulduzlar (göydən qopub yağış dənələri kimi yerə) səpələnəcəyi zaman"[1];

"Ay tutulacağı";

"Məhz o gün insan: "Qaçıb can qurtarmağa yer haradadır?[2]" - deyəcəkdir.

**3- Sura üfürmə anı:**

"Sur (birinci dəfə) çalınacaq, Allahın göylərdə və yerdə olan istədiyi kimsələrdən (Cəbrail, Mikail, Əzrail və İsrafildən, yaxud ərşi daşıyan mələklərdən və ya müsəlman şəhidlərindən) başqa, dərhal hamı yıxılıb öləcək. Sonra bir daha çalınan kimi onlar (qəbirlərindən) qalxıb (Allahın əmrinə) müntəzir olacaqlar![3]".

## Qiyamət şahidləri

Uca Allah, insanların gizli və açıq işlədikləri bütün əməllərini bilir. Ancaq, Allahın hikməti insanların etdiklərinin hesabını qiyamətdə əməl dəftəri və şahidlərin şəhadəti əsasında görülməsini təqdir etmiştir.

1- **Uca Allah:** İlk şahid Uca Allahın özüdür:

"Şübhəsiz ki, Allah sizin üzərinizdə gözətçidir!"[4].

"(Ya Rəsulum! Kafirlərə) vəd etdiyimiz əzabın bir qismini sənə (dünyada) göstərsək də, yaxud (ondan əvvəl) səni axirətə qovuşdursaq (canını alsaq) da, bil ki, onların axır dönüşü Bizədir. Allah onların nə etdiklərinə şahiddir!"[5].

---

[1] *Təkvir, 1-2.*

[2] *Qiyamət, 8-10.*

[3] *Zumər, 68*

[4] *Nisa, 100.*

[5] *Yunus, 46.*

**2- Peyğəmbərlər və Əhli-Beyt imamları:**
"Səni onlara şahid olaraq gətirərik"[1].
"Hər ümmətə özlərindən şahid gətirəcəyimiz gün[2]".

**3- Mələklər:**
"Dediyi hər sözü (yazmaq üçün) onun yanında hazır durub gözləyən (iki mələk) vardır!".
"Hər bir kəs (Rəbbinin hüzuruna) bir sürüyən (sürüyüb məhşərə gətirən) və bir də şahidlə (iki mələklə) gələcəkdir"[3].

4- **Yer üzü:** "Məhz o gün (yer) öz hekayətini söyləyəcəkdir[4]". Rəsulallah (s) bu ayəyi oxuyanda: "Yer üzünün xəbərlərinin nə olduğunu bilirsinizmi?" - deyə soruşdu və sonra belə buyurdu: "Cəbrayıl mənə, qiyamət günü yer üzünün öz üzərində baş verən hər şeyi xəbər verəcəyini deyib"[5].

5- **Zaman (gecə gündüz):** İmam Cəfər Sadiq (ə) buyurur: "Hər gün başlayarkən insana belə deyir: Ey İnsan! Mən yeni bir günəm və sənə şahidəm. Bunu bil və bu gün xeyirli sözlər söylə, çünki mən qiyamət günü sənin üçün şahidlik edəcəyəm! Bundan sonra məni əsla görə bilməyəcəksən".

6- **İnsanın bədən üzvləri:** "Qiyamət günü (onlar dünyada qazandıqları günahlarını dandıqda) dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir"[6].

---

[1] *Nisa, 43.*
[2] *Nəhl, 86.*
[3] *Qaf, 18-21.*
[4] *Zəlzələ, 4.*
[5] *Əd-dürrül-mənsur təfsiri, c.2, s.334.*
[6] *Nur, 24.*

"Qiyamət günü qulaqlar, gözlər və dərilər onların etdiklərinə şahidlik edəcəkdir"[1]

7- **Törədilən əməlin özü:** "O gün insanlar əməllərinin özlərinə göstərilməsi üçün (qəbirlərindən məhşərə) dəstə-dəstə çıxacaqlar! (Cənnətliklər sağ tərəfdə, cəhənnəmliklər isə sol tərəfdə olacaqlar)".

"Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır)".

*"Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir)[2]".*

**8- Qurani-Kərim:** Qiyamət şahidlərindən biri də Qurani-Kərimdir. İmam Cəfər Sadiq (ə) belə buyurur: **"İnsan hesaba çəkilərkən Quran ən gözəl bir şəkildə onun qarşısında gələcək və Ey Rəbbim! Mən Quranam; Bu isə sənin qulundur. O məni tilavət etməkdə özünü yorar, gecə çox ətraflı məni tilavət edir və ağlayardı. Rəbbim! O məni razı saldığı kimi sən də onu razı et",- deyəcək.**

Bunun üzərinə Allah o qula sağ əlini uzat deyəcək və onun sağına öz razılığı, soluna isə öz rəhmətiylə dolduracaq, sonra da ona: Bax, bu cənnət sənə layiq görülmüşdür, oxu və yüksəl deyiləcəkdir. O isə oxuduğu hər ayədə bir dərəcə yuxarı çıxacaq[3].

---

[1] *Yasin, 56.*

[2] *Zəlzələ, 6-7-8.*

[3] *Biharul-Ənvar, c.7, s.268.*

## Ruhun dünya ilə olan əlaqəsi

Peyğəmbər və Əhli-Beyt imamlarından çatan xəbərlərə görə, ölən adamın ruhu, tamamilə bu dünyadan əlaqəsini kəsmir və bəzən yaşadığı evə qayıdaraq ailə üzvlərini izləyir.

İmam Cəfər Sadiq (ə) belə buyurur: Hər mömin və kafirin ruhu günorta üstü öz dünyadakı ailəsinin yanına gəlir. Mömin olan ruh öz ev xalqının yaxşı əməllərlə təkbətək olduğunu görəndə, Allaha şükür edər.

Kafir isə öz ev xalqının yaxşı əmələ yönəldiklərini görəndə həsrət duyur[1].

İshaq b. Ammar nəql edir: İmam Museyi Kazıma: Ölən insan ailəsini ziyarət edirmi? - deyə soruşdum.

İmam: **“Bəli, ziyarət edər”,** deyə buyurdu.

Mən: Nə qədər müddətdə ziyarət edir, - dedim.

İmam: **“Dərəcələrinə görə, Cümə günləri, ayda bir və ya ildə bir ziyarət edən olur. Ölən insan bu səfərdə əgər ailəsinin xeyir əməl etdiklərini və rahat olduğunu görsə sevinər, amma əgər onları pis iş üzrə və ya çətinliklər içində olduqlarını görsə, kədərlənir”**[2] buyurdu.

**15-ci dərsin sualları**

1- Sura üfrülmə nədir?
2- Qiyamət qopanda nə kimi hadisələr baş verəcək?
3- Qiyamət şahidlərindən bir neçəsini zikr edin
4- Ruhların dünya ilə əlaqəsi varmı?

[1] *Üsulu Kafi, c.3, s.23.*
[2] *Biharul-Ənvar, c.6, s.257*

## DƏRS: 16

# CƏNNƏT

“Allahdan qorxub pis əməllərdən çəkinənlər isə cənnətlərdə və bulaqlar başında olacaqlar”.

*“Ora sağ-salamat (sağlıqla) və (hər şeydən) əmin olaraq daxil olun!"*

*“Biz onların ürəklərindəki kin-küdurəti çıxarıb atdıq. Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər”.*

*“Onlara orada (Cənnətdə) heç bir yorğunluq (zəhmət) üz verməz. Onlar oradan çıxan da deyillər. (Cənnətdə əbədi qalacaqlar)”*[1].

*“(Cənnətdə) onlar üçün qızıl teştlər və qədəhlər içində (yemək-içmək) dolandırılacaqdır. Orada onların ürəkləri istəyən və gözlərini oxşayan hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız!*[2]*”.*

## Cənnəti qazanmağın yolları

Quran və hədislərdə cənnəti qazanmağın yollarının bəzilərini işarə etməklə kifayətlənirik.

1- **İman və saleh əməl**:

*Qurani-Kərim belə buyurur: İman gətirib yaxşı işlər görənlər isə cənnət əhlidirlər, onlar orada əbədi qalar.*

2- **Təqva (haram işlərdən çəkinmək):**

İnsanı haram işlərdən çəkindirən nəfsani bir haldır.

*“Bu, həmin o Cənnətdir ki, bəndələrimizdən müttəqi olanları ona varis edəcəyik*[3]*”.*

---

[1] *Hicr, 45-46- 47-48.*

[2] *Zuxruf, 71.*

[3] Məryəm, 63.

3- **Gözəl əxlaq:**

Həzrət Rəsulu Əkrəm (s) belə buyurur: **"Kim Rəbbinə üç sifətlə qovuşsa, istədiyi qapıdan Cənnətə girəcəkdir: Gözəl əxlaq sahibi olmaq, gizlində və aşkarda günah işləməmək, haqlı olsa da məntiqsiz müzakirələrdən qaçmaq"[1].**

4- **Cihad və şəhadət:**

Bu barədə Qurani-Kərim buyurur:

*"Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş Cənnət müqabilində satın almışdır. Allahdan daha çox əhdə vəfa edən kimdir? Etdiyiniz sövdəyə görə sevinin. Bu, böyük qurtuluşdur (uğurdur)![2]".*

5- **Nəfsə və həvəsə tabe olmamaq:**

*"Amma kim (qiyamət günü) Rəbbinin hüzurunda durmaqdan qorxmuş və nəfsinə istəyini (şəfvəti) qadağan etmişsə", "Həqiqətən, onun yurdu Cənnətdir![3]".*

## Cənnət nemətləri

Ayə və hədislərdən də aydın olduğu kimi, cənnət əhlinə verilən nemətlər və mükafatlar maddi və mənəvi ruhsal olaraq iki hissəlidir.

**Maddi nemətlər**

1- Cənnət bağları
2- Cənnət sarayları
3- Cənnət xalçaları və taxtları
4- Cənnət yeyəcəkləri
5- Cənnət içkiləri

---

[1] *Mizanul-Hikmət, c.2, s.95.*
[2] *Tövbə, 111.*
[3] *Naziat, 40-41.*

6- Cənnət paltarları və zinətləri
7- Cənnət zövcələri

**Mənəvi ruhi nemətlər**

1- Xüsusi sayğı ehtiram
2- Sakitlik və dinclik verici yerlər
3- Səfalı dostlar
4- Məhəbbət dolu davranışlar
5- Əbədi və daimi nemətlər

**16-cı dərsin sualları**

1. Cənnət nədir, necə qazanılır?
2. Cənnət mükafatları nələrdir?
3. Cənnətdəki ruhi nemətlərdə məqsəd nədir?

## DƏRS: 17

# CƏHƏNNƏM

Cəhənnəm, kafirlərin və günahkarların qalacaqları yerdir. Onun əzab və işgəncəsi bu dünyanın əzabları ilə müqayisə edilməyəcək qədər çətindir. Uca Allah Qurani-Kərimdə cəhənnəmi belə təsvir edir:

*"Ayələrimizi inkar edənləri oda (Cəhənnəmə) atacağıq. Onların dəriləri bişdikcə, əzabı (həmişə) dadsınlar deyə, o dəriləri başqası ilə əvəz edəcəyik. Əlbəttə, Allah yenilməz qüvvət, hikmət sahibidir!"*[1].

## Cəhənnəm əzabları

Ayə və rəvayətlərdən məlum olur ki, cəhənnəm əzabları da eynilə cənnət nemətləri kimi ruhi və cismi olur.

**Fiziki əzablar:**

1- Şiddətli əzablar
2- Cəhənnəmin yemək və içkiləri
3- Cəhənnəm paltarları
4- Çeşidli əzablar

**Ruhi əzablar:**

1- Hüzn və həsrət
2- Zillət və alçaqlıq
3- Alçaltmalar
4- Əbədi və daimi əzablar

**Cəhənnəm əhli orada əbədimi qalacaq?**

Dünya həyatının əksinə, axirət həyatının əbədi həyat, axirət yurdunun da əbədiyyət yurdu olduğunu bilirik. Buna görə də iman əhlinin mükafatlandırılacağı İlahi rəhmət təzahürü cənnət, üsyan

---

[1] *Nisa, 56.*

əhlinin cəzalandırılacağı İlahi qəzəb təzahürü cəhənnəm olaraq həmişəlik yurdlardır.

Cənnət əhlinin cənnətdə əbədi qalmasında heç bir şübhə yoxdur. Hətta, Allahın sonsuz rəhməti bunu tələb edir.

Cəhənnəm əhlinin cəhənnəmdə əbədi qalıb cəzalandırılmasını isə, bəziləri bunun, Allahın ədalət və sonsuz rəhmətinə uyğun gəlmədiyini düşünərək cəhənnəm əhlinin cəhənnəmdə əbədi olaraq qalmayacağını müdafiə etmişdilər.

Şiə alimlərinin öndə gedən Əllamə Hilli Serhi Təcrid adlı kitabında belə yazır:

Müsəlmanların hamısı, kafirin əzabının əbədi olub, qurtarmayacağı barədə ittifaq etməklə yanaşı, müsəlman olub böyük günah əhli olanların barəsində ixtilaf etmişlər. Bizə görə haqq görüş, müsəlmanlardan böyük günah əhlinin əzabının bir müddətdən sonra qurtarmasıdır.

## Tövbə

Tövbə, insanın bütün gördükləri pislik və üsyandan peşman olub Allaha üz tutmasıdır. Tövbə, həqiqətdə Allahın qullarına açdığı rəhmət qapısıdır. Tövbə yalnız dillə deyilən sözdən ibarət deyil. Əslində tövbə əməl və hərəkətdir. İnsan, günah və əməlinin pisliyini anlayıb, keçmiş səhv və günahlarından peşmanlıq duyaraq, keçmişin qara ləkələrini bərpa edəndə və bir daha o günahlara qayıtmadığında həqiqi mənada tövbə etmiş sayılır. Vəziyyət belə olduqda, Allah günahkar bəndənin bütün günahlarını və xətalarını örtür.

*“(Ya Peyğəmbər! Mənim adımdan qullarıma) de: "Ey Mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddi aşmış bəndələrim!*

*Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir![1]".*

**Tövbənin mərhələləri**

Nəhcül-Bəlağədə həqiqi "Tövbə" üçün altı mərhələ qeyd edilmişdir. Bir adam İmam Əlinin (ə) yanında "əstəğfirullah" dedikdə, Həzrət ona qəzəblənərək belə buyurdu: "Anan yasında ağlasın. İstiğfarın nə demək olduğunu bilirsinizmi? İstiğfar uca məqam sahiblərinin dərəcəsidir. İstiğfar altı şərti olan bir addır:

1- Keçmiş günahlar haqqında peşman olmaq
2- O günahları əbədi olaraq tərk etməyə inad etmək.
3- Məxluqatın hüquqlarını əda edərək üzərində bir bəndə haqqı olmadan hamar olaraq Allaha qovuşmaq
4- Üzərinə vacib olduğu halda müəyyən etdiyi hər vacibin haqqını əda etməyi qəsd etmək
5- Haram qazancla bədənində təşkil edən əti qəmlə, kədərlə, dəri sümüyə yapışana qədər əritmək və o ikisinin arasında yeni ət yaranmasını təmin etmək.
6- Bədəninə üsyan dadını daddırdığın kimi, itaəti də daddırmaq. Bax, bunları həyata keçirdikdən sonra "Əstəğfirullah" deyə bilərsən[2].

**Tövbənin qəbulunu əngəlləyən amillər**

1- Uzun arzular
2- Günahın ləzzəti
3- Günahın şərindən qafil olmaq
4- Günahı kiçik görmək
5- İlahi mərhəmətdən ümidini kəsmək
6- Qürur və təkəbbür

---

[1] *Zumər, 53.*
[2] *Nəhcul-Bəlağə, Hikmət: 418*

**Günahların bağışlanma yolları**

1- Namaza əhəmiyyət vermək
2- Günahı tərk etmək
3- Xeyir işlər görmək
4- Xəstəliklərə dözmək

**17-ci dərsin sualları**

1. Cəhənnəm nədir? Necə əzab olunacaq?
2. Fiziki əzablar nədir?
3. Cəhənnəm də cənnət kimi əbədidirmi?
4. Tövbə nədir? Mərhələləri nələrdir?
5. Tövbənin qəbulunu nələr əngəlləyir?

## DƏRS: 18

# MÖHTƏZİRİN (CAN VERMƏ) HÖKMLƏRİ

Möhtəzir, ölmək üzrə olan birinə deyilir. Ölmək üzrə olan bir müsəlman, kişi olsun və ya qadın, böyük olsun və ya kiçik ayaqlarının altı qibləyə doğru olacaq şəkildə arxası üstə yatırtmaq fərzdir[1].

## Möhtəzir üçün müstəhəb əməllər

- "Kəlmeyi-şəhadət" (Tövhid və Rəsulullaha şəhadət sözləri)
- On iki Əhli-beyt imamlarını və digər haqq inancları təsdiq etməyi, ölmək üzrə olan kimsəyə anlayacağı şəkildə təlqin etmək.

Bu duanı anlayacağı şəkildə təlqin etmək:

**Oxunuşu:** Allahumməğfir liyə'l-kəsirə min ma'asikə vəkbəl minni'l-yəsira min ta'atikə ya mən yəkbəl'ul-yəsira və ya'fu ani'l-kəsir, ikbəl minni'l-yəsira və''fu Anni'l-kəsir. İnnəkə əntəl əfuvvu'l-ğəfur. Allahummər-həmni, fə innəkə rəhim[2].

- Can verməsi çətin olan bir kimsəni, narahat olmadığı təqdirdə, namaz qıldığı yerə aparmaq.
- Baş tərəfində Yasin, Saffat və Əhzab surələrini, Ayətəl-Kürsini, Əraf surəsinin 54-cü ayəsini, Bəqərə surəsinin son üç ayəsini və Qurandan mümkün olduğu qədər oxumaq.
- Tək buraxmaq, qarnı üstünə ağır bir şey qoymaq, yanında cünub və aybaşı hallarında olanların olması məkruhdur. Həmçinin çox danışmaq, ağlamaq və qadınları yalnız onun yanında buraxmaq məkruhdur.

---

[1] *Tam Elmihal, Ayətullah Sistani, s.105, Məsələ: 522.*

[2] *Mənası: Allahım! Sənə qarşı işlədiyimiz çox günahları bağışla və mənim az itaatimi qəbul et. Ey azı qəbul edib çoxu (çox günahı) bağışlayan! Məndən azı qəbul et və çox günahımı bağışla; Həqiqətən, Sən bağışlayan və mehribansan. Allahım! Mənə rəhm et, heç şübhəsiz sən Rəhmlisən.*

# Ölüm sonrası vacib əməllər

Müsəlman biri öldükdən sonra bir sıra edilməsi lazım olan vacib əməllər vardır.

1- Qüsul
2- Hənut
3- Kəfən
4- Cənazə namazı
5- Dəfn

**18-ci dərsin sualları**

1- Möhtəzir nə deməkdir?
2- Ölmək üzrə olan birisinə nələrin edilməsi yaxşıdır?
3- Ölüm sonrası hansı əməllərin edilməsi vacibdir?

## DƏRS: 19

# MEYİT (ÖLÜ) QÜSULU

Ölmüş bir müsəlmana normal cənabət qüsulu kimi bu üç qüsl verilməsi vacibdir:

1- Sidir qarışdırılmış su ilə
2- Kafur qarışdırılmış su ilə
3- Pak su ilə

**Meyitə qüsl verən şəxsdə lazım olan şərtlər**

1- On iki imamı qəbul edən müsəlman olmalıdır
2- Yetkin yaşda olmalıdır
3- Ağıllı olmalıdır
4- Qüsl hökmlərini bilməlidir
5- Ölü kişidirsə kişi, qadındırsa qadın qüsl verməlidir

**Qüsl verilməsi vacib olan ölülər**

1- Müsəlman qadın və kişi ölüsü
2- Müsəlman uşağın ölüsü
3- Dörd ayı başa vurduqdan sonra ölü olaraq dünyaya gələn müsəlmanın uşağı

**Hənut**

Meyitə qüsl verildikdən sonra, hənut edilməsi vacibdir. Yəni ölünün alnına, ovuc içlərinə, dizlərinə, və ayaq barmaqlarının ucunda qalacaq bir şəkildə kamfora sürülməlidir.

**Kəfən**

Müsəlman ölünün bədəni üç parça kəfənlə örtülməlidir.

1- **Yanaq:** Ölünün belindən baldırına qədər olan hissəsinə sarılır.

2- **Köynək:** Ölüyə, çiyinlərindən dizlərinə qədər arxalı qabaqlı sarılır.

3- **Lifafə**: Ölünün başdan ayağa örtüldüyü, uc hissələrdən bağlanacaq uzunluqda olan və eni ölünün üzərini tamamilə örtən parçadır[1].

## Ölümdən qorxmağın səbəbləri

Hədis və rəvayətlərdə ölümdən qorxmağın bir çox səbəbləri açıqlanmışdır. Bizlər də burada hədislərdə zikr olunan o səbəblərdən bir neçəsini işarə etməklə kifayətlənirik.

1- Ölümü, yoxluq və hər şeyin fani olub, sona çatması kimi görmək

İmam Hüseyn (ə) Aşura günü səhabələrinə belə buyurub:

"Ey böyük insanların övladları! Səbrli olun. Ölüm, sadəcə sizləri dünya çətinliklərindən və kədərlərindən, əbədi nemətlər və cənnət bağlarının ətrafına keçməyinizi təmin edən bir körpüdür. Elə isə, sizdən hər hansı biriniz həbsdən xilas olub saraya girməkdən narahat ola bilərmi! Amma ölüm, düşmənləriniz üçün (yezidlər) saraydan zindan və əzab tərəfinə keçid etməkdir. Allah Peyğəmbərinin buyurduğunu atam belə nəql etdi: Dünya möminə zindan, kafirə cənnətdir. Ölüm, möminlər üçün cənnət bağlarına, kafirlər üçün isə cəhənnəmə keçid körpüsüdür[2].

2- Ölümün həqiqətini bilməmək.

İmam Məhəmməd Baqirə (ə) "Niyə müsəlmanlar ölümdən nifrət edib, qorxurlar?" - deyildi.

İmam (ə) belə cavab verdi: **"Onlar, onun həqiqətini bilmədiklərinə görə, ondan nifrət edirlər. Əgər onlar, onun həqiqətini yaxşıca bilsə və bilavasitə Allahın dostu olsa idi, onu**

---

*[1] Fiqh dərsləri, Ayətullah Xomeyni, c.1, s.110.*

*[2] Maanil-Ahbar, s.289.*

**sevər və axirətin onlar üçün dünya həyatından daha xeyirli olduğunu anlayardılar”.**

Sonra İmam (ə) yanında olan bir xəstəyə: **“Ey Allahın qulu! Görəsən uşaq və dəli bir insan, niyə onun xəstəliyini aradan qaldıran dərmanı istifadə etməkdən nifrət edir?”,** - dedi.

Xəstə: Onlar dərmanın faydasını bilmədiklərinə görə, ondan qorxurlar, - dedi.

Bunun üzərinə imam belə buyurdu: **“Məhəmmədi haqq Peyğəmbər edən Allaha and içirəm ki, kim doğru olaraq ölümə hazırlaşsa, ölümün xəstəni müalicə etmək üçün istifadə edilən dərmandan faydalı olduğunu anlayar[1]”.**

3- Dünya və nemətlərinə olan hədsiz bağlılıq.

İmam Cəfər Sadiq buyurur (ə): Bir nəfər Rəsulullahın hüzuruna gələrək dedi:

Ey Peyğəmbər, mən niyə ölümdən qorxuram?

Allah Rəsulu, o şəxsə: -Maliyyə vəziyyətin yaxşıdırmı? - deyə soruşdu.

Adam: Ey Peyğəmbər! Bəli, maliyyə vəziyyətim yaxşıdır,- dedi.

Allah Rəsulu: Axirətini qazanmaq üçün xeyir əməl edə bildinmi? - dedi.

Adam: Xeyr, - dedi.

Allah Rəsulu: **“Məhz buna görə də ölümü sevmirsən”, -** buyurdu[2].

4- Əməl dəftərinin günahlarla dolu olması və axirəti viran etmək.

Adamın biri, İmam Həsənə (ə): Bizlər nə üçün ölümü sevmirik və ondan çəkinirik? deyə soruşduqda, İmam (ə) cavab vermişdir:

---

[1] *İlmül-Yakin, c.2, s.1057.*
[2] *Nümunə Təfsiri, c.18, s.152.*

**“Sizlər axirətinizi viran etdiniz, dünyanızı isə bəzədiniz. Beləliklə, bəzədiyiniz yerdən xarabalığa getmək istəmirsiniz”[1].**

| **19-cu dərsin sualları** |
|---|
| 1. Ölmüş birinə neçə qüsl və necə verilməlidir? |
| 2. Ölüyə hər kəs qüsl verə bilərmi? |
| 3. Hənut və kəfən nədir? |
| 4. Nə üçün insanlar ölümdən qorxurlar? |

[1] *Biharul-Ənvar, c.6, s.129.*

## DƏRS: 20

# FİRUİ-DİN

Firui-din, dinimizin bizə vacib etdiyi əsas vəzifələrdir. Üsuli-din inamla əlaqəliykən, firui-din yaşamımızda yerinə yetirməyimiz lazım olan vəzifələrdəndir.

Firui-dinin 10 hökmü var:

1- Namaz
2- Oruc
3- Xüms
4- Zəkat
5- Həcc
6- Cihad
7- Əmri be məruf (bəndənin başqalarını yaxşılıqlara çağırması)
8- Nəhy əz münkər (bəndənin başqalarını pisliklərdən qaytarması)
9- Təbərra (bəndənin Allah dostları ilə dost olması)
10- Təvəlla (bəndənin Allah düşmənləri ilə düşmənçilk etməsi)

**Namaz**

İslam dinində ən əhəmiyyətli ibadət namazdır. Həqiqi bir müsəlman namaz qılmaq məcburiyyətindədir. Namaz dinin sütunudur. Qurani-Kərim bizə dəfələrlə və açıq olaraq namaz qılmağı əmr edir: *"Çünki namaz möminlərə bəlli vaxtlarda fərz (vacib) edilmişdir"*[1].

Peyğəmbərimiz və bütün Əhli-Beyt imamları (ə) ömürləri boyu namaz qılmış və bizə də bunu əmr etmişlər.

Namaz iki cürdür:

1. Qılınmağı vacib olan (fərz) namazlar.
2. Qılması müstəhəb olan namazlar.

[1] *Nisa, 103.*

Vacib olan namazları tərk etmək böyük günahdır. Amma müstəhəb namazları qılmayan şəxs yalnız savab qazanmaqdan məhrum qalır və günah etmiş sayılmaz.

*"(Ya Rəsulum!) Quranda sənə vəhy olunanı oxu və (vaxtı-vaxtında) namaz qıl. Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək (Allahın calalını və əzəmətini həmişə, hər yerdə yada salmaq), şübhəsiz ki, (savab etibarilə bütün başqa ibadətlərdən) daha böyükdür. Allah nə etdiklərinizi (bütün yaxşı və pis əməllərinizi) bilir!"[1].*

**Vacib namazlar:**

1- Gündəlik namazlar
2- Ayət namazı
3- Cənazə namazı
4- Təvaf namazı
5- Böyük oğula vacib olan atanın qəza namazı
6- And, niyyət və ya başqa bir səbəbə görə vacib olan namazlar[2]

**Gündəlik namazlar:**

1- Sübh namazı (iki rükət)
2- Zöhr namazı (dörd rükət)
3- Əsr namazı (dörd rükət)
4- Məğrib namazı (üç rükət)
5- İşa namazı (dörd rükət)

**Gündəlik namazların vaxtları**

[1] *Ənkəbut, 45.*
[2] *Tam Risalə, Ayətullah Sistani, s.150.*

**Sübh namazı**: Fəcrin (dan yeri) doğuşundan günəşin doğuşuna qədərdir.

**Zöhr namazı**: Günortanın ilk vaxtından başlayır, günəşin batışına, əsr namazını qılacaq vaxta qədər davam edər.

**Əsr namazı:** Nahar vaxtından zöhr namazını qılacaq qədər vaxtı keçdikdən sonra başlayır və günəş batana qədər davam edər.

**Məğrib namazı:** Günəşin batışından sonra şərqdə görülən qırmızılığın yox olması ilə başlayır və gecə yarısına, məğrib namazını qılacaq vaxta qədər davam edər.

**İşa namazı:** Məğrib namazının ilk vaxtından məğrib namazı qılınacaq qədər vaxt keçdikdən sonra, başlayır və gecə yarısına qədər davam edir.

**20-ci dərsin sualları**

1- Firui-dinin mövzusu nədir?

2- Vacib namazlar hansılardır və gündəlik namazların rükətlərini zikr edin?

3- Gündəlik namazların vaxtlarını zikr edin.

## DƏRS: 21

# NAMAZ QILANIN PALTARININ ŞƏRTLƏRİ

Namaz qılanın paltarı haqda altı şərt vardır:

1- Təmiz olmalıdır

2- Vacib ehtiyata görə mübah yəni qəsb edilməmiş olmalıdır.

3- Leş ilə qidalanan heyvanın üzvlərindən hazırlanmamalıdır.

4- Yırtıcı heyvanın parçasından olmamalıdır. Vacib ehtiyata görə əti yeyilməyən heyvanların dərisindən də olmamalıdır.

5- Namaz qılan kişinin paltarı xalis ipək və qızıl işləməli olmamalıdır[1].

**Namaz qılanın paltarı ilə əlaqədar müstəhəblər**

Fəqihlər bir neçə şeyi namaz qılanın paltarında müstəhəb bilirlər. Namaz qılanın paltarında müstəhəb olan şərtlər:

1- Başa sarıq taxıb bir ucunu çənə altından keçirmək

2- Əba geyinmək

3- Ağ paltar geyinmək

4- Ən təmiz paltarlar geyinmək

5- Gözəl ətir sürmək

6- Əqiq üzük taxmaq[2]

**Namaz qılanın paltarı ilə əlaqədar məkruhlar**

Fəqihlər bir neçə şeyi namaz qılanın paltarında məkruh bilmişlər. Onlardan bəziləri bunlardır:

1- Qara, çirkli və yaxud dar paltarlar geymək

2- İçki içən və nəcasətdən çəkinməyən insanın paltarını geymək

---

[1] *Tam elmihal, Ayətullah Sistani, s.167, Məsələ: 786.*
[2] *Tam Risalə, Ayətullah Sistani, s.178, Məsələ: 852.*

3- Üzərində şəkil olan paltarların geyilməsi
4- Paltarların düyməsinin açıq olması
5- Üzərində şəkil olan üzüyün taxılması[1]

**Namaz qılınan məkanının şərtləri**

1- Namaz qılınan yer mübah olmalıdır, yəni qəsb edilmiş olmamalıdır

2- Namaz qılınan yer hərəkətsiz olmalıdır

3- Namaz qılan kimsə namazı tamamlayacağına ehtimal verdiyi bir yerdə namaz qılmalıdır. Külək, yağış, insanların sıxlıq olduğu və bu kimi səbəblərdən namazı tamamlamayacağına ehtimal verdiyi bir yerdə namaz qıla bilməz.

4- Namaz qılınan yerin tavanı tam olaraq ayaqda dayanıb namaz qıla bilinməyəcək şəkildə alçaq olmamalıdır.

5- Namaz qılınan yerdə namazı pozan nəcis bir şey olsa, bədən və ya paltara bulaşacaq qədər yaş olmamalıdır.

6- Qadının kişidən arxada namaz qılması ehtiyat vacibdir. Ən azından qadının səcdə yeri kişinin səcdə anında dizlərinin xəttindən qabaqda olmamalıdır.

7- Namazda alnın qoyulduğu yer, dizlərin və ayaq barmaqların qoyulduğu yerdən dörd bağlı barmaq miqdarı aşağıda və ya yüksəkdə olmamalıdır[2].

**Namaz qılınması məkruh olan yerlər**

Bu yerlərdə namaz qılmaq məkruhdur:

1- Hamamda
2- Şoran torpaqda
3- İnsan qarşısında
4- Açıq qapı qarşısında

---

1 *Tam elmihal, Ayətullah Sistani, s.179, Məsələ: 853*

2 *Tam elmihal, Ayətullah Sistani, s.179.*

5- Yol keçən insanlara zəhmət vermədiyi təqdirdə yol, prospekt və küçədə: əgər zəhmət versə haramdır.

6- Atəş və lampa qarşısında

7- Mətbəxdə

8- Atəşlik olan hər yerdə

9- Sidiklə çirkləndirilmiş quyu və çuxur qarşısında

10- Ruhu olan şeylərə aid şəkil və heykəllərin qarşısında; ancaq bunların üstü pərdə ilə örtülsə məkruh olmaz.

11- Qüslsuz olan kimsənin olduğu otaqda

12- Namaz qılanın üzünə qarşı olmasa belə, şəkil olan yerdə

13- Məzar qarşısında

14- Məzar üzərində

15- İki qəbir arasında

16- Qəbirstanlıqda[1]

**21-ci dərsin sualları**

1- Namaz qılan bir şəxsin paltarı necə olmalıdır?

2- Namazda nələrin edilməsi gözəldir?

3- Namaz qılınan məkanının şərtlər nələrdir?

[1] *Tam Risalə, Ayətullah Sistani, s.185, Məsələ: 885.*

## DƏRS: 22

# NAMAZIN VACİBATLARI

Namazın vacibatlarından bəziləri rükn və əsasdır. Belə ki, namaz qılan onları etmədiyi və ya hər hansı birini artıqdan elədiyi təqdirdə - istər bilərək olsun, istər yanılaraq olsun, namazı batil olur. Namazın vacibatlarından bəziləri isə rükn deyildir, yəni bilməyərək çox və az edilsə, namaz batil olmaz.

**Namazın vacibatları on birdir:**

1- Niyyət
2- Qiyam (ayaqda durmaq)
3- İftitah təkbiri (Namaza başlayarkən "Allahu-Əkbər" demək)
4- Rüku
5- Səcdə
6- Qiraət
7- Zikr
8- Təşəhhüd
9- Salam
10- Tərtib (sıraya riayət)
11- Muvalat (namazın cüzlərini fasiləsiz və arxa arxaya etmək)

**Namazın rüknü isə beşdir:**

1- Niyyət
2- İftitah təkbiri
3- Rukuya bitişik qiyam, yəni rükudan əvvəl ayaqda dayanmaq

4- Rüku

5- Bir rükətin iki səcdəsi[1]

## Namazla əlaqədar şübhələr

Namazla əlaqədar olaraq 22 qisim şübhə söz mövzusudur: Bu şübhənin yeddisi namazı pozar, altısına etina edilməməlidir, doqquz qismi isə səhihdir və namazı pozmaz.

**Namazı pozan şübhələr;**

1- Sübh namazı və səfərdə olaraq qılınan namaz kimi iki rükətli namazların rükətlərini sayında şübhəyə düşmək

2- Üç rükətli namazların rükət sayında şübhə etmək

3- Dörd rükətli namazlarda bir rükətmi, yoxsa daha çoxmu qılındığı haqqında şübhə etmək

4- Dörd rükətli namazda ikinci səcdəyə gedilmədən əvvəl, iki rükətmi, yoxsa daha çoxmu edildiyi haqqında şübhəyə düşmək

5- İki ilə beş və ya iki ilə beşdən çox rükət arasında şübhəyə düşmək

6- Üç ilə altı və ya üç ilə altıdan çox rükət arasında şübhəyə düşmək

7- Dörd ilə altı və ya dörd ilə altıdan çox rükət arasında şübhəyə düşmək.

**Etina edilməməsi lazım olan şübhələr:**

1- Edilmə yeri keçən bir şeydə şübhə etmək. Məsələn: rükuda Fatihənin oxunub-oxunmadığı haqqında şübhəyə düşülməsi kimi

2- Namazın salamı verildikdən sonra şübhə etmək

3- Namazın vaxtı keçdikdən sonra şübhə etmək

4- Çox şübhəyə düşən kimsənin şübhəsi. (Kəsirus-şək)

---

[1] *Tam elmihal, Ayətullah Sistani, s.194.*

5- Camaat namazında imama tabe olanların rükətləri sayını bildikləri təqdirdə imamın şübhəsi yaxud imamın rükətləri sayını bildiyi təqdirdə imama tabe olanların rükətləri sayı haqqında şübhəyə düşmələri

6- Müstəhəb və ehtiyat namazlarda şübhə etmək[1]

**22-ci dərsin sualları**

1- Namazın vacibatından məqsəd nədir?

2- Namazın vacibatı və rüknü neçə dənədir?

3- Namazı pozan şübhə nələrdir?

4- Namazda etina edilməməmsi lazım olan şübhələr nələrdir?

---

[1] *Namazla bağlı şübhələr barədə geniş məlumat üçün müctəhidlərin Tam Risalə kitablarına bax.*

## DƏRS: 23

# EHTİYAT NAMAZI NECƏ QILINIR?

Ehtiyat namazı vacib olan bir şəxs, namazın salamından sonra, dərhal ehtiyat namazına niyyət etməlidir. Təkbir deyib, Fatihə surəsini oxuyub rükuyə getməli və iki səcdə etməlidir. Əgər üzərinə bir rükət ehtiyat namazı vacib olubsa, iki səcdədən sonra, təşəhhüdü oxuyub salam verməlidir. Əgər üzərinə iki rükət ehtiyat namazı vacib olubsa, iki səcdədən sonra, əvvəlki rükət kimi bir rükət əlavə qılmalı və təşəhhüddən sonra salam verməlidir.

Ehtiyat namazında surə və qunut yoxdur. Niyyəti də dillə deyilməməlidir. Vacib ehtiyata əsasən, Fatihə səssiz oxunmalıdır. Müstəhəb ehtiyata əsasən, Fatihənin "Bismillah"ı da səssiz oxunmalıdır[1].

**Səhv (yanılma) səcdəsi**

Namazın salamı oxunduqdan sonra iki şey üçün səhv səcdə edilməlidir:

1) Təşəhhüdü unutmaq
2) Dörd rükət namazda ikinci səcdədən sonra dörd rükətmi, yoxsa, beş rükətmi və ya dörd rükətmi, altı rükətmi qılındığı haqda şübhəyə düşmək.

Vacib ehtiyata əsasən bu üç yerdə də səhv səcdəsi edilməlidir:

**Birincisi:** Namazda bir şeyi səhvən azaltdığını və ya artırdığını bilsə, (əlbəttə namazı pozmayan halda).

**İkincisi:** Namaz əsnasında səhvən danışmaq.

**Üçüncüsü:** Salam verməməsi lazım olan bir yerdə (məsələn, birinci rükətdə) yanılaraq salam vermək[2].

---

[1] *Namazla bağlı şübhələr məsələsində geniş məlumat almaq üçün müctəhidlərin Tam risalə kitablarına bax.*

[2] *Tam Risalə, Ayətullah Sistani, s.254, Məsələ: 1223*

**Səhv səcdəsinin edilmə forması**

Səhv səcdə bu şəkildə yerinə yetirilir: Namazın salamından sonra dərhal səhv səcdəsi niyyət edilib, vacib ehtiyata görə üzərinə səcdə edilməsi səhih olan bir şeyə alın qoyularaq müstəhəb ehtiyata əsasən zikr deməlidir.

Belə deyilməsi daha yaxşıdır:

"Bismillahi və billahi əssəlamu aleykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh"[1].

**23-cü dərsin sualları**

1- Ehtiyat namazı nədir və necə qılınır?

2- Nə üçün səhv səcdə edilir?

3- Səhv səcdəsi necə edilir?

[1] (*Allahın adı və Allahın köməyi ilə. Ey Allahın Nəbisi, Salam olsun sənə, Allahın rəhmət və bərəkəti sənin üzərinə olsun)*

## DƏRS: 24

# NAMAZI POZANLAR

**On iki şey namazı pozar:**

1- Namaz zamanı onun şərtlərindən birinin yox olması. (Məsələn: paltarına nəcis bulaşdığını bilərək namaza durmaq)

2- Namazda bilərəkdən, bilməyərəkdən və ya çarəsizlikdən dəstəmazın, qüslun batil olması.(Məsələn: qeyri-iradi sidik axıntısı)

3- Əlləri üst-üstə qoymaq (bağlamaq)

4- Fatihə surəsini oxuduqdan sonra amin deyilməsi.

5- Üzü qiblədən çevirmək

6- Namazı batil edənlərdən biri də bir kəlmə belə olsa, bilərəkdən danışmaqdır.

7- Bilərək səsli bir şəkildə gülmək

8- Vacib ehtiyata əsasən, namazı pozan şeylərdən biri də səsli və ya səssiz ağlamaqdır. Amma, Allah qorxusundan və ya Allaha yönəlməyə olan sevgiyə görə və yaxud axirət üçün səsli və səssiz yaş axıtdıqda namaz pozulmaz.

9- Namaza uyğun olmayan hərəkətlər də onu pozanlar sırasındadır.

10- Bilərək yemək və içmək

11- Namazı pozan şeylərdən biri də, iki və ya üç rükət namazların rükət və ya dörd rükət namazın ilk ikisində şübhəyə düşmək və şübhədə əbədi qalmaqdır.

12- Namazın rüknunu bilərək və ya bilməyərək azaltmaq, rükn olmayan bir şeyi də bilərək azaltmaq və ya namazın bir hissəsini bilərək artırmaq da namazı pozur. Eyni şəkildə bir rükət, rüku və

ya iki səcdə kimi rüknləri bilməyərək çoxaldarsa, namaz vacib ehtiyata görə batildir[1].

## Camaat namazı

İslamın ən böyük şüarlarından biri camaat namazıdır. Bu səbəbdən hədislərdə camaat namazına böyük əhəmiyyət və dəyər verilmişdir.

Camaat namazı bir imam və bir də ona qoşulan kimsə ilə qılına bilir.

İmam Rza buyurur (ə): **"Camaat namazının tək qılınan namazdan üstünlüyü hər rükətə qarşılıq (mükafatın) iki min rükət olmasıdır".**

Peyğəmbərimiz (s) isə belə buyurur: **"İnsanın camaat ilə qıldığı bir namazı, qırx il evində qıldığı namazdan daha xeyirlidir".**

### Camaat namazının şərtləri

1- İmam ilə camaat arasında bir maneə olmamalı.

2- İmamın durduğu yerin, camaatın durduğu yerdən daha yüksək olmamalı.

3- İmam ilə camaat arasında məsafə olmamalı.

4- Camaat imamdan öndə dayanmasın.

### İmam camaatın şərtləri

1- Yetkin olmaq

2- Ağıllı olmaq

3- Ədalətli olmaq

4- Düzgün insan olmaq

5- On iki imam şiəsi olmaq.

6- Namazı səhih qılmaq.

---

[1] *Tam risalə, Ayətullah Sistani, s.230, Məsələ: 1113.*

7- Kişi olmaq[1]

**24-cü dərsin sualları**

1- Namazı nələr pozur?
2- Camaat namazının şərtləri nədir?
3- İmam camaatın şərtləri hansılardır?

[1] *Qadın imam, qadın camaata namaz qıldıra bilər*

## DƏRS: 25

# MÜSTƏHƏB NAMAZLAR

Sayı olduqca çox olan müstəhəb namaza nafilə namazı da deyilir. Bu müstəhəb namazların içərisində, ən çox gündəlik namazların nafilələrinin qılınması tövsiyə edilmişdir.

## Gündəlik namazların nafiləsi

**Səhər namazının nafiləsi:** 2 rükətdir və sübh namazından əvvəl qılınır.

**Zöhr namazının nafiləsi:** 8 rükətdir və günorta namazından əvvəl qılınır.

**Əsr namazının nafiləsi:** 8 rükətdir və əsr namazından əvvəl qılınır.

**Axşam namazının nafiləsi:** 4 rükətdir və axşam namazından sonra qılınır.

**İşa namazının nafiləsi:** 2 rükətdir və işa namazından sonra oturaraq qılınır.

## Təhəccüd namazı necə və nə vaxt qılınır?

Gecənin nafilə namazına "Təhəccüd" və ya "Gecə namazı" deyilir. Təhəccüd namazının ən fəzilətli vaxtı səhər azanına yaxın bir vaxtda qılınan zamandır.

Təhəccüd namazı, on bir rükətdir. İlk səkkiz rükəti gecənin nafiləsi niyyəti ilə qılınır. İki rükəti Şəf namazı niyyətinə və bir rükəti də əlavə vitr namazı niyyəti ilə qılınır. Vitr namazı ayaq üstə və oturaraq iki formada da qılına bilər. Yalnız əgər ayaqda olacaq olsa, bir rükət amma, əyləşməklə qılacaq olsa, iki rükət kimi olmalıdır.

*"Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə (təhəccüd) namazı qıl."*[1].

## Ğufeylə namazı

Qılınması tövsiyə edilən müstəhəb namazlardan biri də Məğrib və İşa namazları arasında qılınan "Ğufeylə" namazıdır.

Ğufeylə namazının qılınma qaydası:

Birinci rükətdə Fatihədən sonra surə əvəzinə bu ayə oxunur:

**Oxunuşu:** "Və zənnuni iz zəhəbə muğazibən fəzənnə ən lən nəqdira aləyhi fənada fi'z-zulumati ən la ilahə illa əntə subhanəkə inni kuntu minə'z-zalimin. Fəstəcəbna ləhu və nəccəynahu minə'l-ğəmmi və kəzalikə nunci'l-mu'minin"[2].

İkinci rükətdə Fatihədən sonra surə əvəzinə bu ayə oxunur:

**Oxunuşu:** "Və indəhu məfatihul ğəybi la ya'ləmuha illa huvə və ya'ləmu ma fi'l-bərri və'l-bəhri və ma təsqutu min vəraqatin illa ya'ləmuha vəla habbətin fi zulumat'il-ərzi vəla ratbin vəla yabisin illa fi kitabin mubin"[3].

---

[1] İsra, 79.

[2] *Mənası: "Zun-Nunu (balıq sahibi Yunisi) da xatırla! Bir zaman o (küfr etməkdə həddi aşmış ümmətinə qarşı) qəzəblənərək çıxıb getmiş və (Bizə xoş gəlməyən bu səbirsizliyinə görə) onu möhnətə düçar etməyəcəyimizi (gücümüz, yaxud hökmümüzün ona yetməyəcəyini) güman etmişdi. Amma sonra qaranlıqlar içində (balığın qarnında; gecənin, yaxud dənizin zülmətində): "(Pərvərdigara!) Səndən başqa heç bir tanrı yoxdur. Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam (əmrinə qarşı çıxaraq özümə zülm eləmişəm)",-deyib dua etmişdi". (Ənbiya, 87)*

[3] *"Qeybin açarları (Allahın) yanındadır. Onları ancaq O (Allah) bilir. (Allah) suda və quruda nə varsa bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki, (Allah) onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum, (kainatda) yaş-quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın!" (Ənam, 59).*

**Qunutda da bu dua oxunur:**

**Oxunuşu:** "Allahummə inni əs'əlukə biməfatih'il-ğaybilləti la ya'ləmuha illa əntə, ən tusalliyə ala Muhamməin və ali Muhamməin və ən təf'alə bi kəza və kəza"[1].

(kəza və kəzanın yerinə ehtiyaclar istənilir).

## CÜMƏ NAMAZI

Cümə namazı məsum imamın özünün və ya xüsusi naibinin (nümayəndəsinin) olması vəziyyətində vacibdir. Əks halda vacib deyildir. Günümüzdə isə Cümə namazı ixtiyari bir vacibdir, yəni mükəlləf günorta ilə Cümə namazını qılınması arasında seçim hüququna malikdir. Bir başqa təbirlə mükəlləf, Cümə namazı üçün risalələrdə açıqlanan şərtlərin olmasından sonra, istəsə, Cümə namazını qılar, istəsə də günorta namazını qıla bilər. Bu halda Cümə namazını qıldıqdan sonra, günorta namazını qılmasına ehtiyac qalmaz.

*"Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!"*[2].

**Cümə namazının şərtləri**

1- Camaatla qılınmalı
2- İmamın namazdan əvvəl iki xütbə oxuması
3- Cümə namazı qılınan iki yer arasındakı uzaqlıq məsafəsi bir fərsəxdən daha az olmamalıdır
4- Vaxtın daxil olması

[1] Mənası: *"Allahım! Mən qeybin açarları, - ki, onları səndən başqası bilməz- haqqına səndən Həzrət Məhəmməd və Əhli-Beytinə rəhmət etməyini və mənim bu bu ehtiyaclarımı yerinə yetirməyini diləyirəm".*

[2] Cümə, 9.

5- Namazda imamla birlikdə ən az beş nəfərin olması
6- Cümə namazı qıldıracaq imamda risalələrdə göstərilən şərtlərin olması

**25-ci dərsin sualları**

1. Müstəhəb Nafilə namazları neçə rükətdir?
2. Təhəccüd namazı nə vaxt qılınır və neçə rükətdir?
3. Ğufeylə namazının vaxtı nə zamandır?
4. Cümə namazının şərtləri nələrdir?

**DƏRS: 26**

# AYƏT NAMAZI NƏDİR?

Aşağıdakı hadisələr baş verdiyində Ayət namazı vacib olur:

1- Günəş tutulması

2- Ay tutulması

3- Zəlzələ

4- İnsanların ümumi qorxduğu təbiət hadisələri: Normal qarşılanmayan qara və sarı yellər, həddindən artıq qaranlıq, yer çökməsi, dağ aşması, səmada dəhşətli bir səs eşidilməsi və s.

## Ayət namazının qılınma qaydası

Ayət namazı iki rükətdir və hər rükətində beş rüku vardır.

Ayət namazı iki formada qılına bilər:

1- Niyyət edildikdən sonra, təkbir deyilir və bir Fatihə və bir surə tam olaraq oxunur. Rükuya gedilir və rükudan qalxılır.

Yenə bir Fatihə və bir surə oxunaraq yenidən rükuya gedilir, bu iş beş dəfə təkrarlanır, beşinci rüku qurtardıqdan sonra iki səcdə edilib, ayağa qalxıb ikinci rükət də birinci kimi qılınır. Təşəhhüd oxunub salam verilir.

2- Ayət namazında niyyət, təkbir və Fatihədən sonra bir surənin ayələri beşə bölüb, bir ayə və ya daha çoxu, hətta daha azı oxuna bilər. Əlbəttə, vacib ehtiyata əsasən, tam bir ayə olmalıdır. Surənin əvvəlindən başlamalı "Bismillah"la kifayətlənməməlidir. Sonra rükuya gedilir. Rükudan qalxdıqdan sonra, Fatihə oxunmadan o surənin sonrakı ayəsi oxunub rükuya gedilir. Beşinci rükuya qədər bu şəkildə davam edilərək beşinci rükudan əvvəl oxunan surə bitirilir.

Məsələn, Fələq surəsinin oxunması məqsədilə "Bismillahir-rəhmanir-rəhim, Qul Əuzu Birəbbil-Fələq" deyilir və rükuya gedilir.

Sonra qalxılır və "Min Şərri Ma Xələq" deyilir, ikinci dəfə rükuya gedilir, rükudan durulur və "Və Min Şərri Ğasiqin İzə Vəqəb" deyilir. Yenə rükuya gedilib qalxılır və "Və Min Şərrin Nəffəssati Fil-Uqad" deyilir və rükuya gedilir, yenidən durulur və "Və Min Şərri Hasidin İzə Həsəd" deyilib beşinci rükuya gedilir və ondan sonra durulur və iki səcdə edilir. İkinci rükət də birinci rükət kimi yerinə yetirildikdən sonra, iki səcdə edilir və təşəhhüd oxunub namazın salamı verilir[1].

## Müsafir namazı

Yolçunun, zöhr, əsr və işa namazlarını, səkkiz şərt altında qısaldaraq iki rükət qılması lazımdır:

1- Yol, səkkiz şəri fərsəxdən çox uzun məsafədən az olmayanda (Təqr. 44 km).

2- Səfərin ilk başından, səkkiz fərsəx məsafə getmək nəzərdə tutulmalıdır. Yəni səkkiz (fərsəx) uzun məsafə gedəcəyi məlum olmalıdır.

3- Məsafə qət edincəyə qədər səyahət məqsədindən dönülməməlidir.

4- Səkkiz fərsəxə çatmadan vətəndən keçmək və orada dayanmaq, ya da bir yerdə on gün və ya daha çox yaşayış etmək edilməməlidir.

5- Səfər, haram məqsədli olmamalıdır.

6- Peşəsi səfər olmamalıdır. Məsələn, sürücü, gəmiçilik, poçtalyon, çoban və s.

7- Vətənindən hərəkət edirsə, rüsxət[2] həddinə çatmalıdır[3].

---

*[1] Tam ilmihal, Ayətullah Sistani, s.301.*

*[2] Rüsxət miqdarı şəhər xalqının, hətta şəhərin kənarında və ətrafında yaşayanların görə bilmədiyi yerdir. Bunun əlaməti də yolçunun şəhər xalqını görə bilməməsidir.*

*[3] Tam Risalə, Ayətullah Sistani, s.260.*

# Səfəri pozan şeylər

1- Vətənə çatmaq
2- Bir yerdə on gün qalmağa niyyət etmək
3- Niyyət etmədən bir yerdə otuz gün qalmaq

**Vətən**

1- Vətən növləri üzrə ikiyə ayrılır:

a) **Əsl vətən:** İnsanın doğulduğu, böyüdüyü və bir müddət qaldığı yerdir.

b) **Seçimli vətən və ya ikinci vətən:** Hər il bir neçə aylığına da olsa, qeydiyyatın daimi olaraq qalmaq üçün seçildiyi yerdir.

2- Seçimli vətən: İnsanın bir yeri ikinci vətən olaraq seçməsi üçün bu üç şərtin olması lazımdır:

a) Şəxs vətən etməyi qəti olaraq qəsd etməlidir. Ancaq qərəzsiz olaraq uzun müddət bir yerdə qalar və xalq tərəfindən bura onun vətənidir deyilərsə, ora onun vətəni sayılır.

b) Müəyyən şəhəri (məsələn, Berlin) vətən tutmağı qəsd etməli. Bir ölkəni, məsələn, Almaniyanı bütünlüyü ilə vətən edə bilməz.

c) Xalqın nəzərində oralı deyiləcək qədər seçdiyi yerdə qalmış olmalıdır[1].

**26-cı dərsin sualları**

1. Ayət namazı nədir və necə qılnır?
2. Səfərdə olan biri hansı şərtlər altında namazlarını səfəri qılar?
3. Səyahətlərdə namaz necə qılınır?
4. Səfərdə vətən nədir?

[1] Fiqh Dərsləri, Ayətullah Nuri, c.1, s.243.

## DƏRS: 27

# ORUC

Oruc - insanın səhər şəfəqindən axşam olana qədər yemək, içmək və orucu pozan başqa bir sıra işlərdən çəkinməsi deməkdir. Qurani-Kərimin əmrinə görə, bəhanəsi olmayan hər bir müsəlman Ramazan ayı boyunca oruc tutmalıdır.

Uca Allah belə buyurur: "*Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!*"[1].

Yenə başqa bir ayədə belə buyurur: "*Aya (ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar*"[2].

## Orucun növləri

Bir baxımdan oruc dörd qismə bölünür:

1- Vacib oruc (Ramazan ayı kimi)
2- Müstəhəb oruc (Rəcəb və Şəban ayı orucu kimi)
3- Məkruh oruc (Aşura günü orucu)
4- Haram oruc (Ramazan və Qurban bayramı orucu)

## Vacib oruclar

1- Ramazan ayı orucu
2- Qəza orucu
3- Kəffarə orucu
4- Ata-ananın qəza orucu (böyük oğula)

---

[1] *Bəqərə, 183.*
[2] *Bəqərə, 185.*

5- Niyyət, nəzir və and yolu ilə vacib olan oruc
6- Etikafın üçüncü gününün orucu
7- Təməttü həccində qurban əvəzinə tutulan oruc[1]

## Orucun vacib olma şərtləri

Oruc aşağıda zikr olunan şərtlərə malik hər kəsə vacibdir:

1- Həddi-buluğ
2- Ağıl
3- Qüdrət
4- Ağlın başda olması, Huşsuz olmaması
5- Müsafir (yolçu) olmamalı
6- Heyz və nifaslı olmamalı
7- Orucun zərəri olmamalı
8- Orucun çox əziyyətli olmaması

## Orucun səhihlik şərtləri

1- İslam
2- İman
3- Ağıl
4- Huşsuz olmama
5- Müsafir olmama
6- Heyz və nifaslı olmama
7- Hər hansı bir zərərin olmaması
8- Niyyətli olma
9- Orucu pozan şeylərdən çəkinmək
10- Niyyətdə davamlılıq axşama qədər niyyətində sabit qalmalıdır.

---

[1] *Hacı namizədi, həcc mövsümündə qurban kəsmə imkanına malik olmadığında, qurban yerinə üç gününü həcc səfərində yeddi gününü də vətənində olmaq üzrə on gün oruc tutmalıdır.*

**27-ci dərsin sualları**

1. Oruc nədir və neçə növ oruc vardır?
2. Kimlərə oruc tutmaq vacibdir?
3. Orucun səhihlik şərtlərindən bir neçəsini qeyd edin.

**DƏRS: 28**

# ORUCUN NİYYƏTİ

Bütün ibadətlər kimi, oruc da niyyətlə birlikdə olmalıdır. Belə ki, yemək, içmək və orucu pozan digər şeylərdən çəkinmək, Allahın əmri olduğu üçün olmalıdır. Mükəlləf üçün belə bir niyyətin olması kifayətdir. Dillə deyilməsi lazım deyil.

**Niyyət zamanı**

**Müstəhəb oruclarda**: Axşamın ilk vaxtından axşam azanına bir niyyət edəcək qədər vaxt qalana qədər müstəhəb oruca niyyət edilə bilər.

**Vacib oruclarda:** Ramazan ayı orucu Sübh azanına qədər niyyət edilsə, oruc səhihdir.

Ramazan ayının qəzası kimi müəyyən olmayan vacib oruclarda: günortaya qədər niyyət edə, günortadan sonra niyyət edə bilməz.

## Orucu pozanlar

Səkkiz şey orucu pozar:

1- Yemək və içmək
2- Cima
3- Onanizm
4- Vacib ehtiyata əsasən, Allaha, Həzrət Məhəmmədə və Rəsulullahın canişinləri olan on iki Əhli-Beyt imamlarına yalan istinad vermək (adlarından yalan danışmaq).
5- Vacib ehtiyata əsasən boğaza sıx (qatı) toz qaçırmaq
6- Sübh azanına qədər cünub, heyz və nifas halında qalmaq
7- Maye şeylərlə imalə etmək
8- Qusmaq[1]

[1] *158-Tam Risalə, Ayətullah Sistani, s.311, Məsələ: 1553.*

## Oruc olan adam üçün məkruh olan şeylər

Oruc tutan adama bəzi şeylər məkruhdur. Onlardan bir qismi belədir:

1- Gözə dərman damcılatmaq;

2- Qan almaq və hamama girmək kimi oruclu adamı zəifliyə uğradan (gücsüz vəziyyətə salan) bir iş görmək;

3- Gözəl ətirli bitkiləri iyləmək;

4- Üzərindəki paltarı islatmaq;

5- Diş çəkdirmək və ağızdan qan axmasına səbəb olan hər hansı bir iş görmək;

6- İslaq olan bir misvakı istifadə etmək;

7- Səbəbsiz yerə su və ya axıcı bir şeyi ağıza almaq[1]

**28-ci dərsin sualları**

1. Orucun niyyəti necə edilir?
2. Günün hər saatında oruc niyyəti edilə bilərmi?
3. Orucu pozan şeylər nələrdir?
4. Oruclunun yerinə yetirməməsi gözəl olan əxlaq nümunələrindən bir neçəsini yazın.

[1] *Tam risalə, Ayətullah Sistani, s.322, Məsələ: 1629.*

**DƏRS: 29**

# RAMAZAN ORUCUNUN KƏFFARƏSİ

Kəffarə Ramazan ayında şəri üzrü olmadan, bilərək və ya istəyərək orucu pozacaq hər hansı bir şey edən kimsə, bu orucun qəzasına əlavə olaraq kəffarə verməlidir.

Cəzanın miqdarı isə:

1- Bir kölə azad etmək.

2- Altmış gün oruc tutmaq.

3- Altmış kasıba adam başına 750 qr buğda, un, düyü və s. yemək vermək[1].

## Kimlər fidyə verməlidirlər?

1- Oruc tutmağın özləri üçün məşəqqətli olduğu yaşlı qadın və kişilər.

2- Susamaq xəstəliyi səbəbiylə tez-tez su içmələri lazım olan və bu səbəblə oruc tutmaqda çətinlik çəkən xəstələr.

3- Doğum vaxtları yaxınlaşdığına görə orucun hamiləliklərinə zərərli olduğu hamilə qadınlar.

4- Südü az olan və oruc tutduğu halda süd əmən uşağına orucun zərəri olan süd verən analar.

5- Xəstə olduğundan ötəri orucun özünə zərərli olduğu və bir sonrakı Ramazana qədər xəstəliyi davam edən kəslər.

## Fidyənin miqdarı

Fidyənin miqdarı, Ramazan orucunun qəzasını gecikdirmə kəffarəsinin miqdarı qədərdir. Yəni hər gün üçün bir kasıba 750 qr. yemək verməlidir.

---

[1] *Fiqh Dərsləri, Ayətullah Xameyni, c.1, s.295.*

## Ramazan ayının ilk günü necə müəyyənləşdirilir?

Ayın ilk günü bu yollarla müəyyən edilir:

1- Mükəlləfin şəxsən ayı görməsiylə.

2- İki ədalətli şahidin şahidlik etməsi ilə.

3- Sözlərinə əminlik təmin edəcək bir qrupun xəbər verməsi ilə.

4- Şaban ayından 30 gün keçməsi ilə.

5- Şəri hakimin hökm etməsi ilə[1].

**29-cu dərsin sualları**

1. Ramazan orucu kəffarəsi nə deməkdir?
2. Kimlərə və nə qədər fidyə verilir?
3. Ramazan ayının ilk günü necə müəyyənləşdirilir?

[1] *Beşinci maddə fəqihlər arasında ixtilaflıdır. Bəzi Fiqh risalələrində beşinci maddə yer almamışdır.*

## DƏRS: 30

# ZƏKAT

Zəkat, malların müəyyən miqdarının kasıblara verilməsidir. Müsəlman şəxs zəkat verməklə Allahın özünə verdiyi nemətlərdən bir qismini möhtac qardaşına verərək malını təmizləyir. Yəni Allahdan aldığı bol nemətin az bir qismini Allah yolunda xərcləmiş olur.

*"Sədəqələr (zəkatlar) Allah tərəfindən müəyyən edilmiş bir fərz (vacib əməl) olaraq ancaq yoxsullara, (ehtiyacı olan, lakin utandığından əl açıb dilənməyən) minskinlərə, zəkatı yığıb paylayanlara, ürəkləri (müsəlmanlığa) isinişib bağlanmaqda olanlara (iman gətirib hələ kamil mömin olmayanlara), azad ediləcək kölələrə (və ya boynuna kəffarə düşüb verə bilməyənlərə), həmçinin (borcu ödəməyə imkanı olmayan) borclulara, Allah yolunda cihad edənlərə və yolçulara (pulu qurtardığı üçün yolda qalan, vətəninə qayıda bilməyən müsafirlərə) məxsusdur. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!"*[1].

**Nələrdən zəkat verilir?**

1- Buğda
2- Arpa
3- Xurma
4- Quru kişmiş
5- Qızıl
6- Gümüş
7- Dəvə
8- Mal-qara
9- Qoyun[2]

---

[1] *Tövbə, 60.*

[2] *Tam elmihal, Ayətullah Sistani, s.359, Məsələ: 1820.*

**Zəkatın verildiyi yerlər**

1- Kasıba
2- Miskinə
3- Zəkat vəzifəlilərinə
4- Ürəyini İslama isidib təsiri olmaq şərti ilə kafirə və ya zəif imanlı müsəlmana
5- Borclulara
6- Allah yolunda ediləcək xərcləmələrə
7- Vətənindən uzaqda möhtac düşən yolçulara

**30-cu dərsin sualları**

1. Zəkat nədir?
2. Zəkat nələrə vacib olar?
3. Zəkat kimlərə verilir?

## DƏRS: 31

# XUMS

Şiə, zəkatla birlikdə fərz sədəqələrinin bir başqa növü olan “Xums”a inanır. Ərəb dilində "Xums" beşdə bir mənasına gəlir.

Xumsdan məqsəd bir illik qazancından qalan malın beşdə birinə şamil olan vergidir. Yəni hər kəsin maliyyəsi ilin sonunda, çalışaraq qazandığı var-dövlətdən xərclədiyi və istifadə etdiyi miqdarı çıxardıqdan sonra, geriyə qalanının beşdə birini verməsidir.

*“(Ey mö´minlər!) Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün - iki dəstənin bir-birilə qarşılaşdığı gün (Bədr günü) bəndəmizə (Muhəmmədə) nazil etdiyimizə (ayələrə) iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və müsafirlərindir (pulu qurtarıb yolda qalan yolçularındır). Allah hər şeyə qadirdir!”*[1].

Ümumiyyətlə əhli-sünnə alimləri bu ayəni və xumsun vacib olduğu, savaş qənimətləri ilə məhdudlaşdırır və zəkatın içində zikr edirlər.

**Xums nələrə vacibdir?**

1- Qazanc
2- Mədən
3- Dəfinə
4- Haram mala qarışmış halal mal
5- Dənizə dalaraq əldə edilən ləl-cavahiratlar
6- Müharibə qənimətləri
7- Zimmi kafirin müsəlmandan satın aldığı yer[2]

---

[1] *Ənfal, 41.*
[2] *Tam risalə, Ayətullah Sistani, s.341, Məsələ: 1721.*

**Xums iki hissəyə bölünür:**

a) Məsum İmamın hissəsi

b) Seyidlərin hissəsi

İmamdan məqsəd hər dövrdə yaşayan məsum İmamlardır. Hazırda isə o, İmam Mehdidir (ə)[1].

Seyidlərdən məqsəd isə, ata tərəfindən Peyğəmbərimizin atası Həzrət Haşimin soyundan gələn kimsələrdir.

**Seyid hüququ verilən kimsələr:**

Seyid haqqı ala biləcək və ehtiyacları üçün istifadə edəcək insanların sahib olması lazım olan şərtlər:

1- Seyid olmalı;

2- On iki imam şiəsi olmalı;

3- Kasıb olmalıdır[2];

4- Nəfəqəsi vacib olan biri olmamalıdır;

5- Haram yola xərcləməməli;

6- Alanın günah işləyən biri olmamalıdır.

**Xums ilinin zəruriliyi**

Evli və ya subay, az da olsa şəxsi gəliri olan hər kəsin özünə xums ili təyin etməsi, bu müddət ərzində illik xums hesabını etməsi və ilin sonunda artış təmin etdiyi təqdirdə pulunu verməsi vacibdir.

**Xums ilinin müəyyən edilməsi:**

Xums ilinin başlama tarixinin mükəlləf (vergi ödəyicisi) tərəfindən müəyyənləşdirilməsi lazım deyil. Bu tarix, hər kəsin gəlir vəziyyətinə görə öz-özünə məlum olur. Məsələn: işçi və məmurun xums ili, ilk gəlirlərini əldə etdikləri gündən; tacirlərin xums ili

*[1] Günümüzdə məsum imam aramızda olmadığından xums onun vəkilləri olan müctəhidlərə verilir.*

*[2] Kasıb, illik dolanışığını təmin etməyən kəsə deyilir.*

mübadiləyə başladıqları gündən; əkinçilərin xums ili isə ilk məhsulu əldə etdikləri gündən etibarən növbəti ilə qədərdir.

**Ənfal nədir?**

İstifadə səlahiyyəti Peyğəmbərin, onun qəyyumlarının və məsum imamın qeyb dövründə müsəlmanların hamisinin səlahiyyətində (müctəhidlərin) olan və cəmiyyətin ümumi məsləhəti üçün işlədilməsi lazım olan ümumi mallara ənfal deyilir.

**31-ci dərsin sualları**

1. Xums və ənfalı izah edin
2. Xums nələrə vacibdir?
3. Xums kimlərə verilir?
4. Xums ili nədir və necə müəyyən olunur?

## DƏRS: 32

# HƏCC

Həcc - imkanı olan müsəlmanların, ömürlərində bir dəfəyə məxsus olmaq üzrə Həcc mövsümündə Məkkədə olan Beytullahı ziyarətə gedib bir sıra xüsusi əməlləri yerinə yetirmələridir. Həcc ibadəti ilin müəyyən ay və günlərində aparılır. Dünya müsəlmanları o günlərdə İslamın mərkəzi Məkkədə bir araya gələrək beynəlxalq konqres keçirirlər.

*“Orada aydın nişanələr - İbrahimin məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadır (təhlükədən kənardır). Onun yoluna (ərzaq, minik, və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu (bu borcu) inkar edərsə (özünə zülm etmiş olar). Əlbəttə, Allah aləmlərə (heç kəsə) möhtac deyildir![1]”.*

**Həccin vacib olma şərtləri**

1- Yetkinlik çağına çatmaq;
2- Ağıllı olmaq;
3- Azad olmaq;
4- Maliyyə yetərliliyə sahib olmaq;
5- Vaxtın kifayət qədər olması;
6- Sağlam və yetərli gücə sahib olmaq;
7- Yolun açıq və təhlükəsiz olması;
8- Nəfəqə;
9- Qayıtdıqdan sonra kifayət qədər xərcliyinin olması[2].

[1] *Ali-İmran, 97.*
[2] *Mənasik-i Həcc, Ayətullah Sistani, s.14.*

# Həccin qismləri

Həcc üç hissəyə bölünür:

**1- Həcci qiran:** Məkkə xalqının və Məkkə ilə vətənləri arasında 16 fərsəxdən (88 km) daha az məsafədə olanların vəzifəsi olan həcc.

**2- Həcci ifrad:** Məkkə xalqının və Məkkə ilə vətənləri arasında 16 fərsəxdən (88 km) daha az məsafədə olanların vəzifəsi olan həcc.

**3- Təməttö həcci:** Məkkə ilə vətəni arasında 16 fərsəxdən çox (88 km) olanların etməsi vacib olan həcc[1].

**Təməttö ümrə**

Həccə gedən bir nəfər, əvvəl təməttö ümrəni yerinə yetirməlidir. Təməttö ümrə beş əməldən ibarətdir:

1- Miqatda ehram geyinmək
2- Kəbəni təvaf etmək
3- İki rükət təvaf namazı qılmaq
4- Səfa və Mərvə arasında səy etmək
5- Təqsir (saç, saqqal, ya bığ bir miqdar kəsmək) məşhur fikirə görə dırnaqdan bir miqdar almaq.

**Təməttö Həcc**

Təməttö həcci yerinə yetirərkən vacib olan əməllər 13 qisimdir:

1- Məkkədə ehram geyinmək
2- Ərafatda vəqf etmək
3- Məşərul Həramda vəqf etmək
4- Minada böyük şeytanı daşlamaq
5- Qurban kəsmək
6- Saçı qısaltmaq və ya təraş etmək
7- Kəbəni təvaf etmək
8- İki rükət təvaf namazı qılmaq
9- Səfa ilə Mərvə arasında səy etmək
10- Nisa (qadınlar) təvaf etmək

---

[1] *Mənasik-i Həcc, Ayətullah Sistani, s.70.*

11- İki rükət Nisa təvaf namazı qılmaq

12- Zilhəccə ayının 11-ci və 12-ci gecələrini (bəzi hallarda13-cü gecələrini) Minada keçirmək

13- Cəmərələri (üç şeytanı) daşlamaq[1]

## Ehram geyilən yerlər (miqatlar)

**1- Zulhuleyfə**: Mədinə şəhərinin yaxınlığındadır. Mədinə xalqının və Mədinə yolu ilə həccə getmək istəyənlərin ehram geyəcəkləri yerdir. Bu miqatın, Məscid-i Şəcərə deyə məşhur olan məscidində ehram bağlamaq ən yaxşısıdır.

**2- Əqiq vadisi:** Bu miqat İraq, Nəcd və oradan keçən hər kəsin ehram bağladığı miqatdır.

**3- Cühfə:** Bu miqat Şam, Misir, Mərakeş və bu yoldan keçənlərin miqatıdır.

**4- Yələmləm:** Bir dağın adıdır. Yəmən əhalisi və o yolu istifadə edənlərin miqatıdır.

**5- Qarnul-mənazil:** Taif xalqının və bu yoldan yolu keçənlərin miqatıdır.

Zikr edilən miqatlardan birinin xətti

**6- Məkkə**

**7- Mükəlləfin sahib olduğu ev.**

**8- Ədnəl-Hill**[2]

## Ehramlıya haram olan şeylər

Ehramlıya aşağıda zikr edilən 25 şey haram olar:

1- Çöl heyvanı ovlamaq

2- Qadınla əlaqədə olmaq

3- Qadın öpmək

4- Qadına şəhvət məqsədilə toxunmaq

5- Qadına baxmaq və şəhvət gətirən oynaşma

---

[1] *Mənasik-i Həcc, Ayətullah Sistani, s.73-74.*

[2] *Mənasik-i Həcc, Ayətullah Sistani, s.81-84.*

6- İstimna
7- Nikah əqdi
8- Gözəl qoxu istifadə etmək
9- Kişinin tikili və tikili hökmündə paltar geyməsi
10- Sürmə çəkmək
11- Güzgüyə baxmaq
12- Kişinin corab və çəkmə geyməsi
13- Yalan danışmaq, söymək və bir möminə təhqir olacaq şəkildə öyünmək
14- Mübahisə etmək
15- İnsan bədəninə əziyyət edən bit və bu kimi həşəratları öldürmək
16- Bəzənmək
17- Bədənə yağ sürmək
18- Bədəndən tük qoparmaq
19- Kişinin başını örtməsi və suya dalmaq
20- Qadının üzünü örtməsi
21- Kişinin kölgədə dayanması
22- Bədəndən qan çıxarmaq
23- Dırnaq tutmaq
24- Bir fikirə görə; diş çəkmək və çəkdirmək
25- Silah gəzdirmək[1]

**32-ci dərsin sualları**
1. Həcc kimlərə fərzdir?
2. Neçə növ həcc vardır?
3. Təməttö ümrəsinin vacib əməlləri hansılardır?
4. Təməttö həccində edilməsi lazım olan əməllər hansılardır?
5. Hacılar haralarda ehram geyərlər?
6. Ehram geymiş bir hacıya nələr haram olar?

---
[1] *Mənasik-i Həcc, Ayətullah Sistani, s.101-102.*

## DƏRS: 33

# CİHAD

Cihad - fiqhdə, İslamı yaymaq və genişləndirmək üçün səy sərf etmək, mübarizə etmək və ya düşmənə qarşı müdafiə məqsədli döyüşmək deməkdir.

Cihadın bir çox məna və tərifi vardır. Yuxarıdakı tərifdə cihadın bir hissəsidir.

Əlbəttə, cihad fərdi də ola bilər. İslami rəvayətlərə görə, kim canı, malı, ailəsi və ya ailəsinin dolanışığını təmin etmək üçün səy sərf edərsə və bu yolda ölərsə, müharibə meydanında şəhid olmuş bir əsgər kimidir.

Hətta rəvayətlərdə insanın nəfsiylə mübarizəsini Cihadi-Əkbər, böyük cihad olduğunu buyurmuşdur.

Cihad hansı şəkildə edilirsə (qələmlə, dillə və ya silahla) edilsin ibadətdir.

Fəqihlər tərəfindən cihad elan edildiyində, üzürsüz olmasına baxmayaraq, cihaddan qaçmaq böyük günahlardan biridir.

*"(Ey möminlər!) Ağırlı-yüngüllü (qocalı-cavanlı, atlı-piyada, güclü-gücsüz, dövlətli-kasıb) hamınız cihada çıxıb malınız və canınızla Allah yolunda vuruşun! Bilsəniz bu sizin üçün nə qədər xeyirlidir!"*[1].

## Cihadın növləri

**1- İbtidai cihad:** İslama dəvətin önündəki maneələri aradan qaldırmaq üçün edilən bir cihad şəklidir.

**2-** İslam ordusunun düşmən tərəfindən hər hansı bir hücuma uğramadığı halda İslamın yayılması üçün var olan maneələri aradan qaldırmaq, digər torpaqların insanlarını İslam ilə tanış etmək, haqq olan kəlamı ucaltmaq, kafir və müşrükləri hidayətə

[1] *Tövbə, 41.*

qovuşdurmaq, şirk və bütpərəstliyi ortadan qaldırmaq məqsədilə döyüşməkdir.

**3-** Cihad, ölkəni genişləndirmək və torpaq əldə etmək üçün edilməz. Hədəf, küfr, şirk və imperialist güclər tərəfindən Allaha ibadət etmək, tövhid və ədalət kimi fitri hüquqlardan məhrum qalan xalqların haqlarını müdafiə etməkdir.

**4- Müdafiə məqsədli cihad:** Düşmən hücumları qarşısında edilən müdafiə məqsədli döyüşdür. Siyasi, hərbi, iqtisadi və mədəni istiqamətdə İslam torpaqlarına hakim olmaq məqsədiylə hücuma keçən İslam düşmənlərinə qarşı bu cihada müraciət edilir[1].

**33-cü dərsin sualları**

1. Cihad nədir? Neçə növ cihad vardır?
2. İbtidai cihad nədir?

[1] *Fiqh Dərsləri, Ayətullah Xameyni, c.1, s.373-374.*

**DƏRS: 34**

# "ƏMR BE MƏRUF" VƏ "NƏHY ƏZ MÜNKƏR"

## Əmr be məruf

(yaxşı işlərə dəvət etmək)

Əmr be məruf - insanlara gözəl şeyləri, yəni Allahın əmr etdiyi gözəl davranışları əmr etməkdir. Məsələn: namaz qılmayan müsəlmana namaz qılmasını əmr etməyə əmr be məruf deyilir.

Əmr be mərufun vacibliyi namaz və oruc kimi bütün müsəlmanlara vacibdir. Əmr be məruf vəzifəsini haqqı ilə yerinə yetirilsə, digər dini vəzifələr də unudulmaz və ayaqda qalar.

Yaxşılığa əmr etmə, təsir etməyəcəyi bilinən vəziyyətlərdə fərz deyil. Eyni şəkildə yaxşılığı əmr etmək insan üçün bir təhlükə doğuracaqsa, fərz olmaqdan çıxar. Amma dinin əsası təhlükə içindədirsə, müsəlmanların can bahasına da olsa, əmr be məruf vəzifəsi üçün hərəkətə keçmələri lazımdır. Bunun ən açıq nümunəsi Kərbəlada dini hökmlərin tətbiq olunması uğrunda canını fəda edən İmam Hüseyndir (ə).

*"İçərinizdən xeyrə çağıran, mərufu (yaxşılığı) əmr edən və münkərdən (pislikdən) çəkindirən bir camaat olsun, məhz onlar nicata qovuşanlardır"*[1].

## Nəhy əz münkər

(pis işlərdən çəkindirmək)

Nəhy əz münkər - insanları Allahın qadağan etdiyi pis işlərdən çəkindirməkdir. Məsələn: içki içən bir adamı bu pis günahdan

---

[1] *Ali-İmran.*

çəkindirmək nəhy əz münkər üçün bir nümunədir. Əmr be məruf müsəlman cəmiyyətində Allahın əmrlərini ayaqda tutduğu kimi, Nəhy əz münkər də müsəlman cəmiyyətini pisliklərdən uzaqlaşdırar.

Nəhy əz münkər, təsir etməyəcəyi bilindiyi vəziyyətlərdə və insan üçün bir təhlükə yaradacaqsa vacib olmaz.

## Yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirməyin şərtləri

1- Yaxşılığı əmr edən və pis işlərdən çəkindirən kimsə ümumi mənada mərufu və münkəri tanıması lazımdır.

2- Edilən əmr və çəkindirmənin təsirli olacağına ehtimal verilməlidir.

3- Günah işləyən kimsənin etmiş olduğu günahı təkrarlayacaqmı? bilinməlidir.

4- Günah işləyənin elədiyi pis və çirkin işlərində bəhanəsi olmamalıdır.

5- Yaxşılığı əmr edib pislikdən çəkindirən kimsənin canına, şəxsiyyətinə və qeydə dəyər miqdarda malına zərər verməməli, dözülə bilməyəcək bir çətinliyə düşməməlidir[1].

---

[1] *Tam Elmihal, Ayətullah Sistani, s.397.*

## Əmr be mərufu əmr edib Nəhy əz münkərdən çəkindirməyin mərhələləri

**Birinci mərhələ:** İçdən və qəlbən narahat olduğunu izhar etmək. Məsələn: günah işləyənə üz çevirmək və danışmamaq.

**İkinci mərhələ:** Nəsihət edərək maneə törətmək.

**Üçüncü mərhələ:** Vurmaq və həbs etmək kimi bir davranış nümayiş etdirmək.

İlk əvvəl birinci və ikinci mərhələdən başlamaq lazımdır. Qarşıdakını ən az incidəcək və təsiri daha çox olacaq olanı seçməlidir. Əgər nəticə olmazsa, daha sərt olan bir sonrakı mərhələyə keçməlidir[1].

**34-cü dərsin sualları**

1. Əmr be məruf və nəhy əz münkər nədir?
2. Yaxşılığı əmr edib pis işlərdən çəkindirməyin şərtlərini sayın?
3. Əmr be mərufu əmr edib Nəhy əz münkərdən çəkindirməyin mərhələləri hansılardır?

[1] *Tam Elmihal, Ayətullah Sistani, s.399.*

**DƏRS: 35**

# TƏVƏLLA VƏ TƏBƏRRA

**Təvəlla**

Allah və Allahın sevdiklərini və xüsusilə də Allahın seçilmiş qulları olan bütün Peyğəmbərləri, Hz. Məhəmmədi və Əhli-Beytini (ə) sevməyə təvəlla deyilir. Biz Allahın bəndələriyik. Hər şeyi yaradan Allahdır. Allah yaxşıları sevər və pis adamlara nifrət edər. Elə isə bizlər də Onun yaratdığı qullar olaraq Onun sevdiklərini sevməliyik.

Müsəlmanlar, özlərinə düşmənçilik edən güclər qarşısında bir-birlərinə ürəkdən gələn ilahi bir sevgi ilə bağlanmalıdırlar. Beləcə dinlərini daha yaxşı qoruyar, daha güclü və dinc yaşaya bilərlər.

Bir adam Allahı sevdiyini söyləyib Allahın sevdiklərini sevməzsə, bu onun sevgisinin gerçək olmadığını göstərir. Məsələn, Allahı sevən bir insanın imam Əlini (ə) sevməməsi mümkün deyildir.

*"Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat verirlər".*

*"Hər kəs Allahı, Onun Peyğəmbərlərini və iman gətirənləri özünə dost tutarsa, (hər iki dünyada işləri yaxşı gedər). Şübhəsiz ki, qələbə çalanlar, məhz Allahın firqəsidir (Allahı özünə hami və dost seçən şəxslərdir)"*[1].

**Təbərra**

Allahın sevmədiyi kimsəni sevməyib onlardan uzaq dayanmağa təbərra deyilir. Əgər Allahı həqiqətən seviriksə, necə olar ki, onun sevmədiyini sevək? Həqiqi Allah qulu Allahın sevmədiyini

---

[1] Maidə, 55-56.

sevməməlidir. Təbərra inancı bizlərə zalımlara qarşı səssiz qalmamağa və müsəlmanların düşmənləri ilə dost olmamağa yönəltməkdədir.

*“Möminlər möminləri buraxıb kafirləri dost tutmasınlar! Bunu edən (kafirləri özünə dost tutan) kəs Allahdan heç bir şey gözləməsin (onun Allah dərgahında heç bir qədir-qiyməti olmaz). Ancaq onlardan gələ biləcək bir təhlükədən qorxmanız (çəkinməniz) müstəsnadır. Allah sizi Öz əzabından çəkindirir. Axır dönüş Allaha tərəfdir! (Hamı Allahın hüzuruna qayıdacaqdır!)”[1].*

**35-ci dərsin sualları**

1. Təvəlla və Təbərra nədir?

[1] *Ali-İmran, 28.*

**DƏRS: 36**

# QÜSL

## (Boy dəstəmazı)

Bədənin bütününün xüsusi bir şəkildə qürbət qəsdi (Allaha yaxınlaşma) ilə bədəndə heç bir yerin quru qalmayacaq şəkildə yuyulmasıdır. Buna boy dəstəmazı və təharəti kubra (böyük təmizlik) da deyilir. Qüslu tələb edən vəziyyətlər əhkam kitablarında geniş açıqlanmışdır.

*"Əgər cünub (cənabətli) olmusunuzsa, qüsl edin (bədəninizi başdan ayağa qədər yuyub təmizləyin)"[1].*

## Qüsl necə alınır?

Qüsl iki cür alınır:

1- Tərtibi

2- İrtimasi

Tərtibi qüslda qüsl niyyəti ilə vacib ehtiyata görə əvvəl baş və boyun, sonra sağ tərəfi və sol tərəf bədəndə heç quru yer qalmayacaq şəkildə yuyulur.

İrtimasi qüslda qüsl niyyəti ilə bədəni bir dəfədə su hər yeri örtəcək şəkildə suya daldırmaq[2].

Bütün vacib və müstəhəb qüsl alınma şəkli eynidir, yalnız niyyətləri fərqlidir. Hər qüslun öz niyyəti edilərək qüsl alınır.

---

[1] *Maidə, 6.*

[2] *Tam Elmihal, Ayətullah Sistani, s.69, Məsələ: 359.*

## Vacib qüsllar

Vacib qüsllar yeddidir:

1- Cənabət qüslu

2- Heyz qüslu

3- İstihazə qüslu

4- Nifas qüslu

5- Ölüyə toxunanın qüslu

6- Meyyit qüslu

7- Nəzir, and və s. şeylər səbəbiylə vacib olan qüsl[1]

## Cənabətli şəxsə haram olan şeylər

Beş şey cənabətli olana haramdır:

1- Bədənindən bir yeri Quran yazısı və ya hər hansı bir dildə yazılan Allahın adına sürmək.

2- Məscidul-Hərama (Kəbə) və Məscidi-Nəbəviyə girmək. Bir qapıdan girib digər qapıdan çıxmaq belə haramdır.

3- Məscidlərə və imamların türbələrinə girmək, bir qapıda girib digər qapıdan çıxmanın qorxusu yoxdur.

4- Bir şey almaq və ya bir şey qoymaq üçün məscidə girmək.

5- Vacib səcdəsi olan surələri oxumaq[2].

## Cənabətliyə məkruh olan şeylər

Doqquz şey cənabətli kimsəyə məkruhdur. Yəni cənabətli olan kimsənin etməməsi və çəkinməsi daha yaxşıdır:

1- Yemək

2- İçmək

---

[1] *Tam elmihal, Ayətullah Sistani, s.66.*

[2] *Tam elmihal, Ayətullah Sistani, s.68, Məsələ: 354.*

3- Vacib səcdəsi olmayan surələrdən yeddi ayədən çox oxumaq
4- Bədənin hər hansı bir yerini Quranın cildinə toxundurmaq
5- Üzərində Quran gəzdirmək
6- Yatmaq
7- Xına və bu kimi şeylər sürmək
8- Bədənə yağ sürtmək
9- Cünub olduqdan sonra əlaqədə olmaq[1]

**36-cı dərsin sualları**

1. Qüsl nədir və necə alınır?
2. İrtimasi qüslu təsvir edin?
3. Vacib qüsl neçə dənədir?
4. Cənabətliyə haram olan şeylər nələrdir?
5. Cənabətliyə nələr məkruhdur?

[1] *Tam Elmihal, Ayətullah Sistani, s.69, Məsələ: 355.*

**DƏRS: 37**

# QURANIN VACİB SƏCDƏSİ OLAN SURƏLƏR

Qurani-Kərimdə vacib səcdə olan dörd surə var. O surələri eşidən və oxuyan hər kəs səcdəyə gedib səcdə duasını oxumalıdır.

1- Səcdə surəsi (32-ci surə)
2- Fussilət surəsi (41-ci surə)
3- Nəcm surəsi (53-cü surə)
4- Ələq surəsi (96-cı surə)

Bu surələrin xaricindəki surələrdə olan səcdə ayələri müstəhəb səcdələrdir[1]

## Tilavət səcdəsinin müstəhəb olduğu ayələr

1- Əraf surəsində sonuncu ayə
2- Rəd surəsi, 15-ci ayə
3- Nəhl surəsi, 49-cu ayə
4- İsra surəsi, 107-ci ayə
5- Məryəm surəsi, 88-ci ayə
6- Həcc surəsi, 18-ci ayə
7- Həcc surəsi, 77-ci- ayə
8- Furqan surəsi, 60-cı ayə
9- Nəml surəsi, 25-ci ayə
10- Sad surəsi, 24-cü ayə
11- İnşiqaq surəsi, 21-ci ayə

**Səcdə duası**

Quranın vacib səcdəsini yerinə yetirərkən hər hansı bir zikr deməsə belə, alının səcdə niyyətilə yerə qoyulması kifayətdir. Hər

[1] *Tam Elmihal, Ayətullah Sistani, s.68.*

hansı bir zikr demək müstəhəbdir, ancaq bu zikri oxumaq daha yaxşıdır:

**Oxunuşu:** "La İlahə İlləllahu həqqən həqqa. La İlahə İlləllahu imanən və təsdiqa. La İlahə İlləllahu ubudiyyətən və riqqa. Səcədtu ləkə ya Rəbbi! Təəbbudən və riqqa. La mustənkifən və la mustəkbirən, bəl ənə əbdun, zəlilun, zəifun, xaifun, mustəcirun"[1].

**37-ci dərsin sualları**

1. Qurani-Kərimdə vacib səcdə olan surələr hansılardır?
2. Səcdə duası necə edilir?

[1] **Mənası:** *Allahdan başqa heç bir Tanrı yoxdur; bu şübhəsiz bir gerçəkdir. Allahdan başqa heç bir Tanrı yoxdur; buna inanır və təsdiq edirəm. Allahdan başqa heç bir Tanrı yoxdur; mən Ona qulluq edir və əmrlərinə boyun əyirəm. Ey Rəbbim, qulluq edərək və əmrlərinə boyun əyərək sənə səcdə etdim. Mən qulluqdan çəkinən və böyüklük göstərən deyil də zəlil, əzabından qorxan və sənə sığınan bir qulam.*

**DƏRS: 38**

# TƏYƏMMÜM

Dəstəmaz və ya qüsl almaq üçün su olmadığı və ya olub da istifadə etmə imkanı olmadığı hallarda niyyət edilərək təmiz torpağa əlləri sürtüb üzü və qolları məsh etməkdir.

*"Xəstələndiyiniz, səfərdə olduğunuz, ayaq yolundan gəldiyiniz və ya qadınlarla yaxınlıq etdiyiniz zaman su tapmasanız, pak torpaqla təyəmmüm edin, ondan üzünüzə və əllərinizə sürtün"*[1].

## Təyəmmüm necə alınır?

Təyəmmüm belə edilir:

Dəstəmaz və qüsl yerinə təyəmmüm niyyəti edildikdən sonra iki əlin içi təyəmmümün səhih olduğu şeyin üzərinə vurulur. Sonra iki əlin içi bütün alına və iki tərəfinə, saçın çıxdığı yerdən əzələlər və burnun üst qisminə qədər çəkilir, daha sonra sol əlin iç tərəfi ilə sağ əlin üstünün hamısı və sağ əlin iç tərəfi ilə də sol əlin üstünün hamısı məsh edilir[2].

## Haralarda təyəmmüm edilməlidir?

Yeddi yerdə dəstəmaz və qüsl yerinə təyəmmüm edilir:

1- Dəstəmaz və ya qüslə çatacaq qədər suyun təmin edilməsi mümkün olmayan yerlərdə;

2- Su olmadığı yerdə;

3- Suyu istifadə etməkdən qorxmaq;

4- Məşəqqət və çətində qalmaq;

5- Susuzluğu aradan qaldırmaq üçün suya ehtiyac olması;

6- Dəstəmaz və ya qüsl vermənin bədən üzvlərinə zərəri olarsa;

---

[1] *Maidə, 6.*

[2] *Tam Elmihal, Ayətullah Sistani, s.142, Məsələ: 690.*

7- Vaxtın az olması[1].

## Nələrə təyəmmüm edilər?

1- Torpaq
2- Çınqıl
3- Kəsək
4- Daş
5- Əhəng daşı
6- Gips daşı[2].

## Təyəmmüm alınarkən riayət edilməsi lazım olan şərtlər

1- Alın və əllər, yuxarıdan aşağıya doğru məsh edilməli
2- Tərtiblə edilməli.
3- Təyəmmüm əməlləri ard-arda edilməli.
4- Təyəmmüm əməllərini şəxsin özü istəyərək etməlidir.
5- Üzvlər üzərində hər hansı bir maneə olmamalıdır.

**38-ci dərsin sualları**

1. Təyəmmüm nədir, necə edilər?
2. Təyəmmüm hansı hallarda vacib olar?
3. Nələrə təyəmmüm edilir?
4. Təyəmmüm zamanı riayət edilməsi lazım olan şərtlər hansılardır?

---

[1] *Tam elmihal, Ayətullah Sistani, s.134*
[2] *Tam elmihal, Ayətullah Sistani s.140, məsələ: 674-675.*

## DƏRS: 39

# DƏSTƏMAZ NƏDİR?

Müəyyən şərtlərə uyğun gələrək, üz və əllərin yuyulması, baş və ayaqların məsh surətiylə edilən bir növ ibadətdir. Müqəddəs şəriətdə mənəvi təmizliyə vəsiləsi olan dəstəmaz, bəzi vacib və müstəhəb əməllərin ön hazırlığı vəziyyətindədir.

*"Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və dirsəklərlə birlikdə (dirsəklərdən və ya dirsəklərə qədər) əllərinizi yuyun. (Yaş əlinizlə) başınızı və hər iki bəndə (oynağa) qədər ayaqlarınızı məsh edin"[1].*

## Dəstəmaz necə alınır?

Dəstəmazda üzü və əlləri yumaq, başın ön qismini və ayaqların üzərində məsh etmək vacibdir.

Üzü uzununa, alnın yuxarısından yəni saçların bitdiyi yerdən çənənin sonuna, üz eninə isə orta barmaqla baş barmağın arası qədər yuyulur.

Üz yuyulduqdan sonra sağ əli, daha sonra sol əli dirsəkdən barmaqların ucuna qədər yuyulur.

Hər iki qol yuyulduqdan sonra əldə qalan dəstəmaz suyunun islaqlığı ilə başın üstü məsh edilir, yuxarıdan saç bitiminə qədər.

Başı məsh etdikdən sonra əldə qalan dəstəmaz suyunun islaqlığı ilə ayaqların üzəri barmaqların birinin ucundan ayaq üzərindəki çıxıntıya qədər sağ əllə sağ ayaq, sol əllə sol ayaq məsh edilir[2].

[1] *Maidə, 6.*
[2] *Tam elmihal, Ayətullah Sistani, s.46.*

## Dəstəmazı vacib edən ibadətlər

Beş şey üçün dəstəmaz almaq fərzdir:

1- Unudulmuş səcdə və təşəhhüd üçün.

2- Kəbənin vacib təvafı üçün.

3- Dəstəmaz almağa nəzir və əhdə.

4- Quranın yazılarına toxunmaq üçün.

5- Nəcis olmuş Quranı yumaq üçün[1].

## Dəstəmazı pozan şeylər

Yeddi şey dəstəmazı pozar:

1- Sidik.

2- Ğait (böyük hacət).

3- Yel qaçırmaq (qaz çıxarmaq)

4- Gözün görməyəcəyi və qulağın eşitməyəcəyi qədər dərin yuxuya getmək.

5- Dəlilik, sərxoşluq və huşunu itirmə kimi ağılın funksiyasını itirdiyi anlar.

6- Qadınların istihazə halları

7- Cünub olmaq[2].

## Dəstəmazın şərtləri

Dəstəmazın səhih olmasının bir neçə şərti vardır:

1- Dəstəmazın suyu pak olmalıdır.

2- Su, mütləq olmalıdır. (nəcis və ya meyvə suyu kimi qarışıqlarla qarışdırılmamalıdır).

3- Dəstəmaz suyu mübah (qəsb edilməmiş) olmalıdır.

---

[1] *Tam elmihal, Ayətullah Sistani, s.46.*

[2] *Tam elmihal, Ayətullah Sistani, s.62, Məsələ: 321.*

4- Dəstəmaz üzvləri, yuyulduğunda və məsh edilərkən təmiz olmalıdır.

5- Dəstəmaz və namaz üçün kafi vaxt olmalıdır.

6- Dəstəmaz, qürbət (yaxınlaşma) qəsdiylə yəni aləmlərin Rəbbinin əmrini yerinə yetirmək üçün alınmalıdır.

7- Dəstəmaz deyilən tərtib üzərinə alınmalıdır.

8- Dəstəmaz əməlləri fasiləsiz və arxa-arxaya edilməlidir.

9- Üz ilə qolların yuyulması və baş ilə ayaqların məshini insanın özü etməlidir.

10- Su istifadə etmənin dəstəmaz alan üçün bir problemi olmamalıdır.

11- Dəstəmaz üzvlərində suyun çatmasına hər hansı bir maneə olmamalıdır[1].

**Cəbirə dəstəmazı nədir və necə alınır?**

Cəbirə, qırıq və yaralara sarılan şeylərə, yara və bu kimi şeylərin üzərinə qoyulan dərmanlara deyilir.

Əgər yaranın üzəri bağlıdırsa, yuyulması mümkün olan yerlər yuyulur, yaranın üzərindəki sarğının üstünə yaş əl (məsh kimi) çəkilir. Bu dəstəmaza cəbirə dəstəmazı deyilir[2].

**39-cu dərsin sualları**

1. Dəstəmaz nədir və necə alınır?
2. Dəstəmazı tələb edən hallar nələrdir?
3. Dəstəmazı pozanlardan beşini zikr edin.
4. Səhih bir dəstəmazda əsas şərtlər nələrdir?
5. Cəbirə dəstəmazı nədir və necə alınır?

[1] *Tam Elmihal, Ayətullah Sistani, s.52.*
[2] *Tam elmihal, Ayətullah Sistani, s.63.*

## DƏRS: 40

# SƏHABƏLƏR

Peyğəmbəri (s) görmə və onunla birlikdə olma, şərəfinə nail olan kəslər, bir neçə hissəyə bölünür. O kəslərdən bəziləri:

1- Səid b. Müseyyib belə deyir: Səhabə, bir və ya iki il Peyğəmbər ilə birlikdə olan və onunla birlikdə bir və ya iki müharibədə iştirak edən kəsə deyilir[1].

2- Əhməd b. Hənbəl belə deyər: Hər kim bir ay və ya bir gün və ya bir saat Peyğəmbər ilə birlikdə olmuş və ya Peyğəmbəri görmüşsə səhabələrdən sayılır[2].

3- Müsəlmanlardan Peyğəmbər ilə birlikdə olan və ya onu görən hər kəs, Peyğəmbərin səhabələrindən sayılır[3].

## Quran baxımından səhabə

Qurani-Kərimə görə Rəsuli Əkrəmin (s) hüzuruna varma şərəfini əldə edən və O, Həzrət ilə birlikdə olan kəslər iki qisimdir:

**Birinci qrup:** Allah elçisi (s) ilə birlikdə olan bu qrup, Quran ayələrində təriflənən və İslamın əzəmət və dövlətinin təməlini atan kəslər olaraq xatırlanan insanlardan ibarətdir.

Bu qrupu uca Allah Quranda bir çox ayədə tərifləmişdir.

*“Muhəmməd (əleyhissəlam) Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar (möminlər) kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər. Sən onları (namaz vaxtı) rüku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə izidir. (Qiyamət günü onlar üzlərindəki möminlik nuru alınlarındakı möhür yeri ilə tanınırlar)”*[4].

---

[1] *Üsdü'l-Ğabə, c.1, s.11-12, Misir nəşri.*
[2] *Üsdü'l-Ğabə, c.1, s.11-12, Misir nəşri.*
[3] *Üsdü'l-Ğabə, c.1, s.11-12, Misir nəşri.*
[4] *Fəth, 29.*

*"(İslamı) ilk əvvəl qəbul edib (bu işdə başqalarından) irəli düşən mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedən kimsələrə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar. (Allah) onlar üçün əbədi qalacaqları, (ağacları) altından çaylar axan cənnətlər hazırlamışdır. Bu, böyük qurtuluşdur (uğurdur)!"*[1].

**İkinci Qrup:** Rəsuli Əkrəm (s) ilə birlikdə olan digər qrup isə ikiüzlü və xəstə ürəkli insanlardan ibarətdir.

Qurani-Kərim, bu cür səhabələrin həqiqi üzlərini ortaya qoyaraq Peyğəmbəri (s) onlara qarşı xəbərdar etmişdir.

*"(Ya Peyğəmbər!) Münafiqlər (riyakarlar) sənin yanına gəldikləri zaman: "Biz sənin, doğrudan da, Allahın Peyğəmbəri olduğuna şəhadət veririk!" - deyirlər. Allah sənin Onun həqiqi Peyğəmbəri olduğunu bilir. Allah həm də münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir"*[2].

*"O zaman münafiqlər və qəlblərində mərəz (şəkk) olanlar: "Allah və Onun Peyğəmbəri bizə yalan vəd etmişdir. (Biz zəfər çala bilməyəcəyik)" - deyirdilər"*[3].

## Peyğəmbər baxımından səhabə

Peyğəmbərimizdən (s) də səhabələr haqqında çox sayda hədis nəql edilmişdir. Burada nümunə olaraq onlardan birini yazmaqla kifayətlənirik.

Əbu Hazim, Səhl b. Saddan, Rəsuli-Əkrəmin (s) belə buyurduğunu nəql etmişdir:

"Mən, Kövsər hovuzunun başında sizləri gözləyəcəyəm. Oraya gələn, ondan içər. Ondan içən, bir daha əsla susamaz. Bəziləri də orada mənə gələrlər ki, mən onları tanıyıram, onlar da məni

---

[1] *Tövbə, 100.*

[2] *Munafiqun, 1.*

[3] *Əhzab, 12.*

tanıyırlar. Amma sonra onlarla mənim arama maniə girir, mənə çata bilməzlər".

Əbu Hazim deyir: Mən bu hədisi oxuyarkən, Numan b. Əbu Ayyaş onu eşitdi və belə dedi: "Beləmi eşitmisən?" Mən:- bəli dedim. Numan dedi ki: -Mən Əbu Səidi-Hudridən bu hədisi belə əlavə ilə nəql etdiyinə şahidəm: **Mən deyərəm ki, onlar məndəndir. Mənə deyilər ki, bunların səndən sonra nələr etdiyini bilirsənmi? Bunun üzərinə mən deyərəm ki, məndən sonra Allahın dinini dəyişdirən kəslər Allahın rəhmətindən uzaq olsun, uzaq olsun**[1]!

## Şiə baxımından səhabə

Yuxarıda zikr edilən mövzulara diqqət etdiyimizdə şiənin Rəsul-i-Əkrəmin (s) səhabələri haqqında görüşünün, Allahın Kitabı və Peyğəmbərin (s) sünnəsinə razı bir görüş olduğu aydın olmaqdadır.

Şiələr Hz. Peyğəmbəri (s) və dinini səmimi olaraq qəbul etmiş, heç bir qarşılıq gözləmədən can və malları ilə Allahın Rəsulunu qorumuş, bütün həyatları boyunca, hətta Rəsulun vəfatından sonrakı böhranlı dövrlərdə belə, ona vəfalı qalmış səhabələrini qəbul etmiş və onları sevib saymışlar.

**40-cı dərsin sualları**

1. Səhabə kimlərə deyilir?
2. Quran baxımından səhabə kimlərdir?
3. Peyğəmbər buyruqlarında səhabə kimlərdir?
4. Şiə baxımından səhabə kimlərdir?

## DƏRS: 41

---

1 *İbni Əsir, Camiul-Usul, c.11, s.120.*

# MƏLƏKLƏR

Mələk kəlməsi lüğətdə güclü, qüvvətli, elçi, xəbərçi mənalarına gəlir. Mələk sözü Qurani-Kərimdə orta hesabla səksən yerdə zikr olunub. Allah, insanı torpaqdan, cinləri oddan, mələkləri isə nurdan yaratmışdır.

Mələklər normal gözlə görülməyən nurani varlıqlardır. Quranda mələklər və sifətləri, vəzifələri və xüsusiyyətlərindən bir çox ayədə bəhs edilmişdir. Hətta Qurani-Kərim mələklərə imanı Allaha, kitaba və Peyğəmbərlərə imanın bir parçası olaraq təyin etmişdir.

*"Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə (Qurana) inanmış və möminlər də iman gətirmişlər. (Onların) hamısı Allaha, Onun mələklərinə, kitablarına və (bütün) Peyğəmbərlərinə iman gətirərək dedilər: Biz Onun Peyğəmbərləri arasında fərq qoymuruq. (Allahın hökmlərini) eşitdik (anladıq) və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla, (axırda) Sənin dərgahına (hüzuruna) qayıdacağıq![1]"*

Həqiqətən, mələklərin varlığı qeybi xəbərlərindəndir. Onların varlığının isbatına da nəqli dəlillərdən başqa dəlilimiz yoxdur. Qeybə iman hökmüylə onlara da iman etmiş oluruq.

## Qurani-Kərimdə mələklərin xüsusiyyətləri

Qurani-Kərim mələklərin xüsusiyyətlərini belə xarakterizə edir:

1- Mələklər, ağıl sahibi şüurlu və Allahın əziz və hörmətli bəndələrindəndir.

*"(Mələklər) lütf və ehsana şamil olan qullardır"*[2].

2- Onlar Allahın əmrini icra etmədə əsla günaha düçar olmazlar.

*"(Mələklər) Ondan qabaq söz danışmaz, Yalnız Onun əmri ilə iş görərlər"[3].*

---

[1] *Bəqərə, 285.*
[2] *Ənbiya, 26.*
[3] *Ənbiya, 27.*

3- Onlar daima Allahı xatırlayıb təqdislə məşğuldurlar.

*"Mələklər də Rəbbini həmd-səna ilə təqdis edər və yerdəkilərin (günahlarının) bağışlanmasını diləyərlər"[1].*

4- Onlar insan şəklində Peyğəmbərlərə və bəzən də digər insanlara görünərlər.

*"Biz də Öz ruhumuzu (Cəbraili Məryəmin) yanına göndərdik. Ona (Məryəmə) kamil bir insan qiyafəsində göründü"[2].*

5- Onlar müxtəlif məqamdadırlar; bəziləri davamlı rukuda, bəziləri isə davamlı səcdə halındadırlar.

*"(Cəbrail Peyğəmbər əleyhissəlama belə dedi: ) Bizdən (mələklərdən) elə birisi yoxdur ki, onun (səmada Allaha ibadət üçün) müəyyən bir yeri olmasın!".*

*"Və (Allahı) təqdis edib şəninə təriflər deyirik"[3].*

6- Mələklər quruluş olaraq iri quruluşlu, cüssəli və güclü varlıqlardır. Qurani-Kərim belə açıqlayır:

*"Onu (Muhəmməd əleyhissəlama) çox qüvvətli olan (Cəbrail) öyrətdi"[4]. "Və çox sərt təbiətli mələklərdir (zəbanilərdir)"[5].*

7- Mələklərin həm əlləri, həm də qanadları vardır: *"Mələklərin də (bu zaman) əllərini uzadıb[6]"*

*"Göyləri və yeri yoxdan yaradan, ikiqanadlı, üçqanadlı və dördqanadlı mələkləri (Peyğəmbərlərə) elçi edən Allaha həmd olsun! (Allah) məxluqatda istədiyini artırar. Həqiqətən, Allah hər şeyə qadirdir!"[7].*

## Hədislərdə mələklərin sifətləri

---

[1] *Şura, 5.*
[2] *Məryəm, 17.*
[3] *Saffat, 164-166.*
[4] *Nəcm, 5.*
[5] *Təhrim, 6.*
[6] *Ənam, 93.*
[7] *Fatir, 1.*

Rəvayətlərimizdə isə mələklər haqqında bəzi sifət və xüsusiyyətlər nəql edilmişdir ki, onlardan bəzilərini qısaca belə sıralaya bilərik:

1- Onlar, yeməz, içməz və evlənməzlər.

İmam Cəfər Sadiqdən nəql edilən bir hədisdə belə oxuyuruq: "Mələklər yemək yeməz, su içməz və evlənməzlər, onlar ərşin nəsimiylə yaşayarlar"[1].

2- Onlar, yatmaz, qəflət etməz, tənbəllik etməzlər.

İmam Əli (ə) belə buyurur: **"Mələklər, tənbəllik, qəflət və unutqanlığa düşməz, yuxu onlara hakim olmaz, ağılları unutqanlıq və yanlışlığa düşməz, ataların sülbündə və anaların bətnində də iştirak etmədilər"[2].**

3- Qiyamətə qədər ömürlərini rüku və səcdədə keçirən mələklər vardır.

İmam Cəfər Sadiq (ə) buyurur: **"Allahın qiyamətə qədər rukuda və səcdədə olan mələkləri vardır"[3].**

4- Mələklərin cinsiyyəti yoxdur. Onların erkəyi və dişisi olmaz. İslamdan əvvəlki ərəblər mələklərin cinsiyyəti olduğunu zənn edərək onları Allahın qızları sanırdılar. Qurani-Kərim, mələkləri qəsd edərək, ərəblərin bu fikirlərinin yanlışlığını bu cümlələrlə ortaya qoyur:

*"(Ya Peyğəmbər! İndi o müşriklərdən) soruş: Deməli, qızlar sənin Rəbbinin, oğlanlar isə onların özlərinindir, eləmi?" "Yoxsa, Biz mələkləri dişi yaratmışıq və onlar da (buna) şahid olublar?!"[4].*

5- Mələklər yalnız Peyğəmbərlərə deyil normal insanlara da görünə bilərlər.

Bəzən mələklər insan şəklinə girərək insanlara bir şeylər öyrətmək üçün yer üzünə gəlirlər. Mələklərin yer üzünə gəlib

---

[1] *Biharul-Ənvar, c.59, s.174*

[2] *Biharul-Ənvar, c.59, s.175.*

[3] *Biharul-Ənvar, c.59, s.174.*

[4] *Saffat, 149-150.*

insanlara bir şeylər öyrətməyi haqda Quranda bizlərə izah edilmişdir.

Allah-Təala buyurur: "Halbuki (o iki mələk): Biz (Allah tərəfindən göndərilmiş) imtahanıq (sınağıq), sən gəl kafir olma![1]".

## Mələklərin vəzifələri

Mələklərə uca Allah tərəfindən müxtəlif vəzifələr verilmişdir.

Onlar insanlar kimi vəzifələrində heç bir qüsur və yanlışlığa düşməz. Mələklərin vəzifələrindən bəziləri:

1- İçlərindən bir qrup ərşin daşıyıcılarıdır.

*"Mələklər də onun (göyün) ətrafında (Allahın əmrinə müntəzir) olacaq və həmin gün (ya Peyğəmbər!) sənin Rəbbinin ərşini onların (başı) üstündə səkkiz mələk daşıyacaqdır!"[2].*

2- Bir qrupu işləri idarə edənlərdir.

"İsləri idarə edən (mələk) lərə"[3].

3- Bir qrupu ruhları almaqla vəzifəlidir.

*"Allaha iftira yaxan, Onun ayələrini yalan hesab edən kimsədən daha zalım kim ola bilər? Kitabda (lövhi-məhfuzda) yazılmış qismətləri onlara çatacaqdır. Nəhayət, elçilərimiz (göndərdiyimiz mələklər) canlarını almaq üçün yanlarına gəldikdə: "Allahdan başqa ibadət etdiyiniz bütləriniz haradadır?" - deyincə: "Onlar bizi qoyub qaçdılar!" - deyə cavab verəcək və öz əleyhlərinə, kafir olduqlarına şahidlik edəcəklər"[4].*

4- İçlərindən bəziləri insanların etdiklərini yazıb qeyd edirlər.

*"Sizin üstünüzdə gözətçi mələklər" –"Onlar sizin nə etdiklərinizi bilirlər"[5].*

5- Bir qrupu insanları təhlükədən qoruyurlar.

---

[1] *Bəqərə, 102.*
[2] *Haqqə, 17.*
[3] *Naziat, 5.*
[4] *Əraf, 37.*
[5] *İnfitar, 10-12.*

*“(Allah) Öz bəndələri üzərində hakimi-mütləqdir. O sizə (yaxşı və pis əməllərinizi yazan, sizi Şeytandan qoruyan) gözətçi mələklər göndərir”*[1].

6- Bir qrupu müharibələrdə möminlərə köməkçi olanlardır.

*“Ey iman gətirənlər! (Xəndək, yaxud Əhzab vuruşunda Qüreyş, Qətəfan və yəhudilərin Bəni-Nəzir qəbilələrindən təşkil olunmuş) ordular sizin üstünüzə gəldiyi zaman Allahın sizə olan nemətini yada salın. O vaxt Biz onların üstünə külək və sizin görmədiyiniz (mələklərdən ibarət) qoşun göndərmişdik. Allah o zaman sizin nə etdiyinizi görürdü”*[2].

7- Bir qrup Peyğəmbərlərə vəhyi çatdırma vəzifəsində olanlardır.

*“(Allah) Öz əmri ilə mələkləri (Cəbraili) vəhy ilə bəndələrindən istədiyinə göndərib belə buyurar: İnsanları (əzabımla) qorxudub (bu həqiqəti Mənim adımdan onlara) bildirin: Məndən başqa heç bir Tanrı yoxdur. Məndən qorxun!”*[3].

8- Bir qismi cəhənnəmdə vəzifəlidir, zəbani adlı mələklər, Allahın əmri ilə günahkarların cəzasını verirlər. Qurani-Kərimdə cəhənnəmdəki Sakar adında bir quyudan bəhs edilir. O quyunun mələklərinin sayının 19 olduğu bildirilmişdir:

*“Onun üstündə on doqquz (nəfər gözətçi mələk) vardır”.*

*“Biz cəhənnəm gözətçilərini yalnız mələklərdən etdik. Biz onların sayını ancaq kafirlərin imtahana çəkilməsi, kitab verilənlərin yəqinlik hasil etməsi (çünki onların kitablarında bu mələklərin sayı on doqquzdur)”*[4].

9- Bir qismi cənnət vəzifəlisidir. Rizvan adındakı mələklər cənnətə girən insanlara salam verirlər.

---

[1] *Ənam, 61.*
[2] *Əhzab, 9.*
[3] *Nəhl, 2.*
[4] *Muddəssir, 30-31.*

10- Hər bir insanın əməlini yazan sağındakı və solundakı mələklər. Bu mələklər insanın yaxşı və pis əməllərini qeyd edirlər. Qurani-Kərimdə bu mələklərdən belə bəhs edilir:

*"Xatırla ki, (insanın) sağında və solunda (onun bütün əməllərini) təsbit edən (qeydə alan) iki mələk oturmuşdur!"*[1].

11- İnsanlara məzarda sual verən mələklər.

Bəzi kitablarda yaxşı insanı sorğu-sual edəcək mələklərin adlarının Bəşir və Mübəşşir, pis insanları sorğu-sual edəcək mələklərin isə Nəkir və Münkər olduğu açıqlanmışdır[2].

**41-ci dərsin sualları**

1. Mələk nə deməkdir?
2. Qurani-Kərimdə mələklər necə təsvir edilmişdir?
3. Hədislərdə mələklər necə tanıdılmışdır?
4. Mələklərin vəzifələri nələrdir?

---

[1] *Qaf, 17.*

[2] *Əllamə Məclisi, Həqqul-Yəqin, s.477.*

## DƏRS: 42

# MƏLƏKLƏRİN SAYI

Mələklərin sayı haqqında nə Quranda, nə də hədis kitablarında bir məlumat yoxdur. Onların sayını yalnız Allah bilir. Qurani-Kərimdə bu məsələ belə açıqlanmışdır: *"Rəbbinin ordularını özündən başqası bilməz"*[1]. Burada ordu Allahın yaratdığı mələklərdir.

Mələklərin sayı insanlarla müqayisə olunmayacaq qədər çoxdur.

İmam Cəfər Sadiqə: "Mələklərmi sayca çoxdur, insanlarmı?" - deyə soruşanda, O:- **"Canım əlində olan Allaha andlar olsun ki, göy üzündə Allahın mələklərinin sayı yer üzündəki insanların sayından daha çoxdur. Göy üzündə addım atdığın hər yer Allahı həmd və zikr edən mələklərlə doludur"** – buyurdu[2].

## Dörd böyük mələk

Mələklər arasında dörd mələk vardır ki, bu mələklər digər mələklərdən məqam və dərəcə olaraq böyükdürlər. Onların böyüklükləri vəzifələrinə görədir.

**1- Əzrail (ölüm mələyi)**

Bu böyük mələklərdən biri Əzrail adlı mələkdir. İnsan bu dünyadakı yaşama müddətini bitirdikdən sonra, onun ruhunu bədənindən çıxarmaq üçün bir mələk gəlir. Bu mələyin adı, ölüm mələyidir.

Əzrail adı Quranda keçməyib, amma hədislərdə insanların canını alan mələyin adı Əzrail kimi keçmişdir. Qurani-Kərimin bəzi

---

[1] *Müddəssir, 31.*

[2] *Biharul-Ənvar, c, 59, s.176.*

yerlərində ölüm mələkləri, bəzi yerlərində isə ölüm mələyi sözü keçir.

Yəni insanların canını alan ölüm mələyi hərdən tək olaraq ölüm mələyi, bəzən də cəm olaraq ölüm mələkləri deyə ifadə olunur. Əzrail böyük bir mələkdir. O ancaq Peyğəmbər, Əhli-beyt imamları, mömin adamlar kimi böyük insanların canını almağa gəlir. Sadə insanların canlarını Əzrailin əmrində olan digər mələklər almağa gəlir. Qurani-Kərimdə ölüm mələyi sözü tək işlədildiyində məqsəd böyük Əzrail, ölüm mələkləri kimi cəm şəklində işlədildiyində məqsəd Əzrailin əmrindəki digər mələklər nəzərdə tutulur.

**2- Cəbrayıl (vəhy mələyi)**

Allah ilə qulları arasında əlaqə yaradan mələyin adıdır. Allahdan aldığı əmrləri bəndələrinə çatdırır. Cəbrayıl Peyğəmbərlərə vəhy gətirən mələkdir. Cəbrayıl sadəcə Peyğəmbərlərə gəlməmiş, Peyğəmbər olmayan insanlara da Allahın əmrlərini aparmışdır.

Həzrət Məryəmin yanına gəlib və ona Allahın əmrlərini yetirib.

Cəbrayıl Peyğəmbərimizin (s) yanına gəldiyi zaman ondan icazə alardı. Əgər Peyğəmbər icazə verərsə onunla görüşərdi.

Cəbrayıl Peyğəmbərimizin (s) yanında ədəbli bir kölə kimi oturardı. Bir kölə ağasının yanında necə durursa, Cəbrayıl da Peyğəmbərin yanında eyni idi.

Qurani-Kərimdə Cəbrayılın bir neçə adı zikr olunmuşdur: Ruhul-qudus, Ruhul-əmin, Cibril kimi adlar nümunə olaraq deyilə bilər. Cəbrayıl Peyğəmbərimizə vəhy gətirərkən ya görünməmiş və ya bir insan şəklində görünmüşdü. Peyğəmbərimiz (s) Cəbrayılı öz həqiqi simasında iki dəfə görmüşdür.

Peyğəmbərimizə Hira mağarasında ilk vəhy gəldiyi zaman, ikincisi isə meraca getdiyi zamandır.

**3- Mikayıl (Ruzi mələyi)**

Mikayılın vəzifəsi təbiətin nizamını təmin etməkdir. Hansı ağacın meyvəsi olacaq və neçə dənə olacaq, hara yağış yağacaq, nə qədər yağacaq, hansı heyvanın neçə dənə balası olacaq, erkək, yoxsa dişimi olacaq, kimə nə qədər ruzi veriləcək, harada və nə dərəcədə zəlzələ olacaq, bunların hamısının vəziyyəti Mikayılın əlindədir.

O mələk Allahdan aldığı əmrlə bunları nizamlı bir şəkildə idarə edər. Dünyanın, aləmin nizamını Mikayıl mələyi tənzimləyir və Allah o mələyin əmrinə saysızca mələk vermişdir. Mikayıl həmin, mələklərə göstərişlər verərək dünyanın nizamını təmin edir.

**4- İsrafil (Sura üfləyəcək mələk)**

İsrafil adlı mələyin vəzifəsi, qiyamət günü Sur adlı bir alətə üfləyərək qiyamətin baş verdiyini açıqlayacaqdır.

Quranda adı keçən "Sur", Qiyamət günü gələndə Allah İsrafilə Suru üfürməyi əmr edəcək. İsrafil üfürdükdə, dünyadakı bütün canlılar öləcək. Hətta mələklər və İsrafil də öləcək.

Xülasə, İsrafil Sura iki dəfə üfürəcək, ilk üfləyiş ölüm gətirərək, bütün canlıları öldürəcək. İkinci üfləyiş isə həyat gətirərək, ölən bütün canlılar diriləərək hesab verəcəklər.

**42-ci dərsin sualları**

1. Mələklərin sayı haqqında dəqiq bir məlumat varmı?
2. Mələklər arasında dörd böyük mələk hansılardır?
4. İsrafil və Cəbrayılın vəzifəsi nədir?

## DƏRS: 43

# MÖCÜZƏ

Lüğətdə möcüzə sözü "icazə" məsdərindən olub, çarəsiz etmək, gücsüz qılmaq mənasında ifadə edilib.

Digər tərəfdən Allahın Peyğəmbərliyə seçdiyi kimsənin vasitəsilə bəzi fövqəladə (zəka xarici) işləri insanlara göstərməsidir.

Möcüzə, Peyğəmbərliyin dəlilidir, başqalarının qətiyyən edə bilməyəcəyi və Peyğəmbərlərin də ancaq Allahın iradə və izni ilə reallaşdıra bildiyi bir sıra xariqüladə işlərdir. Möcüzə, yalnız Peyğəmbərliyin sübut edilməsi sahəsində istifadə edilən bir vasitədir. Davamlı bəhanələr arxasında gedən və Peyğəmbərlərdən möcüzə istəyənlərə Qurani-Kərim belə cavab verməkdədir: *"De: Möcüzələr ancaq Allahın əlindədir. Mən isə sadəcə olaraq (insanları Allahın əzabı ilə) açıq-aşkar qorxudan bir Peyğəmbərəm*!"[1]. Yenə bir başqa ayədə belə buyurulmuşdur: *"Heç bir Peyğəmbər Allahın izni olmadan hər hansı bir ayəni (möcüzə) özbaşına gətirə bilməz"*[2].

**Möcüzə ilə sehr arasındakı fərq nədir?**

Möcüzənin digər işlərdən və hadisələrdən çox diqqət çəkən fərqləri vardır. Biz onlardan bir neçəsini zikr etməklə kifayətlənəcəyik:

1- Sehrbazların etdikləri ovsunlar, təhsil və praktika tələb edən işlərdir. Bir cadugərə mütləq biri müəllimlik etməlidir. Halbuki, Peyğəmbərlərin heç bir müəllimi və təlimçiləri yoxdur. Onlar da hər şeydə müqtədir insanlardan biridir.

2- Sehrbazların etdikləri müəyyən bir zaman, məkan və şərtlərlə məhdud olub, yenə məlum həqiqətlərlə baş verir. Amma

---

[1] *Ənkəbut, 50.*

[2] *Mömin, 78.*

Peyğəmbərlərin göstərdiyi möcüzələr uca Allahın sonsuz qüdrətindən irəli gəldiyi üçün onlarda heç bir sərhəd və məhdudiyyət yoxdur. İstədiklərində şərtlər nə olursa-olsun möcüzə göstərə bilərlər.

3- Sehrbazların gördükləri ümumiyyətlə, maddiyata söykənir və məqsədi diqqəti cəlb etməkdir. Amma Peyğəmbərlərin məqsədi ləyaqətli insanlar yetişdirib ideal cəmiyyətlər yaratmaqdır.

*"Mən bunun (dini, risaləti təbliğ etməyin) müqabilində sizdən heç bir muzd (əvəz) istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir!"*[1].

4- Sehrbazların etdiklərini başqaları da edə bilər, ancaq Peyğəmbərlərin göstərdiyi möcüzələri onlardan başqa kimsə edə bilməz[2].

| **43-cü dərsin sualları** |
| --- |
| 1. Möcüzə nədir, nə üçün gətirilir? |
| 2. Möcüzə ilə sehr arasında bir neçə fərqi deyin. |

[1] *Şuəra, 109.*

[2] *40 Dərsdə Əhli- Beyt İnancları, Ustad Əsgər Qaimi, s.109.*

**DƏRS: 44**

# İLAHİ KİTABLAR

Peyğəmbərdən (s) gələn bir hədisdə ilahi kitabların sayı, yüz dörd olaraq açıqlanmışdır. Allah Rəsulu (s), Əbuzərin Peyğəmbərlərin sayları və kitabları ilə bağlı sualına cavab olaraq belə buyurmuşdur:

"Allah Təala yüz iyirmi dörd min Peyğəmbər göndərib. Onlardan rəsul olanların sayı üç yüz on üçdür və Allah qatından yüz dörd kitab göndərilmişdir. Zəbur kitabı Həzrət Davuda (ə), Tövrat kitabı Həzrəti Musaya (ə), İncil kitabı Həzrəti İsaya (ə) və Qurani-Kərim kitabı Həzrət Məhəmmədə (s) verilmişdir. On səhifə Həzrət Adəmə (ə), əlli səhifə Həzrət Şitə, otuz səhifə Həzrət İdris (ə) və on səhifə İbrahimə (ə) verilmişdir ki, ümumilikdə yüz dörd kitab edir[1].

Kitab sözü ərəbcədən "Kətəbə" kökündən gəlir. Bu mənaya görə hər hansı bir yazıya kitab deyildiyi kimi, bir məktuba da kitab deyilir.

Termin olaraq "Kitab" Allahın insanlar arasından seçdiyi Peyğəmbərinə öz xalqını və ümmətini hidayət etmək üçün göndərdiyi kitablardır.

Bu kitablar, **"ilahi kitablar"** və ya **"səmavi kitablar"** adlanır.

## İlahi kitabların xüsusiyyətləri

İlahi kitablar iki hissəyə bölünür:

**1- Suhuf (səhifələr)**

"Suhuf", səhifə sözünün cəmidir. Kiçik icmalara endirilən və bir neçə səhifədən ibarət olan ilahi kitablar "Suhuf" adlanır.

---

[1] *Məcməul-Bəyan, c.10, s.476.*

Qurani-Kərimdə belə buyurulur: *"Şübhəsiz ki bunlar, əvvəlki səhifələrdə, İbrahim və Musanın səhifələrində də var"*[1].

**2- Böyük kitablar:**

**a) TÖVRAT (Əhdi-Ətiq)**

Tövrat sözü ibranicə olub "öyrətmək və şəriət" anlamına gəlir. Həzrət Musaya (ə) verilən müqəddəs bir kitabdır. Bu gün xristianlara "Əhdi-Ətiq" (qədim əhd) adı verilən kitablarının hamısına "Tövrat" deyilir.

Bu gün əldə mövcud olan Tövrat, beş kitabdan ibarətdir:

**1- Yaradılış**

Ümumilikdə 50 babdan ibarət olan Yaradılış dünyanın başlanğıcından, insanın yaradılışından, Hz. İbrahim (ə) və oğullarından bəhs edir.

**2- Çıxış**

Ümumilikdə 40 babdan ibarət olan Çıxış hz. Musa (ə) və İsrail oğullarının Misirdən çıxışından, Həzrət Musanın (ə) Tur dağında bəzi ilahi əmrlər almasından bəhs edir.

**3- Levililər**

27 babdan ibarətdir, İsrail şəriət qanunları, ibadət və mərasimlərinə aid üsullar və təmizlik qaydalarını izah edir.

**4- Sayılar**

Əhali sayından, İsrail oğullarının Sina dağı ətrafından başlayan irəliləyiş və ölüm hadisələrindən bəhs edir. Ümumilikdə 36 babdır.

**5- Qanunun təkrarı**

Həzrət Musanın (ə) ölümündən, dəfn olunmasından, onun üçün saxlanılan yasdan bəhs edir. Ümumilikdə 34 babdır.

**b) ZƏBUR (məzmurlar)**

---

[1] *Bəqərə, 213.*

Zəbur sözü, "Zebara" sözündən alınmışdır. Zebara, "O, yazdı" və ya "Qətiyyən yazdı" mənalarına gəlir. Zəbur, Həzrət Davuda (ə) göndərilən ilahi kitabdır. Qurani Kərimdə belə buyurulur*: "(Ya Rəsulum!) Rəbbin göylərdə və yerdə olanları (Özünün bütün yaratdıqlarını) çox gözəl tanıyır. Biz Peyğəmbərlərin bəzisini digərlərindən üstün etdik və Davuda Zəbur verdik"*[1]*.*

**İNCİL (Əhdi Cədid-Yeni Əhd)**

1- **Matta:** Həzrət İsanın (ə) Məsih olması, soyundan bəhs edir. Ümumilikdə 28 babdır.

2- **Mark:** burada Həzrəti İsanın həyatından (ə) və Yəhudi ənənələrindən və adətlərindən bəhs edir. Ümumilikdə 16 babdır.

3- **Luka:** Hz. İsanın (ə) həyatından və təlimlərindən söz edilir. Ümumilikdə 24 babdan ibarətdir.

4- **Yəhya:** Burada daha çox Həzrət İsanın (ə) Allahın oğlu olduğuna və bunun doğru olduğundan bəhs edilir. 24 babdan ibarətdir.

**c) QURANİ-KƏRİM**

*(bunun haqqında növbəti dərslərdə geniş yazılıb)*

**44-cü dərsin sualları**

1. Peyğəmbərimiz ilahi kitabların sayı haqqında nə buyurmuşdur?
2. İlahi kitablar neçə hissəyə bölünür?
3. Böyük kitablar hansılardır?
4. Günümüzdə İncil kitabının neçə növü var?

---

[1] *İsra, 55.*

## DƏRS: 45

# QURANİ-KƏRİM

## Quranın mənası

Quran sözü “toplamaq, bir araya gətirmək, oxumaq, çox oxunan” mənalarını bildirir. *“Çünki onu (sənin qəlbində) cəm etmək, (dilində) oxutmaq Bizə aiddir”. “Biz onu (Cəbrailin dili ilə) oxutduğumuz zaman oxunmasını diqqətlə dinlə”*[1].

Anlayış olaraq isə Qurani-Kərim Uca Allahın insanları ən gözəl yola hidayət etmək üçün Peyğəmbərimizə (s) endirdiyi 114 surədən təşkil olan ilahi kitabın adıdır. Bu uca kitabın ilk ayələri “oxu” mənasına gələn “ikra” əmri ilə (Ələq, 1) başlamış olması və oxumaq kəlmələri “Quran” adını alması Uca Allahın oxumağa verdiyi önəmi ortaya qoyur. İlk əmri “oxu” və adı “oxumaq” olan bu ilahi mesajı diqqətlə və düşünərək oxumalıyıq.

## Quran təhrif olunubmu?

Quranın hər bir təhrif və nöqsanlardan uzaq və pak olduğu Şiə və Sünni alimləri arasında ittifaq edilən bir məsələdir. Əlimizdəki Quran, Peyğəmbərimizə (s) enən orijinal Qurandır. Onun heç bir hərfi nə azalıb, nə də artırılmışdır. Uca Allah Qurani-Kərimdə belə buyurur: *“Şübhəsiz ki, Qur´anı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq!”*[2].

Əllamə Seyid Məhəmməd Hüseyn Təbatəbai, dəyərli Əl-Mizan təfsirində bu ayə haqqında belə yazır: “Quran heç bir zaman yox olmayacaq və ya unudulmayacaq canlı və əbədi bir zikrdir. Quran hər cür artıqlıq və nöqsandan qorunmuşdur. Qurani-Kərim ilahi

---

[1] *Qiyamət, 17-18.*
[2] *Hicr, 9.*

mərifət və həqiqətləri bəyan edən bir zikr olduğunu söyləyən bir kitab adı, ona təfsir edə biləcək hər cür dəyişiklikdən, roluna və görünüşünə təsir göstərəcək bütün təhriflərdən uzaqdır".

Allahın himayəsində olan bir kitab heç vaxt təhrif olmaz və onda azalma və çoxalma qətiyyən ola bilməz.

## Bizim Quran haqqındakı fikrimiz

Şiənin Quran haqqındakı fikrini anlamağın ən yaxşı yolunu tapmaq, böyük şiə alimlərinin bu məsələ haqqındakı fikirlərinə müraciət etməkdir.

Şeyx Səduq "İtikadul-İmamiyə"də, Şeyx Tusi öz təfsirində, Şeyx Təbərsi "Məcməul-Bəyan" təfsirində, Seyid Xoi "Bəyan" kitabında "Quran hər cür təhrifdən uzaqdır və Peyğəmbərə nazil olduğu şəkildə qiyamətə qədər baqi qalacaqdır" demişdir.

## Qurani-Kərim kimin tərəfindən toplanıb?

"Quran kitabı Əbubəkr, Ömər və ya xüsusilə Osmanın xəlifəliyi dövründə toplanıb kitab halına gəldi",- deyə bilinən bu məşhur fikrin əksinə olaraq qeyd edim ki, Qurani-Kərim Peyğəmbərimizin (s) həyatı dövründə bir araya gətirilmiş, onun dövründə toplanmışdı. Peyğəmbər (s) surələri sıralarına görə düzmüşdür. Çünki Fatihə surəsi onun zamanında Quranın ilk surəsi olduğu üçün Fatihətul-Kitab adını almışdır.

Peyğəmbər (s) dinin cüzi və kiçik detalına da çox diqqət göstərib. Onun Quranı toplayıb kitab halına gətirilməsi kimi mühüm bir məsələni tərk etməsi əsla düşünülə bilməz.

Rəsulullahın (s) Quranı topladığına dair bir çox dəlillər mövcuddur[1].

---

[1] *180 Sual və Cavab, s.243, Sual: 71.*

1- Əli b. İbrahim, İmam Sadiqdən (ə) belə nəql edir: Allah Rəsulu (s) İmam Əliyə (ə) buyurdu: “Quran kağız, ipək və bu kimi şeylər üzərində yazılmış dağınıq bir haldadır, onları bir araya toplayın!”. Daha sonra belə nəql olunur: İmam Əli (ə) onları sarı bir parçanın arasına yığıb ağzını bağlayaraq möhür vurdu[1].

2- Əhli-sünnənin məşhur alimlərindən Xarəzmi əl-Mənakib kitabında Əli b. Riyahtan belə nəql edir: Əli b. Əbu Talib və Ubey b. Kab, Allah Peyğəmbərinin (s) həyatı dövründə Qurani-Kərimi bir araya topladılar.

3- Təbərani və İbn Asakir, Sabidən belə nəql edirlər:

Ənsardan altı nəfər Quranı Peyğəmbər (s) zamanında topladı[2].

Kutadə belə nəql edir: Malik bin Ənəsdən, Peyğəmbər (s) dövründə Quranı kimlərin topladığını soruşdular “Ənsardan olan bu dörd nəfər topladı, deyə cavab verdi: Ubey b. Kab, Həzrəti Zeyd b. Sabit və Əbuzər”[3].

**45-ci dərsin sualları**

1. Quran nə deməkdir?

3. Quran təhrif olmuşdurmu?

4. Qurani-Kərim kim tərəfindən toplanıb kitab halına gətirildi?

---

[1] *Tarixul-Quran, Əbu Abdullah Zəncani, s.24.*

[2] *Kənzul-Ummal, c.2, s.52.*

[3] *Səhih Buxari, c.6, s.102.*

## DƏRS: 46

# QURANDA MÖHKƏM VƏ MÜTƏŞABİH ANLAMLI AYƏLƏR

Qurani-Kərimin ayələrinin bir hissəsi Möhkəm, bir qismi də Mütəşabih ayələrdən ibarətdir.

*“(Ya Rəsulum!) Sənə Kitabı (Quranı) nazil edən Odur. Onun (Kitabın) bir hissəsi (Quranın əslini, əsasını təşkil edən) möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabih (çətin anlaşılan, dəqiq mənası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir”[1].*

**Möhkəm:** Lüğətdə sağlam, möhkəm, mənası açıq ayə mənasına gəlmişdir.

Möhkəm ayələrin mənaları o qədər açıq və aydındır ki, heç bir mübahisə və fikir yürütməyə imkan vermir.

Məsələn: *“(Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: "(Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur)”[2].*

*“Ona bənzər heç bir şey yoxdur. O, (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir!”[3].*

Bu nümunələr kimi hökm və etiqad haqqında yüzlərlə ayə verilə bilər.

**Mütəşabih:** Lüğətdə bənzər, oxşarlıq mənasını vermişdir.

Mütəşabih ayələrdən məqsəd, ayələrin məna və mənalarında müxtəlif məna ehtimallarının olması və fikirləri əhatə etməsidir. Bir başqa ifadə ilə şərhə və izaha ehtiyacı olan və mənası hamı

[1] *Ali-İmran, 7.*
[2] *İxlas, 1.*
[3] *Şura, 11.*

tərəfindən başa düşülməyən ayələrə deyilir. Mütəşabih ayələrin təfsiri möhkəm ayələr və ya səhih hədislərlə edilir[1].

Məsələn:

*"Allahın (qüdrət) əli onların əllərinin üstündədir"[2].*

*"Allah eşidəndir, biləndir!"[3].*

## Nəsx nədir?

Nəsx kəlməsi lüğətdə müxtəlif mənalarla gəlir:

- yazılmış bir şeyin üzərindən yazmaq
- nəql və dəyişdirmək
- yox etmək

İslam alimlərinin tərifində isə nəsx belədir: Vaxtı və zamanı dolmuş və ya keçmiş sabit bir din hökmlərindən hökmün qaldırılması, yəni vaxtı dolmuş və etibarlılıq müddəti sona çatmış bir hökmün başqa bir hökmlə dəyişməsidir[4].

## Təfsir

Təfsir, çətin və anlaşılmaz olan sözlərin üzərindən pərdə və düyünü qaldırmaqdır. Yəni Quranı şərh edən kimsənin aydın olmayan və başa düşülməsi çətin sözləri müxtəlif vasitələrlə aydın bir hala gətirərək şübhəyi aradan qaldırmasıdır[5].

## Təvil

Təvil lüğətdə həvalə və ya həvalə etmək mənasındadır. Söz və əməl şübhə daşıdığı və ya çətinliyə düşdüyü zaman təvil edilər.

---

[1] *180 Sual və Cavab, s.246, Sual: 72.*

[2] *Fəth, 10.*

[3] *Bəqərə, 224.*

[4] *Bəyan, Ayətullah Xoi c.2, s.470.*

[5] *Ulumu-Quran, Ayətullah Mərifət,* s.*273.*

Təvilçi, yəni həvalə və həvalə etməyin doğru yolunu biləndir. Yəni şübhə aradan qaldıran, insanları çıxılmaz vəziyyətdən xilas edən və əsl doğrunu göstərən şəxsdir[1].

## Zahir və Batin

Bu terminləri dəfələrlə eşitmişik ki, Quran ayələrinin zahiri və batini mənaları vardır.

Rəsulu Əkrəm (s) belə buyurur: **"Qurani-Kərimdə zahir və batini olmayan heç bir ayə yoxdur".**

İmam Baqirə (ə) "Zahir və batindən məqsəd nədir?" - deyə soruşduqda, buyurur: - "Quranın zahiri, ayələrinə görə, eniş səbəbi və ayə axınından anlaşılan mənadır və xüsusi bir istiqaməti vardır. Quranın batini isə, ayələrin mətnindən aydın olmayan və qəti bir məna daşımayan müxtəlif zaman və məkanlara tətbiq edilə bilən ayələrdir. Yəni, bu ayələri hər kəs öz zamanında öz dövrünə tətbiq edə bilir"[2].

**46-cı dərsin sualları**

1. Möhkəm və Mütəşabih nə deməkdir?
2. Nəsx nədir?
3. Təfsir və təvil nədir?
4. Ayələrdəki zahir və batindən məqsəd nədir?

[1] *Ulumu-Quran, Ayətullah Mərifət, s.274.*
[2] *Ulumu-Quran, Ayətullah Mərifət, s.275.*

## DƏRS: 47

# QURANİ-KƏRİMDƏ SURƏ ANLAYIŞI NƏDİR?

Surə sözünün bir çox mənası vardır, biz ümumi mənada məşhur olan tərifləri qısaca açıqlayacağıq:

- Surə kəlməsi qala, divar anlamına gələn "Sur" sözündən alınmışdır. Hər bir surə bir sıra ayələri sarıb içinə aldığı üçün bu adla adlandırılmışdır. Evləri bürüyən və əhatə edən qala divarları kimi.
- Surə, şərəf və məqam mənasında istifadə edilmişdir.
- İbn Faris surənin bir mənasını da "hündürlük" olduğunu yazmışdır[1].

## Ayə nədir?

Ayə isə lüğətdə açıq əlamət deməkdir. Bir şeyin varlığını göstərən əlamətdir.

Aydın şəkildə görünməyən bir şey ayəsi ilə bilinir və tanınır. Bir yolu bilməyən, o yola aid əlamətləri bilərsə, yolu tapır. Hər şey öz əlaməti ilə bilinir. Bu baxımdan ayə, duyğuların, düşüncələrin və ya ağılla məlum olan şeylərin kənara vurmuş şəklidir,- deyə bilərik.

Üzü qızaran bir kimsənin qəzəbləndiyini anlayarıq. Üzü qızarmaq qəzəbin ayəsidir. Bir şeyin, bir əşyanın səciyyəvi xüsusiyyətlərinə qədimdə əlaməti-fərq, yəni fərqləndirici əlamət deyilərdi. Bu əlamətlər o obyekti bizə tanıdan, o şeyin nə olduğunu bilməyimizə kömək edən xüsusiyyətlərdir.

Ayə, bu şəkildə açıq əlamət, nişan, iz, əsər və işarə mənalarına gəlir. Quran elmlərində ayə isə surələrin içində, başı və sonu bəlli

[1] *Ulumu-Quran, Ayətullah Mərifət* s.110.

bir və ya bir neçə cümlədən meydana gəlmiş ilahi sözlərdir. Bir başqa ifadə ilə Quran ayələrinin ümumi adıdır.

Quran 114 surədən meydana gəlir. Surələr isə ayələrdən yaranırlar. Surələrin içərisində ayələr özlərinə məxsus bir formadadırlar. Müəyyən qaydaları yoxdur. Bir neçə hərfdən ibarət olan ayələr olduğu kimi, bir səhifə uzunluğunda da ayə var.

Quran ayələrinin hər biri Allaha aid əlamətlər, işarələrdir. Bununla bərabər Allaha məxsus bir ucalığa də işarə edirlər. Bu ucalıq onların bağlı olduqları Qüdrəti xatırladır, Onun böyüklüyünü tanıdır.

Quran ayələrdən meydana gəldiyi kimi, kainat da ayələrdən meydana gəlir. Ətrafımızda gördüyümüz hər şey, Allahın bir ayəsidir. Bütün varlıqlar, bütün hadisələr Allahın "Ol" əmri ilə meydana çıxmışdır.

## Təcvid nədir?

Söz mənası olaraq təcvid, "cevde" kökündən gəlib, bir şeyi gözəl görmək, bəzəmək, sağlıqla etmək mənasına gəlir. Cevde, ərəb dilində qiymət-keyfiyyət deməkdir və bir şeyin çox gözəl olduğu zaman istifadə edilir. Qiraət elmi içində yer alan təcvid Quran oxuma üsulu və elmidir. Hərflərin çıxış yeri, xüsusiyyəti, uzun və ya qısalığı, en və ya darlığı, birləşdirmə və ayırma, qalın və incə vurğuları məsələləri bu elmin məsələləridir.

## Məal nədir?

Hər cəhətdən eynilə ötürülməsi mümkün olmayan bir sözün başqa bir dilə təxminən tərcüməsidir. Quran tərcümələri üçün istifadə edilir. Quranı başqa dilə çevirərkən onun məramını haqqı və tam olaraq əks etdirmək mümkün olmadığı üçün, çoxlu Quran məalı ortaya çıxmışdır. Bu, əslində, daha sonralar yazılan hər bir

məalın, əvvəlkinin yazdığını kifayətsiz görməsi və Quranı ifadə etmədə çarəsizliyin bir nişanəsidir.

## Qiraət, Tilavət və Tərtil nədir?

Quranın oxunması ilə əlaqədar olaraq dildə istifadə etdiyimiz "Oxumaq" əməliyyatının ərəbcə qarşılığı olaraq fərqli sözlər istifadə edilir. Bu istifadələrdən biri Qiraət, biri Tilavət, bir digəri isə Tərtildir.

Qiraət, "mənasını düşünərək, bilərək, hiss edərək oxumaq" deməkdir. Ələq surəsinin ilk ayəsindəki ilk əmr belə bir oxumağı ifadə edir. Yəni, kainatı oxumaq, kəşf etmək, düşünmək, anlamağa çalışmaq.

Qiraət sadəcə bir mətnə baxaraq oxumaq mənasına gəlməz. Ən azından vəhyin ilk gəldiyi mühiti yada salsaq, onun yazılı gəlmədiyi faktı bizi bu mənaya rahat götürür. Qiraət, bir fərqə varmaq anlamıdır. Düşünmək, mühakimə etmək, dərk edilənədək baxmaq prosesidir.

Tilavət, "kəlmələri ard-arda düzmək, demək, vacibliyini etmək, təqib etmək" mənalarına gəlir.

Tilavət "təqib etmək" mənası Şəms surəsinin 2-ci ayəsindəki "Təla" felinin istifadəsindən də anlaşılır. Bu vəziyyətdə qiraət, tilavətdən fərqlidir və ondan üstünlüyə malikdir. Yəni tilavət, oxunub anlaşıldıqdan və dərk edildikdən sonra, həyata keçirilən ötürməyə deyilir. Qiraət, bir şeyin edilməsi əmridir. Tilavət isə tətbiqi sonrası demə və köçürmə aktıdır.

Quran oxumaqla bağlı bir başqa ifadə də Müzzəmmil surəsinin 4-cü və Furqan surəsinin 32-ci ayələrində keçən Tərtil sözüdür.

Tərtil, "həzm edə-edə, yavaş-yavaş, hiss edərək oxumaq" deməkdir. Tilavət, qiraət kimi intellektual fəaliyyət deyil. Bu səbəbdən Quran oxunarkən Allaha sığınmağı əmr edən Nəhl

surəsinin 98-ci ayəsində tilavət yox, qiraət ifadəsi istifadə edilmişdir.

Çünki, Şeytan, Quranı anlama səylərinə qarşı qiraəti azdırır. Onu anlamağa çalışanlarla məşğul olur. Quranın mesajının dərk edilməməsi üçün səy sərf edir. Buradan görünür ki, Quranı oxumaq, onu əvvəl anlamağı (qiraət), həzm edə-edə oxumağı (tərtil) və sonra, lazım olanı edib ötürməyi zəruri (tilavət) edir. Bu üçü də oxumağın içində olmalıdır. Bunlardan hər hansı biri yoxdursa, oxuma əskikdir.

**47-ci dərsin sualları**

1. Quranın "surə" və "ayədən" məqsədi nədir?
2. Təcvid və məal nədir?
3. Qiraət, tilavət və tərtil nədir?

**DƏRS: 48**

# MƏKKƏDƏ VƏ MƏDİNƏDƏ NAZİL OLAN QURAN SURƏLƏRİ İLƏ BAĞLI ANLAYIŞLAR

Quranda 114 surənın 86-sı Məkkə, 28-i isə Mədinədə nazil olmuşdur. Bir surənin Məkkədə və ya Mədinədə nazil olmasına dair üç fərqli fikir var.

1- **Nazil olma zamanına görə:** Təfsir alimlərinin çoxunun görüşünə görə, Peyğəmbərimizin (s) hicrətindən əvvəl nazil olan surələrə Məkki, hicrətdən sonra nazil olan surələrə isə Mədəni surələr deyilir. Bu səbəbdən bir surənin Məkki və ya Mədəni olması nazil olma yeriylə deyil, nazil olma zamanıyla əlaqəlidir. Elə isə bir ayə Məkkədə nazil olduğu halda, Mədəni və ya Mədinədə nazil olduğu halda, Məkki sayıla bilər.

2- **Nazil olma səbəbinə görə:** Məkkədə nazil olana Məkki, Mədinədə nazil olana isə Mədəni deyilir. Hicrətdən əvvəl və ya hicrətdən sonra nazil olmuş olması vacib deyildir.

3- **Xitab tərzinə görə:** Müşriklərə istiqamətli xitab ehtiva edən surələr Məkkədə, möminlərə xitab edən ayələr isə Mədinədə nazil olmuşdur. “Ey insanlar!” şəklində xitab edən ayələrin olduğu surələr Məkki, “Ey iman gətirənlər!” şəklində başlayan ayələri ehtiva edən surələr isə Mədənidir.

## Quranda ayə qavramı

Ayənin qavramı Quranda bir neçə şəkildə istifadə olunur:

*a)* **Sübut:** Allahın varlığını və izzətini göstərən sübut onun adı ilə çağrılır. *“Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer*

*üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində, (Allahın hikmət və qüdrətinə dəlalət edən) əlamətlər vardır". (Bəqərə, 164).*

*"Günəşi işıqlı (parlaq), ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə, ay üçün mənzillər müəyyən edən məhz Odur. Allah bunları ancaq haqq olaraq yaratdı. O, ayələrini anlayıb bilən bir tayfa üçün belə müfəssəl izah edər!". (Yunus, 5).*

*"Şübhəsiz ki, toxumu da, çəyirdəyi də cücərdib çatladan, ölüdən diri, diridən də ölü çıxardan (ölü yumurtadan diri toyuq, diri toyuqdan ölü yumurta yaradan) Allahdır. Budur Allah! Axı siz Ondan (haqq olan Allahdan) nə cür döndərilirsiniz?".*

*"Göydən su (yağış) endirən Odur. Biz onunla hər bir bitkini yetişdirdik, yaşıl fidanlar göyərtdik, onlardan bir-birinə sarmaşmış (sünbül olmuş) dənələr çıxartdıq. Biz xurma ağacından, onun tumurcuğundan bir-birinə sarmaşmış salxımlar yetişdirdik. (Biz, həmçinin) üzüm bağları, bir-birinə bənzəyən və bənzəməyən zeytun və nar yetişdirdik. (Onlardan hər birinin) bar verdiyi vaxt meyvəsinə və onun yetişməsinə baxın. Şübhəsiz ki, bunda (Allahın Öz qüdrəti ilə yaratdığı bu şeylərdə) iman gətirən bir camaat üçün (Rəbbinizin varlığını sübut edən) dəlillər vardır". (Ənam, 95, 99).*

*"Allah göydən bir yağış endirər, onunla yer üzünü öldükdən (quruduqdan) sonra dirildər. (Öyüd-nəshihətə) qulaq asanlar üçün bunda bir ibrət vardır. (Allah quru torpağa həyat verə bildiyi kimi, insanları da öləndən sonra diriltməyə qadirdir!)".*

*"Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat (asanlıqla) get! (Və ya: "Rəbbinin yollarını itaətlə tut!") (O arıların) qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli (ağ, sarı, qırmızı) bal çıxar. Şübhəsiz ki, bunda düşünüb dərk edənlər üçün bir ibrət vardır!". (Nəhl, 65, 69).*

*“Yeri (insanların və başqa canlıların yaşaya bilməsi üçün) döşəyən (uzadıb genəldən), orada möhkəm dağlar, çaylar yaradan, bütün meyvələrdən (erkək-dişi, yaxud şirin-acı, turş-meyxoş və s. olmaqla) cüt-cüt yetişdirən, gecəni gündüzlə (gündüzü də gecə ilə) örtüb bürüyən Odur. Şübhəsiz ki, bunda (bütün bu deyilənlərdə) düşünən insanlar üçün (Allahın qüdrətini və vəhdaniyyətini sübut edən) neçə-neçə dəlillər vardır!”*[1].

b) **Möcüzə:** Quran Peyğəmbərlərin Allahın göndərdiyi Peyğəmbər olduğunu sübut etmək üçün göstərdikləri qeyri-adi hadisələrə də “ayə” deyir. İnsanlar, Peyğəmbər olduğunu iddia edənlərə təbiət hadisələrini keçən və yalnız ilahi qüvvə tərəfindən edilə bilən möcüzələr istəmişdilər. Peyğəmbərlər tərəfindən göstərilən bütün möcüzələr “ayə” olaraq ifadə olunur. Çünki möcüzələr, Peyğəmbərlərin öz işi deyil, Allahın gücünün əlamətləridir.

Həzrəti İsanın (ə) palçıqdan quş düzəltməsi, korun gözlərini açması, cüzam xəstəliyinə tutulanı sağaltması, ölünü diriltməsi, gizlədilmiş şeylərin yerini xəbər verməsi möcüzə - ayədir. (Ali-İmran, 49). Həzrəti İsaya (ə) göydən süfrə endirilməsi (Maidə, 114). Səmud qövmünə dəvə verilməsi (İsra, 59). Həzrəti İsanın (ə) atasız dünyaya gəlməsi (Məryəm, 21). Həzrəti Musanın (ə) əlinin ay kimi parıldaması (Taha, 22) hər biri bir ayətdir.

c) **Əlamət:** İsrail oğullarına hökmdar olaraq göndərilən Talutun bu vəzifəsinin ayəsi (əlaməti) tabutun onlara gətirilməsi idi. Burada ayə: əlamət, işarə mənasında işlədilmişdir (Bəqərə, 248).

d) **Quranın hamısı və ya bir hissəsi:** Quranın bütünü ayə olduğu kimi, hər surənin müəyyən bir hissəsi də ayələrdir. İstər Quranın bütünü, istərsə də hər bir ayəsi, insanların hamısı bir araya gəlsələr belə, bir bənzərini yaza bilməyəcəkləri bir

---

[1] *Rəd, 3.*

möcüzədir (ayə). Quranın ayə, möcüzə mənasında da istifadə edildiyini təkrar xatırlayaq. Elə isə Quran, Peyğəmbərimizin ən böyük möcüzəsi olmaqla bərabər, Allahın qüdrətinin əlaməti olan bir ayədir. Həzrət Məhəmmədin (s) haqq Peyğəmbər olduğuna dəlildir. Hər bir ayə bir ifadəni digərindən ayırdığı, hər bir Quran hissəsi onun hamısını və vəhyin möcüzə olmasını xatırlatdığı üçün ayə deyilmişdir. Quran, Həzrət Məhəmmədə (s) endirilən kitabın qeyri-insani olduğunu bildirdikdən sonra, bundan şübhə edənlərə, "haydı baxaq, bunun kimi bir kitab, ya da bunun surələrinə bənzər surələr yazıb gətirin deyə",- meydan oxuyur (Bəqərə, 23-24, Ənkəbut, 50-51, İsra, 88, Hud 13). Elə isə Onun özü, surələri, ayələri həm bir möcüzədir, həm də onları göndərən Rəbbimizin ilahi əzəmətinin, qüdrətinin əlamətləri (ayələri)dir.

## Hz. Fatimənin müqəddəs kitabı nədir?

Tarixdə yanlış anlaşılan məsələlərdən biri də, Peyğəmbərin (s) qızı Həzrət Fatimənin (s) yazdığı müqəddəs kitabdır.

Bəzi şiə rəvayətlərinə görə, bu adda bir kitab Əhli- Beyt İmamlarının yanında yerləşir.

Bəziləri Həzrət Fatimənin (s) kitabı dedikdə, şiələrin Quran xaricində başqa bir Qurana inandıqlarını şüurlu və ya şüursuz olaraq zənn etmişlər.

Həzrət Fatimənin (s) kitabı Qurani-Kərim dərəcəsində və ya Qurana rəqib bir kitab deyil.

İmam Sadiqdən (ə) nəql olunan bir hədisə görə, Həzrət Zəhranın (s) müqəddəs kitabında gələcəkdə baş verəcək hadisələr, Əməvi və Abbasi hakimlərinin adları haqqında məlumatlar yer alır. Bu müqəddəs kitabda Quran və ardıcıl hökmlər haqqında heç bir şey yoxdur.

Bəzi rəvayətlərə görə, Peyğəmbərin (s) vəfatından sonra Həzrət Fatimə (s) çox kədərlənib. O zaman Cəbrayıl onun yanına gedib-

gəlir və gələcəkdən xəbər verərək Ona təsəlli verirdi. Bu vaxt ərzində Cəbrayılın Həzrət Fatiməyə (s) anlatdığı şeylər müqəddəs kitab adı altında toplanıb qorunmuşdur[1].

**48-ci dərsin sualları**

1. Məkki və Mədəni surələr necə müəyyən olunur?
2. Quranda ayə hansı anlayışlarda işlədilmişdir?
3. Həzrət Fatimeyi-Zəhranın müqəddəs kitabı nədir?

[1] *Şiəliyə Baxış, Doktor Məhəmməd Əli Şimali, s.46-47.*

**DƏRS: 49**

# MÜCTƏHİD

Quran, Peyğəmbərimizin (s) və imamlarımızın sünnətini bəzi elmlərlə birlikdə ən yaxşı şəkildə öyrənib araşdırmış və bu yolda illərlə əmək sərf etmiş, yüksək səviyyədə ixtisaslaşmış böyük alimlərə - Müctəhid deyilir. Bir sözlə, dinimizin hökmlərini ən yaxşı şəkildə anlayıb fətva verə biləcək qabiliyyətə sahib olan alimə müctəhid deyilir. Zamanımızda yaşayan bir çox müctəhid vardır. Normal bir müsəlman dinini necə yaşayacağını detalları ilə özbaşına araşdıramayacağı üçün müctəhidə təqlid etmək məcburiyyətindədir. Yəni müctəhid - normal xalqın dini hökmləri öyrənib, ona görə davranması üçün eyni zamanda bir müraciət mənbəyidir.

## Müctəhid olmağın şərtləri

Təqlid edilən (müctəhid), bir sıra şərtlərə malik olmalıdır. Sahib olması lazım olan əsas xüsusiyyətlər aşağıdakılardır:

1- Kişi olmalı
2- Həddi-buluğa çatmış olmalı
3- Ağıllı olmalı
4- On iki imama inanmalı, şiə olmalı
5- Düzgün insan olmalı
6- Həyatda olmalı
7- Adil olmalı[1]

## Müctəhidi tanımağın yolları

Müctəhid və müctəhidlər arasında ən bilgili olanını üç yolla tanımaq mümkündür:

[1] *Tam Risalə, Ayətullah Sistani, s.6.*

a) İnsanın özünün bu barədə dəqiq məlumat alması. Məsələn: özü elm əhlindən olub müctəhidi və müctəhidlər arasında ən savadlı olanı tanımaq gücünə malik biri olması kimi.

b) Müctəhidi və müctəhidlər arasında ən bilgili olanını tanıma gücünə malik iki adil və alim şəxs, bir kimsənin müctəhid və ya müctəhidlər arasında ən bilgili olduğunu təsdiq etməlidirlər ki, bu da digər iki adil alimin onların sözlərinə qarşı çıxmaması şərtilə olur.

c) Müctəhid və müctəhidlər arasında ən bilgili olanını tanıya biləcək gücdə olan və sözləri insana inam verən bir qrup elm əhlinin deməsi[1].

## Müctəhidin fətvasına çatma yolları

Müctəhidin fətvasını əldə etməyin dörd yolu var:

1- Müctəhidin özündən eşitmək.

2- Müctəhidin fətvasını nəql edən iki adil şəxsdən eşitmək.

3- Etibarlı bir şəxsdən eşitmək.

4- Müctəhidin doğruluğuna güvənilən risalə kitabında görmək[2].

## Müctəhidin vəzifəsi nədir?

Müctəhidin vəzifələrini qısaca belə sıralaya bilərik:

1- İlahi hökmləri çıxarıb, fətva vermək.

2- Ümmətin idarə edilməsi, sülh, müharibə, barış və s.

3- Qazilik etmək, xalq arasında ilahi hökmlərin icrası.

4- Umuri Hisbiyə idarəsi, yəni yetim malının qorunması, fondlar, xüms və zəkat kimi şeyləri əsl yerlərində xərcləmək.

---

[1] *Tam Risalə, Ayətullah Sistani, s.6.*

[2] *Tam Risalə, Ayətullah Sistani, s.7.*

## Təqlid nədir?

Adamın dini vəzifələrini bir müctəhidin fətvalarına uyğun olaraq yerinə yetirməsi təqlid adlanır.

## Müqəllidin (təqlid edənin) vəzifələri

Təqlid edən bir şəxsin də bir sıra vəzifələri vardır. Onlardan bəziləri aşağıdakılardır:

1- Qeyd edilən şərtlərə malik bir müctəhidə təqlid etmək.
2- Ələm (ən elmli) müctəhidə təqlid etmək.
3- Ehtiyacı olan məsələləri öyrənmək.

**49-cu dərsin sualları**

1. Müctəhid kimlərə deyilir?
2. Müctəhid olmağın əsas şərtləri nədir?
3. Müctəhidlər arasında ən bilgilisi necə müəyyən olunur?
4. Müctəhidin vəzifəsi nədir?
5. Təqlid nədir və müqəllidin vəzifəsi nədir?

## DƏRS: 50

# AZAN VƏ İQAMƏ

**Azan**

Dörd dəfə: Allahu-Əkbər
İki dəfə: Əşhədu ən lə iləhə illəllah
İki dəfə: Əşhədu ənnə Muhəmmədən Rəsulallah
İki dəfə: Əşhədu ənnə Əliyyən vəliyullah
İki dəfə: Həyyə ələs-sələh
İki dəfə: Həyyə ələl-fəlah
İki dəfə: Həyyə əla xeyril-əməl
İki dəfə: Allahu-Əkbər
İki dəfə: La ilahə illəllah.

**İqamə**

İki dəfə: Allahu-Əkbər
İki dəfə: Əşhədu ən lə iləhə illəllah
İki dəfə: Əşhədu ənnə Muhəmmədən Rəsulallah
İki dəfə: Əşhədu ənnə Əliyyən vəliyullah
İki dəfə: Həyyə ələs-sələh
İki dəfə: Həyyə ələl-fəlah
İki dəfə: Həyyə əla xeyril-əməl
İki dəfə: Qəd qamətis-sələtu
İki dəfə: Allahu-Əkbər
Bir dəfə: La ilahə illəllah.

**Azan və iqamənin mənası**

**Allahu-Əkbər:** Uca Allah xarakterizə edilə bilməyəcək qədər böyükdür.

**Əşhədu ən lə illəhə iləllah:** Şəhadət edirəm ki, tək və şəriksiz olan Allahdan başqa ibadət edilməyə layiq bir məbud yoxdur.

**Əşhədu ənnə Muhəmmədən Rəsulallah:** Şəhadət edirəm ki Məhəmməd (s) Allah tərəfindən göndərilmiş Peyğəmbər və elçidir.

**Əşhədu ənnə Əliyyən Əmirəl-mömininin vəliyullah:** Şəhadət edirəm ki, Həzrət Əli (ə), möminlərin Əmiri və bütün məxluqat üzərində Allahın dostudur.

**Həyyə ələs-sələh:** Tələsin namaza!

**Həyyə ələl-fəlah:** Tələsin qurtuluşa!

**Həyyə əla xəyril-əməl:** Bütün işlərin ən xeyirlisi olana (namaz) tələsin!

**Qəd qamətis-sələtu:** Namaz başlamaq üzrədir.

**La ilahə illəllah:** Tək və şəriksiz olan Allahdan başqa ibadətə layiq bir məbud yoxdur.

## Nə üçün azanda Həzrət Əlinin adı zikr edilir?

Bu sualın cavabı aşağıdakı məqamlara diqqət edilərsə, aydınlaşacaq:

1- Şiə fəqihlərinin hamısı, geniş və ya qısa fiqh kitablarında, Həzrət Əlinin (ə) vilayətinə şəhadət etməyin azan və iqamənin bir parçası olmadığını açıq bir şəkildə bəyan etmiş və heç kim bu şəhadəti azan və ya iqamənin bir hissəsi kimi oxumaq hüququna malik olmadığını dilə gətirmişlər.

2- Həzrət Əli (ə) Quran baxımından Allahın dostlarından biri sayılır və bu ayədə möminlər üzərindəki vilayəti açıqca bəyan edilmişdir: *“Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat verirlər”*[1].

---

[1] *Maidə, 55.*

Əhli sünnənin səhih və müsnəd kitablarında yer alan rəvayətlər, bu ayənin rüku halında üzüyü yoxsula bağışlayan Əli (ə) haqqında nazil olduğunu açıq bəyan edir[1].

3- Rəsuli Əkrəm (s) belə buyurmuşdur: "Əməllər niyyət ilədir. Yəni əməllərin həqiqət və mahiyyətini insanın niyyəti müəyyən edir. Buna görə İmam Əlinin (ə) vilayəti, Quranın açıq bəyan buyurduğu həqiqətlərdən biri olduqdan, digər tərəfdən sözügedən cümlə, azanın bir hissəsi olduğu niyyətilə deyilmədikdən sonra, bu həqiqəti Peyğəmbərin (s) şəriətinə şahidlik etməsini dilə gətirilməsinin nə maneçiliyi ola bilər[2]?

**50-ci dərsin sualları**

1. Azanla iqamə arasındakı fərq nədir?
2. Azanda nə üçün Həzrət Əlinin adı zikr edilir?

---

[1] *Bu ayənin bu barədə nazil olduğu haqqında yüzlərlə mənbə var. Onlardan bəziləri: Təfsir Təbəri, c,6, s,186. Əd-dürrul-Mənsur, c.2, s.293.*
[2] *Cavab veririk, s.127-135, Sual: 24.*

## DƏRS: 51

# HƏDİS NƏDİR?

Hədis, alimlərin təsvirində belədir: Peyğəmbərin (s) və məsum imamların (ə) əməl və sorğu ifadə edən sözə deyilir. Hədis, bəzən "xəbər", bəzən də "rəvayət" olaraq təbir edilir. Hədis, məsuma nisbət verildiyi və tərkibinin də vəhyə əsaslanması baxımından dəlildir və qeydiyyatın vəzifəsini təyin etməkdə də ölçüdür.

Qurani-Kərim İslamın konstitusiyası mövqeyində olması səbəbiylə, ümumiyyətlə ilahi qanunları ana xətləri ilə açıqlamışdır. Bu qanunların detallarını və təfsilatını açıqlamağı isə hadisələrə buraxmışdır. Beləliklə, hədis, Qurani-Kərimdən sonra dinin ən mühüm mənbəyi kimi qəbul edilmişdir.

Bu elm çox yüksək bir dəyərə malik olduğu üçün müsəlmanlar bu elm sahəsinə çox əhəmiyyət vermiş, hədis elmini öyrənmək səyi içində olmuş və kitablar yazmışlar. Böyük İslam alimləri müsəlmanların yoluna işıq tutan hədisləri mövqelərə ayırmış və bir məcmuə halında istifadəyə vermişdilər. Yalnız bu elm göründüyü qədər asan bir elm sahəsi deyil. Uzun səylər və cəhdlər istəyən, diqqət tələb edən həssas bir sahədir.

Hədis elmindən sonra bu elmlə əlaqədar olaraq kamil elmi, hədis tarixi, hədis anlayışları, hədis, fiqh və s. bir çox elmlər çıxmış və hədisin daha da yaxşı başa düşülməsi üçün yol göstərici elmlər olmuşlar.

Müxtəlif mövzularda yazılan minlərlə hədis onu göstərir ki, müsəlmanlar başlanğıcdan günümüzə Qurani-Kərimdən sonra ən çox bu elm sahəsinə əhəmiyyət vermişlər. Günümüzdə hədis mütəxəssisləri bu mədəniyyət irsinə yeni bir nəzərlə yanaşmış və bu böyük mədəniyyət mənbəyindən daha geniş istifadə etmək üçün ciddi işlər görmüşlər. Bir çox mədəniyyət evi, hədis mərkəzi və elm təşkilatları təsis edilərək bu elm sahəsində çox mühüm addımlar atılmışdır.

## Hədis neçə hissədən ibarətdir?

Hədis, iki hissədən ibarətdir:

a) Hədisin mətni: Məsumların (ə) sözləridir.

b) Hədisin sənədi: Məqsəd, hədisi məsumlardan nəql edən rəvayətlər zənciridir. Qarşı tərəfin hədisin mətninə olan etimadını təmin etdiyindən “Sənəd” - deyə təbir edilir.

## Hədis yazılmağa nə vaxtdan başlanmışdır?

İslamın başlanğıcından etibarən müsəlmanlar Hz. Peyğəmbərin yanına (s) gəlib rəvayətlərini eşitməyən şəxslər üçün hədisləri yazıb nəql etməyə başlayıblar.

Abdullah b. Əmr, Səmurə b. Cundəb, Sad b. Ubeydə, Cabir b. Abdullah Ənsari kimi səhabələr hədisləri “Səhifə” adı altında bir araya toplamışdılar.

Məşhur bir hədisə görə Abdullah b. Əmr Peyğəmbərdən eşitdiyi hər şeyi yazırdı. Qüreyşlilər onu Peyğəmbərdən digər insanlar kimi sevgi və qəzəbli olduğunu iddia edərək bu işdən uzaqlaşdırdılar. Günlərin birində Abdullah b. Əmr hadisəni Peyğəmbərə (s) açdı, Peyğəmbər öz ağzını işarə edərək belə buyurdu:

**Yaz! Canım əlində olan Allaha and olsun ki, haqqın xaricində bir şey buradan çıxmamışdır**[1].

Əhməd b. Hənbəl Əbu Hüreyrədən belə nəql edir: Peyğəmbər Əbu Şah adında biri üçün əshabına dediklərini yazmasını istədi[2].

## Hədisin növləri

**1- Səhih hədis:** Hədisin bütün sənədi zəncirvari olaraq məsuma əsaslanarsa hədis - səhih hədis adlanır. İkinci olaraq adları hədis mətnində keçən bütün ravilər (hədis rəvayətçiləri) etibarlı və 12 imama inanan şiə olmalıdırlar.

Səhih hədis hədislər arasında ən mötəbər dərəcəyə malikdir, qeyd edilən iki şərtdən biri azaldığı təqdirdə etibarı da o ölçüdə

[1] *Sünəni Darəmi, Müqəddimə, s.484-486.*
[2] *Səhih Buxari, Elm babı, h.109.*

azalır. Bu səbəbdən bütün İslam alimləri səhih hədisin dəlil və qəti dəlil olmasını ittifaqla qəbul etmişlər.

**2- Həsən hədisi:** Səhih hədisdə olması lazım olan iki mühüm şərtə sahib olan hədislərə Həsən hədis deyilir. Yalnız bu fərqi var ki, ravilər zəncirvari bir ya da daha çox ravilərin etibarlı olduqları açıqca bildirilmişdir. Və yalnız onların mətni və təriflədikləri bizlərə gəlib çatmışdır. Bu baxımdan etibarlı və dəlil olma sıralamasında Səhih hədislərdən sonra yer alır.

**3- Rəvayət hədis:** On iki imamçı olmayan, ancaq raviləri etibarlı və hədis mətni də məsumə əsaslanan hədislərə deyilir. On iki imama inanma şərtinin xaricində yuxarıda hədis üçün qeyd olunan iki əsas şərt bu hədis növü üçün də etibarlıdır. Rəvayət hədis etibar və dərəcə baxımından Səhih və Həsən hədislərindən sonra gəlir.

**4- Zəif hədis**: Zəif hədis, yuxarıda üç hədis növünün yəni Səhih, Həsən və Rəvayət hədislərin daşıdığı xüsusiyyətlərə malik olmayan hədislərə deyilir. Bir başqa sözlə Sənəd zənciri məsuma əsaslanmayan və ya ravilərin vəziyyəti qeyri-müəyyən, fasiq və yalançı olan hədislər Zəif hədis adlanır.

Bütün hədis alimləri (hədis mütəxəssisləri) Zəif hədisi etibarsız saymış və məzmununa etibar edilməyəcək xarakterdə olduğunu bildirmişlər. Zəif hədis öz arasında Məktu, Mərfu, Mürsəl və Məcul və s. kimi bir çox hissələrə ayrılmışdır. Bu təsnifatların ümumi hədis elmində Zəif hədisə aid olub Zəif hədis başlığı altında tədqiq edilir.

**51-ci dərsin sualları**

1. Hədis nədir və nə zaman hədis yazılmağa başlanmışdır?
2. Hədis növlərini qeyd edin
3. Səhih və Rəvayət hədislər necə hədislərdir?

## DƏRS: 52

# HƏDİSİN NÖVLƏRİ

### Qüdsi hədis nədir?

Qüdsi hədisdə məna ya yuxuda, ya da ilham vasitəsilə Peyğəmbərə (s) təlqin edilən ancaq sözləri və ləfzi Peyğəmbərin (s) dilindən bəyan edilən hədislərə deyilir. Qüdsi hədisin Qurani-Kərimlə heç bir fərqi yoxdur. Ancaq təkcə məna Allaha nisbət verilir, möcüzəvi xüsusiyyət kəsb etməz və namazda da qiraət edilməz. Bundan başqa eyni Quran ayələri kimidir.

### Qüdsi hədislə Peyğəmbər hədisi arasındakı fərq

Qüdsi hədis ilə Peyğəmbər hədisi arasında da fərq vardır: Peyğəmbər hədisi Allahın Peyğəmbərindən (s) rəvayət edilən hədislərdir. Amma qüdsi hədislər Allahın sözlərini ifadə edir. Peyğəmbər hədisləri şiə və sünni məzhəblərinin rəvayətlərinin ümumi və əsas mötəbər hissəsini təşkil edir. Bu hədisləri ya Peyğəmbər (s) Əhli-Beyti (ə) və ya Peyğəmbər (s) səhabələri ediblər.

### Cəli (uydurma) hədis nədir?

Hədis uydurma və günahsıza yalan bir söz isnad etmə, inadkar düşmənlər və xəstə qəlbli insanlar tərəfindən Peyğəmbərin həyatı (s) dövründən etibarən hədisləri təhdid edən böyük bir müsibətdi. Həzrəti Əli (ə) bir hədisdə belə buyurmuşdur: "Peyğəmbərin (s) həyatı dövründə Allahın Peyğəmbərinə (s) o qədər yalan sözlər isnad etdilər ki, bunun üzərinə Allah Rəsulu (s) belə buyurdu: Ey insanlar! Mənə yalan söz nisbət edənlərin sayı çoxalmışdır, kim

qəsdən mənə yalan nisbətində olsa, cəhənnəm odunda yerini hazırlamalıdır[1].

Uydurma hədis vərdişi Peyğəmbərdən (s) sonra da müxtəlif məqsədlərlə davam etdi.

O məqsədlərdən iki mühüm faktora belə işarə etmək olar:

1- Əməvi və Abbasilər hökumətlərinin dövründə Peyğəmbər xanədanına göstərdikləri düşmənçilikdən dolayı bəzi xəlifələrin fəzilətləri haqqında uydurulan saxta hədislər.

2- Öz əqidələrini isbat edib digər firqələrin əqidələrini inkar edən şəri və etiqadı bəzi firqələrin meydana gəlməsi. Bu firqələr öz inanclarını yaymaq məqsədilə bəzən hədislər uydururdular.

Bu batil inancın davamı və saxta hədislərin yayılması hədis üçün bir sıra qaydaların qoyulmasını labüd qıldı və bunun ardınca Kamil və Dirayətul-Hədis elmlərinin ortaya çıxmasını təmin etdi.

## Əl-Hədis və Vahid Xəbəri

**Əl-Hədis** - ravi sayı hər hədis təbəqəsində o qədər çox olmalı ki, normalda bu ravilərin hər hansı bir xəbəri (hədisi) uydurmaları mövzusunda ittifaq etmələri qeyri-mümkün olsun və ya nəql etdikləri hədisin həqiqətən sadir olmasını isbat edəcək xarakterli xəbərə əl-Hədis deyilir. Belə hədislərin sayı olduqca azdır, ancaq hədisin həqiqət və höccət olduğunu sübut edir.

**Vahid Xəbər -** ravi sayı hər hədis qatında və ya hər hansı bir təbəqədən tövhədən az olan hədislərdir. Vahid xəbər vermir və yalnız hədis hədisi qəbul edilərsə, höccət sayılır.

[1] *Hisalu Səduq, s225.*

## Fiqhul-Hədisin məqsədi nədir?

Hədis elminin ən mühüm vəzifəsi rəvayətin mövzusunu araşdırmaqdır (işarə edilən mənanı) ki, buna "Fiqhul hədis" deyilir. Fiqhul-hədisi bu baxımdan Qurani-Kərimin təfsiri kimi qiymətləndirə bilərik. Ulumul-Quran (Quran elmləri) ayələrin mənasını anlamaq üçün bir müqəddimə və ön girişdirsə hədisin tarixi və s. hədis elmləri də rəvayətlərin mahiyyətlərini daha dərin və yaxşı qavramaq üçün bir müqəddimədir. Rəvayətlər Allahı, varlıqları, insanları, liderləri və s. mövzuları tanımada ən dərin məlumatları daşıdığından bu maarifləri necə əldə edilə biləcəyi mövzusunda Fiqhul-hədis elmində araşdıran bir sıra qaydalara riayət etməyə ehtiyac var.

## Qaribul hədislərdə məqsəd nədir?

Qurani Kərim və eyni şəkildə, Peyğəmbər (s) və Əhli-Beyt imamlarının (ə) hədislərində bəzi sözlər vardır ki, o sözlərin mənası o zaman insanlar üçün məlum idi. Ancaq sonrakı dövrlərdə dil və mədəniyyətlərin ciddi mənada dəyişikliklərə uğradığı da qətidir. Dillərin məruz qaldığı dəyişiklikdən sonra o sözlərin mənalarını dərk etmək sonrakı nəsillər üçün çətinləşməyə başladı, hətta bəzi sözlər tamamilə xarici bir sözə çevrildi. Qaribul elmin məqsədi, kökləri və keçmişi çox qədimlərə söykənən və idrakı dinləyicilər üçün olduqca çətin olan bu sözlərin mənalarını işıqlandırmaqdır. Qaribul hədis yazıları ilə sözlük və lüğət kitabları arasında böyük oxşarlıqlar vardır. Yalnız Qaribul elmin əhatə sahəsi lüğətlərə nisbətən dardır. Çünki bu elm yalnız hədislərdə keçən lüğətləri araşdırıb sözlərdəki düyünü aradan qaldırmağa çalışır. İbn Əsirin (ö.606) yazdığı Ən-Nihayə adlı kitabı bu sahədə onun ən irihəcmli əsəridir. Fəhruddin Tureyhinin qələmə aldığı (ö.1085) Məcməul-Bəhreyn isə şiələrin ən əhatəli Qaribul-hədis

kitablarındandır ki, bu əsərdə Qurani-Kərimdəki qəribə sözlər haqqında da məlumatlar təqdim olunmuşdur. Buna görə də yazıçı kitabına “iki dənizin birləşdiyi yer" mənasına gələn Məcməul-Bəhreyn adını vermişdir.

**52-ci dərsin sualları**

1. Qüdsi və cəli hədis nədir?
2. Qüdsi hədislə Nəbəvi hədis arasındakı fərq nədir?
3. Mütəvatir və Vahid xəbəri izah edin?
4. Fiqhul-hədisdən məqsəd nədir?
5. Qaribul-hədisdən məqsəd nədir?

## DƏRS: 53

# BƏZİ ANLAYIŞLAR

## İlaciyə xəbərlər hansı xəbərlərə deyilir?

Məsum Əhli-beyt imamlarının (ə) hamısı həqiqət olaraq bir nurdur. Bu qaydaya görə də sözlərində hər hansı bir ziddiyyət olmamalıdır. Görünüşdə bir-biri ilə zidd olan bəzi hədislərin varlığı hədis alimlərini bu münaqişələrin mənbəyini araşdırmağa və ziddiyyətli kimi görünən bu hədislərin arasını birləşdirməyə və ziddiyyətlərini aradan qaldırmağa sövq etmişdir. Bu üzdən hədis elmi araşdırmasında ən vacib məsələlərdən biri də bu münaqişələrin və ziddiyyətlərin haradan qaynaqlandığını araşdırıb tapmaq və bunu həll etmək olmuşdur. Hədislərin uyğunsuzluğu və bəzi hədislərin ayələrlə ziddiyyət təşkil etməsi, hədis elminin modern edildiyi ilk zamanlara qayıdır. Bu səbəbdən Əhli-Beyt imamlarının, (ə) səhabələrinin və tələbələrinin hədislərin zahirində ziddiyyətləri və ixtilafları aradan qaldırmasının həllini öyrənmək üçün imamlara (ə) suallar verirdilər. İmamlar isə (ə) cavabında, bu problemin aradan qaldırılması üçün onlara bir sıra meyarlar və qaydalar da öyrədirdi. Zahirləri bir-biri ilə ziddiyyətli kimi görünən maneələri həll etmək üçün Əhli Beyt imamlarından (ə) təlimləri və ölçüləri əhatə edən rəvayətlər məcmuəsinə İlaciyə xəbərləri deyilir.

## Müsnəd nədir?

Müsnəd, hədisləri sənədlər əsasında yazılan hədis kitablarına deyilir. Nümunə olaraq Cabir b. Abdullah Ənsarinin Peyğəmbərdən nəql etdiyi rəvayətlərin hamısı müstəqil bir hissədə yer alıb. Bəzi müsnəd kitabları səhabələr tərəfindən əlifba sırasına görə tərtib edilmiş, bəziləri isə səhabələrinin rəhbəri və İslamdakı keçmişi göz

önünə alınaraq yazılmışdır. Belə ki, bəzi müsnədlərdə yalnız bir ravinin nəql etdiyi hədislər gəlmişdir. Məsələn: Əli b. Əbu Talibin (ə) bu sahədə yazılan ən məşhur kitabı Əhməd b. Sadiqin qələmə aldığı Müsnəddir.

## Nəva nədir?

Nəva - məzmun baxımından dağınıq olduğuna görə, hədis kitablarında heç bir babın əhatə sahəsinə daxil olmayan hədislərə deyilir. Bu hədislər, ümumiyyətlə, hədis kitablarının bablarının sonunda Nəva təxəllüsü ilə yer alırlar. Bəzən Nəvadirdən məqsəd bir hədisin mötəbər ravisi məşhur rəvayətlərin əksinə, hədisi başqa sənədlərdən nəql edir. Bəzən də Nəvadirdən məqsəd az nəql edilən və məzmununa az əməl edilən hədislərdir. Bəzi hədis alimləri bu cür hədisləri toplayaraq Nəva adı altında kitablara müəlliflik etmişlər. Fəzl b. Əli Ravəntinin qələmə aldığı ən-nəvadir və Məhəmməd Möhsün Feyzi Kaşanın yazdığı Nəvadirul-Əxbar bunun nümunələridir.

## Emali nədir?

Emali - ustadlar tərəfindən elmi mühazirələrdə şifahi olaraq nəql edilən və tələbələr tərəfindən qələmə alınan kitablara verilən addır. Kitabın mövzusu hədislər və ya hadislərlə əlaqəli olduğu üçün dərs kitablarına görə təşkil edilib.

Onlara “Məcalis” adı da verilmişdir. Beləliklə, böyük bir hədis məcmuəsi hazırlanmışdır ki, bu da hədis mirasının böyük bir hissəsini təşkil edir. Buna misal olaraq, Şeyx Səduq, Şeyx Müfid və Şeyx Tusinin emaliləri hazırlanıb və oxuculara təqdim edilməsini göstərmək olar.

## Məlahim nədir?

Məlahim - ərəbcədə "Məlhəm" sözündən götürülüb, tarixi və böyük hadisələr deməkdir. Müharibələr, axır zaman fitnələri, liderlərin doğuşu, dövlətlərin dəyişməsi və Həzrəti Mehdinin (ə)

zühur əlamətləri haqqında baş verəcəklərini bildirən hadisələrə "Məlahim xəbərləri" deyilir. Bəzi alimlər bu hədisləri və xəbərləri ayrı-ayrı müəlliflik hüququ ilə toplayıblar. Məsələn: İbn Hammadın (ö.228) yazdığı "Fitən" və Seyyid b. Tavusun qələmə aldığı əl-Məlahimu Vəl Fitən adlı əsərlərini göstərə bilərik.

## Ülumul hədis nədir?

Hədisin bu iki əsas ünsürü barədə məlumatları ehtiva edən elm məcmuəsinə "Ülumul-hədis" deyilir. Şiə alimləri arasında dörd əsas elm, hədis elminin dairəsində olmuşdur və onların bəzilərinin qolları da var. Bu dörd elm bunlardır:

1- **Hədis tarixi:** Ülumul-hədisin bu qolu ümumiyyətlə, çox köhnə tarixə malik deyildir. Bu mövzuyla əlaqəli müəlliflər yaşadığımız əsrdə yazmağa başlamışdır. Bu elmdə, hədisin sudur əsrindən (Peyğəmbərin dövründən) modern, hədis nəqli, hədis məcmuələrinin müəlliflik edildiyi və hədis məktəblərinin müxtəlif dövrlərdəki keçmişi təhlil olunur.

2- **Dirayə və islahatlar:** Bu elm üzrə ravilərin şərtləri, sənəd və mətnin Ülumul-hədisdə bu şərtlər lazımlılığı baxımından hədis növləri və eyni şəkildə hədisi doğru öyrənmək (hədisi daşıma) və hədisi nəql etmə kimi məsələlər təhlil olunur.

3- **Rical:** Hədisin sənədində adları çəkilən ravilərin tanınması deməkdir. Bunların cəmi isə rəvayətin sənədini yaradır. Kamil elmində təqdim olunan məlumatlara görə, hədisin növü dirayə elm qanunlarına görə tanıdılar və o hədisin etibar dərəcəsi müəyyən olunur.

4- **Fiqhul-hədis:** Bu elm budağının mövzusu hədisin mətnidir. Doğru qəbul etmə qaydaları və hədislərdən çıxarılan və istifadə edilən nəticə Fiqhul-hədis elmində araşdırılır. Bəzən, bu elm sahəsi Dirayə elmində bir hədisin etibar aktlarına görə o hədisin ünvanını müəyyən edir və hədisin mətn baxımından etibarlılığını göstərir.

**53-cü dərsin sualları**

1. İlaciyə xəbər necə bir xəbərdir?
2. Müsnəd və Nəva nədir?
3. Emali və Məlahimdən məqsəd nədir?
4. Ülumul-hədis nədir?

## DƏRS: 54

# ELMİ ANLAYIŞLAR

## Dirayə elmi

Bu elm üçün çox sayda təriflər edilmişdir. Ancaq hədis alimlərinin böyük əksəriyyəti ən əhatəli və qısaca olaraq bu tərifi qəbul etmişlərdir: **"Hədisin mətnini və sənədini, necə öyrəniləcəyini, hədisin necəliyini (daşınması və təqdim edilməsi) və hədisin nəqli qaydasından bəhs edilən elm sahəsinə deyilir".**

Bu elmin əsas qayəsi səhih hədisləri səhv hədislərdən ayırd etməkdir. Bu elmin keçmişi alimlərin, müctəhidlərin və hədis mütəxəssislərinin doğulduğu ilk əsrlərə söykənir. Onlar müxtəlif yerlərdə üsul, fiqh və hədis məsələlərində aktlarından və anlayışlarından istifadə etmişlər. Ancaq bu məsələ haqqında ilk müstəqil müəlliflik çalışma dördüncü əsrdə sünnü alimləri tərəfindən həyata keçirilmiş və Kadı Həsən Ramhormuzi (ö.360) əl-Muhəddisul-Fəsil Beynər-Ravi Vəd-Dai adlı əsəri yazdı. Şiə yazıçılarından isə ilk olaraq Şəhid Sani (ö.965) Əd-Dirayə və onun şərhi olan ər-Riayətu Fi İlmid-Dirayə adlı əsərini qələmə alıb. Bu barədə şiə alimlərinin əhli-sünnə alimlərindən müəlliflər sonra, qələmə almasının səbəbi səkkizinci əsrə qədər hədislər haqqındakı mövcud fərziyə və əlamətlərin olmasına görə hədislərin etibar qazanması həqiqət idi. Belə ki, qədim hədis alimləri hicri dördüncü əsrin yarısına qədər məsum Əhli-Beyt imamları (ə) və onların səhabələri ilə olan əlaqələrinə görə hədisin sudur səbəbinin istifadə etməsinə müxtəlif yollarla çatmaq imkanına malikdilər. Bir neçə əsr sonra da Əhli- Beyt (ə) imamlarının səhabələrinin təsdiq edilən yazıları onlar üçün əlçatan idi. Buna görə də, sonrakı əsrlərə qədər bu elmə çox ehtiyac hiss etmədikləri üçün, məsələ ilə bağlı yazıları da qələmə almayıblar. Əlbəttə, şiələr arasında istifadə edilən bəzi hədis

terminlərinin çox keçmişə söykənən bir tarixi vardır. Bildirməkdə fayda var ki, son dövrlərdə bu elm alimlərin dilində “Terminlər” olaraq ifadə edilib. Bu təbir münaqişəsinin səbəbi isə bu təbirin bu elm budağının məzmunu olan Tənasubu və Dirayə anlayışının Fiqhul-hədis elmi ilə olan nisbətindən qaynaqlanmasıdır. Yenə xatırlatmaqda fayda var ki "Dirayə" anlayışı əhli sünnə alimlərinə görə daha geniş bir dairəyə malikdir. Onlara görə, Rical, Cərh və Tadil Fiqhul-hədis və Terminlər elmləri də Hədis elminin tərkib hissələrindən sayılır.

## Rical elmi

Rical elmi hədis rəvayətçilərinin vəziyyətlərini, tərcümeyi-hallarını, onların hədislərinə etimad ölçüsünə görə tədqiq edən elmdir. Ravilərin kimliklərinin tanınması və yenə onlara olan etimad dərəcəsinin müəyyənləşdirilməsi bu elm bölməsinin məhz hədəfidir. Raviləri tanımada ata adı, nəsil, ləqəb, məzhəb və ravi təbəqəsi, eyni adı daşıyan sənədlərin bir-birindən ayırd ediləcək dərəcədə tanınmaları və yenə sənədlərin verdikləri qabarıq digər adlarının bilinməsi bu elm sahəsində rical alimlərinin diqqət etdikləri əsas məsələlərdəndir. Rical elminin Dirayə elmi ilə olan əlaqəsi belədir ki, şəxsin müəyyənləşdirilməsi və ravinin etibarlılıq dərəcəsinin rəvayət sənədində dəqiq bilinməsi hədis növünün müəyyənləşdirilməsinə də yardımçı olacaqdır və ona görə də rəvayətin hökmü də aydınlaşacaqdır. Şiələrə görə bu elmin keçmişi imam Əlinin (ə) təlimlərinə dayanır ki, o Həzrət şəriətin ravilərini yalan və səhvlərindən təhlükəsizlikdə olması və qorunması üçün insanları hədisin mətninə diqqət etməyə və ravilərin vəziyyətlərinə diqqət etməyə təşviq edirdi. Lakin, əhli-sünnə hicri birinci əsrin ikinci yarısında fitnələr başladıqdan sonra, ravilərin tərcümeyi-hallarını və keçmişlərini araşdırmağa başlayıb.

# Hədis və irfan əlaqəsi

İrfan və Təsəvvüf əhli də digər müsəlman alimlər kimi hədisə əhəmiyyət verirdilər və onların yazıları hədislərlə doludur. Əlbəttə, onlardan bəzilərinin hədisini şərh və qəbulu haqqındakı görüşləri və hədisləri dəyərləndirmədə meyarları hədis alimlərilə fərqlidir. Həqiqət budur ki, kəşf və şühud irfan və təsəvvüfün ən mühüm vasitələri olsa da, ancaq, onların əsərləri və məqalələri Peyğəmbərin (s) hədisləri ilə doludur. Bu hədislər ümumi olaraq iki hissəyə ayrılmışdır: Birinci hissə şiə və əhli-sünnənin mötəbər hədis qaynaqlarında da yer alan rəvayət. İkinci qisim isə müəyyən hədis qaynağı olmayan rəvayətlər. İrfan və təsəvvüf əhlinin hədislərinin böyük hissəsi ikinci hissədəki növdən, yəni, müəyyən dayağı və mənbəyi olmayan hədislərdir.

Bəzi sufi müəlliflərin də hədis sahəsində müstəqil kitabları, risalələri vardır ki, onlardan ən əhəmiyyətlisi üçüncü əsr ariflərindən Həkim Tirmizinin qələmə aldığı Nəvadirul-Usul kitabıdır. Əhli-sünnə ariflərinin mətnlərində Əl-miləlu Fit-Tasavvuf, Sirac Tusinin Kuvvətul-Kulub, Əbu Talib Məkkinin İhyaul-ulum, Qəzalinin Mənazilus-Satirin, Hacə Abdullah Ənsarinin Muhyiddin Ərəbinin kitabları və s.

Şiə ariflərindən isə Seyid Heydər Amuli və xüsusən də son üç-dörd əsrdə Mirzə Cavad Məliki Təbrizinin əsərlərində qeydə dəyər dərəcədə hədislər vardır.

Bir mühüm məqam da budur ki, təsəvvüf və irfan əhlinin rəvayətlərində ən çox üzərində dayandıqları məsələ əxlaqi məsələlərdir. Və bunun səbəbi isə irfan və əxlaqın bir-birlərinə yaxın olmasından irəli gəlir.

## Hədis qaynaqlarının mucəmləri

Əlifba sırasına görə, hədislərin tədris planını və sözlərini ehtiva edən kitablara "Mucəm" deyilir. İndiyə qədər hədis kitabları üçün çox sayda söz - mucəm modern edilmişdir ki, onlardan bəziləri bunlardır:

1- Əl-mucəmul Mufəhrəs Liəlfazi Əhadisil kutubil-Ərbəə, Biharul-Ənvar, Vesailus-Şiə, Mustədrəkul-Vəsail, Əli Rza Bərazis nəzarəti altında.

2- Əl-mucəmul Mufəhrəs Liəlfazi Əhadisi Biharul-Ənvar, İslami Araşdırmalar Mərkəzi, İslam Təbliğat Bürosu yoxlamasında.

## Ərbəamiyə (Dörd Yüz) üsulu nədir?

Əhli-Beytin (ə) bir qrup səhabələri Həzrət Əli (ə) dövründən imam Həsən Əsgəri (ə) dövrünə qədər xüsusən də imam Baqir (ə) və imam Sadiq (ə) dövrlərində Əhli- Beytdən (ə) nəql edilən hədisləri toplayaraq bir məcmuə halına gətirdilər.

Sonralar toplanan bu hədis məcmuəsinə "Əsil" adı verilib. Bu Əslin sayı dörd yüzə qədərdir. Məhz buna görə o üsula termində "Üsulu Ərbəamiyə" (Dörd yüz əsl) deyilir. Daha sonralar bu hədis məcmuəsi şiənin Kutubu Ərbəəsinin (Dörd böyük mənbə) müasirləşdirilməsində əsas mənbə olaraq seçilib. Əhli-Beyt imamlarının (ə) sözlərini nəql etmək və başqa hədis mənbələrindən sitat gətirməmək, rəvayətlərin hədis alimlərə görə maksimum dərəcədə mötəbər olması və s. kimi xüsusiyyətlər Üsulu-Ərbəamiyənin xüsusiyyətlərindən yalnız bir neçəsidir.

## Ravilərdə axtarılan şərtlər

Alimlər və hədisçilər ravilər üçün bir sıra şərtləri lazımi biliblər ki, onlardan da bəziləri bunlardır:

1- İslam
2- İman
3- Həddi-buluğ
4- Ağıl
5- Ədalət
6- Etibarlılıq
7- Hədis
8- Hədis sənədində və qeydiyyatında diqqət

**54-cü dərsin sualları**

1. Dirayə elmi nədir?
2. Rical elmi nədir?
3. Hədis ilə irfan əlaqəsini izah edin
4. Hədis qaynaqlarının mucəmlərini izah edin
5. Ərbəamiyə (dörd yüz) üsulu nədir?
6. Ravilərdə hansı şərtlər olmalıdır?

**DƏRS: 55**

# HƏDİS ELMİ İLƏ ƏLAQƏLİ ANLAYIŞLAR

## İcma səhabələri kimlərdir?

Əhli-Beyt imamlarının (ə) səhabələrindən bəziləri Əhli-Beyt (ə) ilə tez-tez görüşüb rahatlıqlarından istifadə etmələrindən, o, Həzrətdən (ə) çox sayda hədis nəql etmələrindən, sahib olduqları ədalətdən, Əhli-Beytin (ə) təriflərini əldə etdiklərindən və daha bir çox səbəbə görə elə uca məqamlar qazanıblar ki, şiə alimləri və hədis rəvayətçiləri ittifaqla onlardan, ağızlarından nəql edilən hədisləri etibarlı saymış və qəbul etmişlər. Bu etibarlı və Əhli-Beytin tərifini qazanmış uca əshablara "İcma səhabələri" deyilib. O uca şəxslər aşağıdakılardır:

1- Zürarə ibn Əyan
2- Maruf ibn Harbuzi
3- Yezid ibn Muaviyə Acəli
4- Əbu Bəsir Əsədi (və ya Əbu Bəsir Muradi)
5- Fudayl ibn Yəsar
6- Məhəmməd ibn Müsəlman Tai
7- Cəmil ibn Dərrac
8- Abdullah ibn Miskan
9- Abdullah ibn Bukeyr
10- Hammad ibn Osman
11- Hammad ibn İsa
12- Eban ibn Osman
13- Yunis ibn Əbdürrəhman
14- Səfvan ibn Yəhya Saberi
15- Məhəmməd ibn Əbi Ümeyr
16- Abdullah b. Muğayrə
17- Həsən b. Məhbub
18- Əhməd b. Məhəmməd b. Əbi Nəsr Bəzənti

Bunlardan altı nəfəri imam Məhəmməd Baqir (ə) və imam Cəfər Sadiqin (ə) səhabələrindən, ikinci altı nəfəri imam Sadiqin (ə) səhabələrindən və son altı nəfəri imam Museyi Kazım (ə) və imam Rzanın (ə) səhabələrindəndir.

## Kutubi-Ərbəədə (dörd kitab) məqsəd nədir?

Kutubi-Ərbəə və ya "Üsulu-Ərbəə" şiənin dörd mühüm hədis kitablarına verilən addır. Bu kitablar sonradan gələn alimlərin dilində "Əvvəlki alimlərin hədis ələmləri" adı ilə xatırlanmışdır. Şiənin dörd mühüm hədis mənbələri aşağıdakılardır:

1- Əl-Kafi — müəllifi Əllamə Kuleyni; (ö. 329)
2- Mən la yəhzuruhul-fəqih — müəllifi Şeyx Səduq; (ö. 381)
3- Təhzibul-Əhkam — müəllifi Şeyx Tusi; (ö. 460)
4- Əl-İstibsar — müəllifi Şeyx Tusi. (ö. 460)

Bu mənbələrin müəlliflərinin yaşadıqları dövrün Əhli-Beyt imamlarının (ə) dövrünə yaxın olması, elm karyeralarının və hədis elminə olan hakimiyyətlərinin etibarı, yazılan əsərlərin təsnifləndirildiyi bu kitabları digər hədis mənbələrindən daha mümtaz və mötəbər etmişdir.

## Cəvamii sanəviyə nədir?

Cəvamii Sanəviyə və ya Mütəahhir Hədis aşağıda adları çəkilən üç hədis qaynağına verilən addır.

1- Əl-Kafi, müəllif: Məhəmməd Muhsin Feyzi Kaşani (D.1091)
2- Vəsailuş-Şiə, müəllif: Məhəmməd b. Həsən Hürr Amil (D.1104)
3- Biharul-Ənvar, müəllif: Məhəmməd Baqir b. Məhəmməd Təqi Məclisi (D.1111)

Bu üç hədis kitabı da bir neçə hədis kitabı məcmuəsindən toplanmışdır və bu səbəbdən də bu xüsusiyyətində tərəfdaşdırlar.

**Əl-Kafi;** Əl-Kutubi Ərbəənin (Dörd qaynaq kitabı) rəvayətlərindən ibarətdir. Müəllif, təkrar edilmiş hədisləri çıxarmış və açıqlamaya ehtiyac duyulan hədisləri ancaq faydalı bir bəyanla ifadə etmişdir. İndiyə qədər bu əsərin 28 cildi çap edilmişdir.

**Vəsailuş-Şiə;** Fiqhlə bağlı hədisləri özündə ehtiva etmişdir. Bu əsərə Kutubi-Ərbəə mənbələrində gələn hədislərlə yanaşı, digər hədis kitablarından alınan rəvayətlər də əlavə edilmişdir.

Müəllif, uyğun gördüyü bəzi hədisləri açıqlamışdır. Bu dəyərli əsər son düzəldilmiş halı ilə 30 cilddə çap edilmişdir.

**Biharul-Ənvar**; Şiənin ən geniş və ən böyük hədis mənbəyi sayılan bu dəyərli əsər onlarla hədis kitablarından ibarət bir şah əsərdir. Müəllifi kitabın başında Bəyan başlığı altında bir çox hədisi aydınlaşdırıcı şərhi ilə işıqlandırmışdır. Bu ensiklopediya xüsusiyyəti daşıyan nəhəng əsərdə etiqadi, əxlaqi, ədəblər və sünnələr, tarix və s. bir çox məsələlərdən bəhs edilmişdir. Bu dəyərli əsər 110 cilddə çap olunmuş və oxucuların xidmətinə təqdim olunmuşdur.

## Şiənin ən mühüm hədis qaynağı hansı kitabdır?

Şiənin ən mühüm hədis kitabı Məhəmməd Muhsin Feyzi Kaşaninin (D.329) qələmə aldığı "Əl-kafi" əsəridir. Bu kitab Üsul, Qol və Hicr hissələrindən ibarətdir.

Üsul hissəsi etiqadi və əxlaqi məsələlər haqqındakı hədislərdən ibarətdir.

Qol hissəsi, şəri hədisləri, Hicr hissəsi isə tarixi, təfsir hədisləri, elmi mübahisələri, xütbələri, məktubları əhatə edir.

Üsuli Kafidə 18543 hədis yer alır. Müəllif, rəvayətləri 20 il ərzində öz zamanındakı məşhur mənbələrdən toplamışdır.

## Üsuli kafinin bəzi xüsusiyyətləri

1- Müəllifliyinin "Qeybəti Suğra" ilə eyni zamanda olması.

2- Etiqadi, əxlaqi və şəri hədisləri ehtiva etməsi.

3- Müəllifin, hər babdakı hədisləri tənzimləmə və təsnifatdakı uyğuladığı özünə xas yenilikçi metodu.

Bu möhkəm tarixi irs və nəhəng əsər qələmə alındığı vaxtdan günümüzə qədər alimlərin diqqət mərkəzində olmuşdur. Bu dəyərli əsərə yazılan şərh, haşiyə və tərcümələr qırxı keçmişdir.

## Biharul-Ənvar

Öz sahəsində bir şah əsər olan və 110 cilddən ibarət olan "Biharul Ənvar əl-camiatu Lidurəri Əxbaril Əimmətil-Əthər" toplusu şiənin ən böyük hədis kitabı mövqeyində və sanki şiə məktəbinin böyük bir kitabxanası xüsusiyyətini daşıyır. Bu dəyərli əsər böyük alim və mühəddis Məhəmməd Baqir Məclisinin ən mühüm kitabıdır. Müəllif bu hədis kitabını 40 illik bir zamanda tələbələrinin köməyi ilə tamamlamışdır.

Mərhum Məclisinin bu nəhəng hədis məcmuəsini yazmaqda qayəsi şiənin hədis əsərlərini bərpa etmək, onu yox olub getmə təhlükəsindən mühafizə etmək və hədis maarifinə yeni bir yanaşma fonu yaratmaq idi.

## Biharul-Ənvarın bəzi xüsusiyyətləri

1- Əhatəli olması: Bu əsər əqidə, tarix, ideologiya, əxlaq və fiqh elmi hövzələri sahəsində geniş və doydurucu hədisləri ehtiva edir.

2- Hər fəslin başlanğıcında məsələyə aid ayələr gəlmişdir.

3- "Bəyan" başlığında bəzi hədislər haqqında faydalı izahlar verilmişdir.

4- Müəllif, hədisləri dünyanın bir çox müsəlman ölkəsindəki kitabxanalarda mövcud olan səhih nüsxələrdən çıxardığı hədisləri nəql etmişdir.

5- Kitab, güvənilir qaynaqlardan nəql edilən üsul və hədisləri bizə çatdırmağa qayğı göstərmişdir.

6- Yazıçı, 18 müstəqil risaləyi bu dəyərli əsərə yerləşdirmişdir.

Mərhum Məclisi, bu kitabın müəllifindən yüzlərlə hədis, təfsir, ədəbiyyat, tarix və s. əsərlərindən istifadə etmişdir. İstifadə etdiyi əsər sayının altı mindən çox olduğu güman edilməkdədir.

## Nəhcul-Bəlağə

Nəhcul-Bəlağə, (açıq yol və qüsursuz müzakirə və ya yerində və açıq söz söyləmək mənasına gəlir) Seyid Razinin (ö.496) müttəqilərin mövlası Hz. Əlinin (ə) kəlamlarından topladığı sözləri ehtiva edən əsərə verdiyi addır. Nəhcul-Bəlağə, uca hikmətlər, nurani öyüdlər, təhsil, tərbiyə, idarəçilik metodu, tarixi sünnətlər və həqiqi irfan məsələlərini əhatə edən möhtəşəm bir əsərdir. Bu dəyərli kitab, istər fərdin, istərsə də cəmiyyətin təhsilinə yönəlmiş ehtiva etdiyi vəhyə əsaslanan gözəl sözlər və dərin dini biliklərlə misilsiz bir abidədir. Bu qiymətli əsər üç hissədən ibarətdir:

1- **Xütbələr və Kəlimətul-Kisar** (Aforizmlər, əsaslı sözlər): Həzrət Əlinin 241 xütbə və əsaslı sözünü ehtiva edir. Bu bölümün ən uzun xütbəsi 192-ci xütbə olan “Qasiə” xütbəsidir.

2- **Məktublar:** Bu hissə, məktub, vəsiyyət, öyüd, əmr, dua və əhdi-ətiq barələrində yazılan 79 məktubdan ibarətdir. Həzrət Əlinin (ə) Malik Əştərə yazdığı yazı əmri bu bölümün ən uzun və ətraflı hissəsidir.

3- **Hikmətlər:** Bu hissə Həzrəti Əlinin (ə) 480 hikmətli və əsaslı qısa sözlərini ehtiva edir. İki səhifədən ibarət olan 147-ci Hikmət bu bölümün ən uzun hissəsidir.

Şiə və sünnü alimləri çox qədimdən bəri Nəhcul-Bəlağəyə son dərəcə diqqət və əhəmiyyət göstərmişlər. Bu dəyərli əsəri yazdıqları şərhlər, təshih, sənədləşdirmə fəaliyyətlərində əsas mənbə olaraq görmüş və istifadə etmişlər.

İndiyə qədər bu qiymətli əsər üzərində çox sayda bir-birindən dəyərli əsərlər qələmə alınmışdır. Yazılan şərhlərdən İbn Əbil Hədid, İbn Meysəm Behrani və Əllamə Xoinin qələmə aldığı şərhləri; Nəhcul-Bəlağənın türkcəyə qazandırılan tərcümələrinə isəmərhum Əbdulbaki Gölpınarlının və Qədri Çelikin tərcümələrini nümunə göstərmək olar.

**Səhifeyi-Səccadiyə**

"Ali Məhəmmədin Zəburu" və "Əhli-Beytin İncili" adları ilə xatırlanan Səhifeyi-Səccadiyə İmam Zeynəlabidinin (ə) dualarını əks etdirən möhtəşəm bir əsərdir. Bu əsəri İmam Zeynəlabidin (ə) inşa etmiş və İmam Məhəmməd Baqir (ə) ilə Zeyd b. Əli yazmışlar. Bu bənzərsiz əsərdə oxucu özünü dualar arasında dərin dini maarif okeanında hiss edir, siyasi məsələlərdə ayrı bir ehtişam və ictimai məsələlərdə də bir başqa gözəlliklə üzləşir. Səhifeyi-Səccadiyədə əslində 75 dua olmasına baxmayaraq təəssüf ki, o uca dualardan yalnız 54 dənəsi əsərdə yer almış və geri qalan dualar əlimizə gəlib çatmamışdı.

Bəzi hədis alimləri İmam Zeynəlabidinin (ə) bəzi dualarını da toplayaraq əsərə əlavə etmiş və duanın sayını yetmiş beşə çıxarmış və yeni bir dua məcmuəsi meydana gətirmişlər ki, onlardan bəziləri bunlardır:

1- Səhifeyi-Səccadiyə Saniyə (2. Səhifeyi-Səccadiyə); Məhəmməd b. Həsən Hürr Amuli (ö.1104 hicri qəməri)

2- Səhifeyi-Səccadiyə Salisə (3. Səhifeyi-Səccadiyə); Mirzə Abdullah Əfəndi (ö. 1130 hicri qəməri)

3- Səhifeyi-Səccadiyə Rəbiyyə (4. Səhifeyi-Səccadiyə); Mirzə Hüseyn Nuri (ö. 1320 hicri qəməri)

4- Səhifeyi-Səccadiyə Xamisə (5. Səhifeyi-Səccadiyə); Seyid Möhsin Əmin (ö. 1372 hicri qəməri)

5- Səhifeyi-Səccadiyə Sədisə (6. Səhifeyi-Səccadiyə); Məhəmməd Saleh Mazandarani (ö.1350 hicri şəmsi)

Yazılan səhifələr arasında ən geniş miqyaslısı Seyid Məhəmməd Əli Əbtəhi tərəfindən qələmə alınan Səhifeyi-Səccadiyə kamilə səhifəsidir ki, yuxarıda yazılan səhifələrin hamısını ehtiva edən tam bir səhifədir. Xatırlatmaq lazımdır ki, indiyə qədər Səhifeyi-Səccadiyəyə çox sayda şərhlər yazılmış və müxtəlif tərcümələr kitabı hazırlanmışdır.

**55-ci dərsin sualları**

1. İcma səhabələri kimlərdir?
2. Kutubi Ərbəədən məqsəd nədir?
3. Cəvamii Sanəviyə nədir?

**DƏRS: 56**

# BƏZİ DİNİ ANLAYIŞLAR

## Təqiyyə nədir?

Təqiyyə - dini, mənəvi və ya dünyəvi zərərlərin qarşısını almaq üçün insanın müxaliflər qarşısında imanını və ya inancını gizlətməsidir. Bu mənada təqiyyə hər bir müsəlmanın şəri vəzifələrindən biridir və bunun kökü Qurana əsaslanır[1].

*"Firon ailəsindən olub, imanını gizlətməkdə olan mömin bir adam (Musayı müdafiə etmək üçün) dedi ki: Siz, Rəbbim Allahdır,- deyə bir adamımı öldürürsən! Halbuki O, sizə Rəbbinizdən açıq-aşkar möcüzələrlə gəlmişdir"[2].*

## Quran baxımından təqiyyə

Qurani-Kərimin bir çox ayəsində təqiyyə (məzhəbini, inancını gizli saxlamaq) məsələsinə toxunulmuşdur ki, biz burada onlardan bir neçəsini zikr edəcəyik:

*"Möminlər möminləri buraxıb kafirləri dost tutmasınlar! Bunu edən (kafirləri özünə dost tutan) kəs Allahdan heç bir şey gözləməsin (onun Allah dərgahında heç bir qədir-qiyməti olmaz). Ancaq onlardan gələ biləcək bir təhlükədən qorxmanız (çəkinməniz) müstəsnadır. Allah sizi öz əzabından çəkindirir. Axır dönüş Allaha tərəfdir! (Hamı Allahın hüzuruna qayıdacaqdır!)[3]".*

*"Qəlbi imanla sabit olduğu halda (küfr sözünü deməyə) məcbur edilən (dil ilə deyib ürəyində onu təsdiq etməyən) şəxs istisna olmaqla, hər kəs iman gətirdikdən sonra, küfr etsə (onu ağır təhlükə gözləyir). Lakin qəlbən küfrə razı olanlara (qəlbində könüllü surətdə*

[1] *Cavab veririk, Rza Hüseyni Neseb, s.211, Sual: 34.*
[2] *Mumin, 28.*
[3] *Ali-İmran, 28.*

*küfrə yer verənlərə) Allahın qəzəbi tutar və onlar şiddətli bir əzaba düçar olarlar!"*[1].

## Rəcət nədir?

Rəcət ərəb dilində geri qayıtmaq mənasındadır. Məna olaraq da bir qrup insanın ölümdən sonra və qiyamətdən əvvəl geri dönüşünü ifadə edir. Bu hadisə, vəd edilmiş hz. Mehdinin (ə) universal hərəkətilə eyni zamanda meydana gələcəkdir. Bu hadisənin vəhy və əqli cəhətdən mümkün olması sübut edilmişdir. Vəhy məntiqinə əsasən, əvvəlki ümmətlər arasında da, rəcətin bəzi nümunələrini tapmaq mümkündür[2].

*"(Və yadınıza salın ki) siz: "Ya Musa, Allahı aşkar surətdə görməyincə, heç vaxt sənə inanmayacağıq",- dediyiniz zaman, gözünüz görə- görə sizi ildırım vurmuşdu".*

*"Bəlkə, şükür edəsiniz deyə, biz sizi ölümünüzdən sonra yenidən diriltdik"*[3].

## Rəcətin hikməti nədir?

Rəcətin məqsədləri üzərində düşündüyümüz zaman, bu hadisənin məqsədləri arasında iki ali məqsədi dərk etməyimiz mümkündür:

1- İslamın həqiqi əzəməti və ucalığı ilə küfrün alçaqlığını ortaya qoymaq.

2- İmanlı və yaxşı insanları təltif edib, kafirləri və zalımları cəzalandırmaq[4].

---

[1] *Nəhl, 106.*
[2] *Cavab veririk, s.127, Sual: 127.*
[3] *Bəqərə, 55-56.*
[4] *Cavab veririk, s.127, Sual: 130.*

## Rəcət ilə reinkarnasiya hadisəsi arasındakı fərq nədir?

Şiə inancındakı "Rəcət" məsələsinin "Reinkarnasiya" inancı ilə heç bir əlaqəsi yoxdur. Çünki reinkarnasiya fikri, qiyaməti inkar edən, kainatın davamlı bir dəyişiklik halında olduğunu müdafiə edən və hər dövrü əvvəlki dövrün təkrarı olduğuna inanan bir fikirdir. Bu fikrə görə, hər insanın ruhu ölümdən sonra yenidən dünyaya qayıdır və başqa bir bədəndə təcəlla edir. Əgər ruh keçmiş dövrdə yaxşı insan olubsa, sonrakı dövrdə zövq və səfa içində yaşayacaq. Əgər pis insan olubsa, sonrakı dövrdə çətinliklər içində yaşayacaq bir bədəndə yer alar. Bu geri qayıdış onun qiyaməti hökmündədir. Halbuki rəcətə inananlar, islamdakı qiyamət və axirət inancına iman edir və bir bədəndən ayrılmış bir ruhun başqa bir bədənə intiqalının qeyri-mümkün olduğuna inanırlar[1].

Sadəcə, bir qrup insanın qiyamətdən əvvəl bu dünyaya geri qayıdacağına, səbəblərinin və məsləhətlərinin təmin edilməsindən sonra da yenidən əbədi yurda intiqal edəcəyinə, daha sonra da qiyamət günü digər insanlarla birlikdə diriləcəyinə inanır. Bunda da heç vaxt bir ruhun bir bədəndən ayrıldıqdan sonra başqa bir bədənə intiqal etməsi söz mövzusu deyil[2].

## Fitrət nədir?

Fitrət ərəb dilində "fetr" kökündən olub bir şeyi uzununa bölməyə deyilir.

Fitrət kəlməsi, lüğətdə yaradılışın xüsusi bir şəklidir. İstilahda isə "xüsusi bir yaradılış forması" mənasındadır. Bir sözlə insan yaradılışı, yəni insanın xüsusi yaradılışı, xasiyyəti və xarakteri mənasındadır.

---

[1] *Sədrul-Mütəallihin, əl-o, c.9, bab.8.*

[2] *Cavab veririk, s.130, Sual: 23.*

**56-cı dərsin sualları**

1. Təqiyyə və Rəcət nədir?
2. Təqiyyə mövzusu Quranda varmı?
3. Rəcətin hikməti nədir?
4. Rəcət ilə reinkarnasiyanın fərqi nədir?

## DƏRS: 57

# ŞƏFAƏT, BƏDA, QƏZA-QƏDƏR VƏ TƏVƏSSÜL

## Şəfaət

Allahın yanında qiymətli və hörməti olan bir insan uca Allahdan başqa bir insanın günahlarının bağışlanmasını və ya məqamının yüksəlməsini istəməsidir.

*“Rəhmandan əhd almış kəslər istisna olmaqla, qalanları (kafirlər) şəfaət etməyə qadir olmazlar. (Yalnız iman gətirib yaxşı işlər görənlər qiyamət günü Rəhmanın izni ilə şəfaət etməyə layiqdirlər)”[1].*

## Bəda

“Bəda” kəlməsi ərəb dilində “aşkar” və “zahir” olmaq, şiə alimlərinin istilahında isə bəyənilən və saleh əməllər nəticəsində bir insanın taleyinin təbii yolunun dəyişməsinə deyilir.

“Bəda” məsələsi mütərəqqi şiə ideologiyasının yüksək təfəkküründən biridir, özü də əql və vəhy məntiqindən qaynaqlanır. Quran baxımından insan öz taleyi və müqəddəratı qarşısında həmişə məcbur (əli bağlı) deyildir, əksinə səadət yolu onun üçün açıqdır, o, haqq yolunda layiqli rəftarlara malik olmaqla öz həyatının axır-aqibətini dəyişdirə bilər[2].

*“Onlara (dünyada) etdikləri pis əməllərin cəzası (pis nəticəsi) görünəcək və istehza etdikləri (əzab) onları saracaqdır!”[3].*

*“Hər hansı bir tayfa öz tövrünü (nəfsində olanları) dəyişmədikcə (pozmadıqca), Allah da onun tövrünü (onda olanları, onun əhvalını) dəyişməz”[4].*

---

[1] *Məryəm, 87.*
[2] *Cavab veririk, Rza Hüseyni Neseb, s.45.*
[3] *Zumər, 48.*
[4] *Rad, 11.*

# Qəza və Qədər

Qəza və Qədər sözləri, bəzən birlikdə istifadə edilirlər. Bu təqdirdə hər şeyin alın yazısı anlamını ifadə edilir. Amma bəzən də, ayrı olaraq istifadə edilir və hər birində ayrı bir məna nəzərdə tutulur.

Qəza, lüğətdə bir şeyi dəqiqləşdirmək və ya bir məsələdə qəti hökm vermək mənasını ifadə edir.

Tale isə ölçülü olmaq mənasını verərkən, təqdir etmək, bir şeyə zat və sifətləri üçün ölçü vermək mənasını da ifadə edir.

*"(Bəli) elədir, (lakin) Allah istədiyini yaradır. O, bir işin əmələ gəlməsini qərara aldıqda, ona ancaq "Ol!" deyər, o da (dərhal) olar"[1].*

*"Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə (lazım olduğu qədər) yaratdıq"[2].*

Ayələrdə adı hallanan Qəza və Qədər sözləri bunun nümunəsidir. Buna görə, ilahi qədər və təqdirdə məqsəd, hər şeyin zat, sifət, məkan, zaman və bənzəri baxımından ölçüsünün Allah tərəfindən təyin edilməsi, ilahi qəzada məqsəd isə varlıqların mövcud olmalarında qətiyyət əldə etmələrinin varlıqlarına hökm edilməsinin Allah tərəfindən təmin edilməsidir[3].

# Təvəssül

Təvəssül mövzusu da şəfaət məsələsi kimidir. Maddi və mənəvi bir problemi olanlar Allahın izni ilə bu problemlərinin həllini Allah-Təaladan istəmələri üçün, Allahın dostlarını vasitə etmələridir. Başqa bir təbirlə, adamın Allaha yaxınlıq məqamına çatmaq üçün, onunla Allah arasında dəyərli bir varlığı vasitəçi etməsidir. İbn Mənzur "Lisanul-Ərəb"də belə deyir: "Təvəssülə iləyhi bi kəza -

---

[1] *Ali-İmran, 47.*
[2] *Qəmər, 49.*
[3] *Əhli-Beyt Məktəbində Əsas İnanclar, c.1, s.316.*

birinə incidə bilməyəcəyi bir hörmət münasibəti ilə yaxın olmağı ifadə edər”[1].

“*Sizin əlinizə keçməmişdən əvvəl tövbə edənlər müstəsnadır. Bilin ki, Allah bağışlayandır, rəhm edəndir!*”[2].

## Peyğəmbərə təvəssül

Müsəlmanlar arasında təvəssül, xüsusilə Həzrət Peyğəmbərə (s) yönəliklə, elə Həzrət Peyğəmbərin həyatında başlamışdır. Müsəlmanlar və səhabələr Allaha yaxınlaşmaq və problemlərinin həllinda Peyğəmbəri (s) Allahla aralarında vəsilə edərək o böyük zata mütəvəssil olmuşlar. Peyğəmbərə təvəssül, onun vəfatından sonra da davam etmiş və bu günümüzə qədər ümmət ona mütəvəssil olaraq Allaha yaxınlaşmış və istəklərinə qovuşmuşdular.

Əhməd ibn Hənbəl, Tirmizi və İbni Macə belə nəql edirlər: “Kor bir kişi Peyğəmbərin yanına gəlib (s) və ondan Allahın ona şəfa verməsi üçün dua etməsini istədi”. Bunun üzərinə Peyğəmbər (s) belə buyurdu: “Əgər sən istəsən dua edərəm, amma səbir edə bilsən, bu, sənin üçün daha xeyirlidir”.

Adam xahişini təkrarladı. Peyğəmbər (s) ondan qüsursuz dəstəmaz alıb və belə deməsini istədi: “Allahım, Səndən istəyirəm və sənin Rəsulunu rəhmət Peyğəmbərini çağırıram. Ey Məhəmməd! Duamın qəbul olması üçün, Allahı sənin vasitən ilə çağırıram. Allahım! Həzrət Məhəmmədi mənim şəfaətçim qərar ver![3]”.

Mədinə xalqı, quraqlığa düçar olmuşdu. Ayşənin yanına gəlib, düşdükləri vəziyyətdən şikayət etdilər. Ayşə belə dedi: Həzrət Peyğəmbərin məzarına tərəf dönün. Məzarın baş hissəsinin

[1] *Lisanul--ərab, c.11. S.724.*
[2] *Maidə, 34.*
[3] *Musnədi Əhməd b. Əbi, H: 16604 və 16605; Ət-tirmizi, Kitabul--dəvət, H: 3502.*

döşəməsində, səma ilə qəbir arasında heç bir maneə olmayacaq şəkildə yuxarıdan bir deşik açın.

Darəmi belə davam edir: Mədinə xalqı onun dediyi kimi etdi və o qədər yağış yağdı ki otlar göyərdi və dəvələr bəslənmiş oldu[1].

**57-ci dərsin sualları**

1. Şəfaət nədir?
2. Bəda nədir?
3. Qəza və Qədər hadisəsini izah edin
4. Təvəssül nədir və kimlərə təvəssül edilir?

[1] *Sünəni Darəmi, Kitabul-Muqəddimə, H: 92.*

**DƏRS: 58**

# DİNİ VƏ FİQHİ ANLAYIŞLARIN BƏZİLƏRİ HAQQINDA

## Qiblə

Məkkədə yerləşən Kəbə müsəlmanların namazlarında istiqamətlərini çevirdikləri müqəddəs yerdir və ora müsəlmanların qibləsidir. Namazın və səcdənin istiqaməti tam olaraq ona doğru olmalıdır. Amma uzaqda olan kimsə, "qibləyə doğru namaz qılır" deyiləcək şəkildə olması kifayətdir.

Yenə heyvanın başının kəsilməsi qibləyə doğru tutulub kəsilməli, lazım olan işlərdə də "qibləyə doğru edilir" deyilməsi kifayətdir.

## Yetkinlik dövrü

Yetkinlik yaşı - müəyyən bir dövrə yetişmək və bir sıra müəyyən cəhətlərə sahib olmaq deməkdir. Müəyyən bir yaşda olan və müəyyən xüsusiyyətlərə malik olan şəxsə "yetkin" deyilir.

Yetkinlik dövrünə çatan kimsə, artıq dini hökmlərdən hökmlü tutulur. Mövzu ilə bağlı hökmlərə tam risalə kitablarına baxa bilərsiniz. Kişilər 15 yaşında, qızlar isə 9 yaşında yetkinlik çağına çatırlar.

## Vilayət nədir?

Allah, Peyğəmbər (s) və Əhli-Beyt imamlarının (ə) müsəlmanlar üzərində hakimiyyət və səlahiyyət sahibi olmaları mənasına Vilayət deyilir. Bu hakimiyyət və səlahiyyət eyni zamanda, sevgi hissi ilə birlikdədir. Quran belə buyurur:

*"Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat verirlər."*[1]

Bu ayədə rüku halında zəkat verən İmam Əlidir (ə). Vilayət, həqiqi mənada yalnız Allaha məxsusdur. Peyğəmbərimiz (s) və onun varislərinin vilayəti isə Allah tərəfindən verilmiş olan nisbi vilayətdir. Yəni onların vilayəti də əslində Allahın vilayətinə əsaslanır.

Zamanımızda imam aramızda olmadığı üçün İmam Mehdinin (ə) ümumi mənada nümayəndəsi olma səlahiyyətinə malik olan müctəhidlər də vilayət hüququna malikdirlər. Buna "Vilayəti-Fəqih", yəni müctəhidin vilayət haqqı adı verilir.

## Zimmi kimlərə deyilir?

İslam torpaqlarında, İslamın sosial qanunlarına bağlı qalmaları müqabilində İslam dövlətinin himayəsi altında yaşayan, malı, namusu və s. kimi dəyərlərə təminat verən xristianlar və yəhudilər kimi tanınan kafirlərə deyilir və Əhli-Kitab kimi tanınırlar.

## Ziyarətnamə nədir?

Ziyarətnamə - Əhli-Beyt imamlarının (ə) və ya imamzadə məqbərələrini ziyarət edərkən oxunan duadır. Bu ziyarətlər ümumi Əhli-Beyt imamlarından (ə) nəql edilmişdir. Ziyarət-namələrdən bəziləri xüsusidir, yəni yalnız müəyyən və xüsusi imamın ziyarətində oxunur. Bəziləri isə bütün imamlar (ə) üçün ortaqdır. Nümunə: Əminullah ziyarəti, Camia Kəbirə duası və bəzi ziyarətlər də xüsusi günlərə aiddir və o günlərdə oxunur. Rəcəb və Şaban aylarının 15-ci günlərində oxunan ziyarətnamələr kimi və s.

---

[1] *Maidə, 55.*

Ziyarətnamələrin mahiyyəti Allaha həmd və tövhid ilə başlayar, Peyğəmbər (s) və Əhli-Beyt imamlarına (ə) salat və salam ilə davam edir. Sonda isə ziyarət edilən türbə sahibinə tərif və salam göndərilir. Ziyarətnamələr ümumiyyətlə bir neçə hissədən ibarətdir: Bir hissəsi ziyarətçi türbəyə yaxınlaşanda oxunur, digər hissəsi giriş icazəsi tələb olunarkən oxunur və digər hissəsi isə türbənin yanında məzarı əhatə edən dəmir çəpərlərin yanında oxunur. Bəzən son hissə, türbənin baş və ayaq tərəfində oxunan dualar kimi hissələrdən də ibarət olur. Yəni ziyarətdə nəql olunur ki, məsumun baş və ayaq ucunda xüsusi dualar oxunmalıdır.

Ziyarət sahəsində İbni Tavusun yazdığı "Misbahuz-zair" və Əllamə Məclisinin qələmə aldığı "Tuhfətuz-Zair" adlı əsərləri sahələrinin ən məşhur qaynaqlarındandır. Kefeminin Misbah, Əllamə Məclisinin Zadul-Məad və Şeyx Abbas Quminin Məfatihul-Cinan adlı əsərlərinin ümumi məsələləri ziyarətlər haqqındadır.

## Salavat göndərəndə niyə Əhli-Beyti də zikr edirik?

Qəti şəkildə məlum olduğu kimi, Peyğəmbərimizin (s) şəxsən özü, ona salat və salam göndərmə formasını müsəlmanlara öyrətmişdir. Allah və mələkləri Peyğəmbərə (s) salat edərlər: *"Ey iman gətirənlər! Siz də ona salavat göndərib (onun üçün salavat deyib) layiqincə salamlayın!"*[1]. Ayə nazil olduqda müsəlmanlar, Peyğəmbərə (s) necə salat və salam göndərəcəklərini soruşdular. Həzrət belə buyurdu: **"Mənə kəsik salavat göndərməyin!".**

Yenə soruşdular: "Bəs necə salavat göndərək?" Allah Rəsulu (s) belə buyurdu: **"Belə deyin: Allahummə salli əla Muhəmmədin və Ali Muhəmməd"[2].**

---

[1] *Əhzab, 56.*

[2] *Əs-səvaikul-muhrika, c.11, bab,1, s.146.*

# Hirz

"Hirz" lüğətdə sığınacaq və qorunmağa vəsilə olan, insanı mühafizə edən şey mənasına gəlir. Şeytanlardan, cinlərdən, zalımların zülmündən, zərər verən heyvanlardan və qorunmaq üçün yazılan dualara deyilir. Bəzi hirzlər mümkün zərərlərin və bəlaların baş verməsindən əvvəl oxunur, bəzi hirzlər isə bütün zərərlərdən, şərlərdən və pisliklərdən təhlükəsizlikdə qalmaq üçün yazılır, boyuna asılır və ya cibdə gəzdirilir.

Bu dualardan bəziləri bir sıra xüsusi kəlmələr və xətlərdən ibarətdir ki, onların mənası yalnız Əhli-Beyt imamları (ə) tərəfindən (ə) tanınır. Şiənin məsum imamlarının əksəriyyətindən hirzlər (qoruyucu dualar) nəql edilmişdir. Məsələn, imam Əli (ə), imam Səccad (ə), imam Rzanın (ə) hirzlərinə işarə etmək olar. Seyid ibni Tavus nəql edilən bu hirzlərin böyük əksəriyyətini Muhəcudu-Dəavat adlı əsərində nəql etmişdi və Məfatihul-Cinan adlı əsərin haşiyəsinin beşinci bəndində də bu əsərdən bu hirzlər və dualar nəql olunmuşdur.

**58-ci dərsin sualları**

1. Oğlanlar və qızlar neçə yaşında yetkinlik çağına nail olurlar?
2. Vilayət nədir?
3. İslamda kimlərə Zimmi deyilir?
4. Salavat deyiləndə niyə Əhli-Beyti də zikr edirik?
5. Hirzdə məqsəd nədir?

## DƏRS: 59

# MƏZHƏB NƏDİR?

Məzhəb sözü ərəbcədən tərcümədə gedilən yol deməkdir. Məzhəb, etiqadda, yəni əqidədə, əməldə, inancda, ibadətlərdə, din əmrlərinə riayət edilmədiyi təqdirdə mükəlləfin uğrayacağı cəzalarda, başda kitab, Quran, sünnət, hədis olmaq üzrə rəy (fikir) yaxud əqli məsələlərdə bunları əsas götürərək tutulan yoldur.

## Əhli sünnə imam və məzhəbləri

Əhli sünnə və camaat, adından da göründüyü kimi Peyğəmbərin (s) sünnəsinə, səhabə və təbein camaatına, onun birliyinə tabe olmağı prinsip seçən, səhabənin hamısını tam ədalət sahibi, ədalətin özünü tanıyan, aralarındakı döyüş və münaqişə fərqli nəzərdən irəli gələn məsələ olaraq qəbul edən bir məzhəbdir[1].

**1- Maliki məzhəbi**

Malik b. Ənəs, 94 hicridə Mədinədə anadan olmuşdur. Malik hədis elminə əhəmiyyət vermiş, tabeindən, bir çox kəsdən və imam Cəfər Sadiqdən (ə) də dərslər almışdır. Malik b. Ənəs, Əməvilərin son dövrləri, Abbasilərin ilk əsrlərində yaşamışdır. Zülm edən rəhbərlərə qarşı “qılıncla deyil, xalqı doğru yola gətirməyə çalışmaq lazımdır”, sözü ilə müxalifət etmək fikrini müdafiə edir. Hicri 179-cu ildə vəfat etmiş və Mədinədə Bəqi qəbiristanlığında dəfn edilmişdir.

**2- Hənəfi məzhəbi**

Numan b. Sabit hicri 80 və ya 82-də Kufədə dünyaya gəlib. Daha sonralar imam Əzəm Əbu Hənifə kimi məşhur oldu. Əbu Hənifə elmi, təhsili ilə yanaşı, ticarətlə də məşğul olurdu. Dövrün alimləri

[1] *Türkiyədə Məzhəblər və Təriqətlər, Əbdulbaki Gölpınarlı, s.90.*

və xüsusilə imam Cəfər Sadiqdən (ə) dərslər almışdır. Əbu Hənifə, öz təbiri ilə imam Cəfər Sadiqdən aldığı dərslər haqqında belə demişdir: **"Onun hüzurunda oxuduğum o iki il olmasaydı, Numan həlak olardı".**

Daha sonralar ticarəti başqasına təhvil verərək özünü tamamilə elmə verən Əbu Hənifə, Əməvilərin güclü dövrü, Abbasilərin ilk çağlarında yaşamışdır. Əbu Hənifə, Əməvilər əleyhinə başlanan hərəkatlara qoşulmamaqla bərabər, bu cür hərəkətləri də düzgün bilmişdir.

### 3- Şafei məzhəbi

Məhəmməd b. İdrisi-Şafei, hicri 150-ci ildə, yəni Əbu Hənifənin vəfat etdiyi gecənin səhərində Qəzza yaxud Askaalanda anadan olmuşdur. Məkkədə və Mədinədə təhsil almışdır. Fiqh və hədisə aid yüzdən çox kitab yazmışdır. O, xilafətin Qüreyşin haqqı olduğunu müdafiə edir və ilk dörd xəlifənin ən üstünü olaraq Əbu Bəkri qəbul edir. Bununla birlikdə imam Əliyə (ə) xüsusi bir sevgi bəsləyir, şeirlərində Əhli- Beytə (ə) sadiqliyini bildirir.

### 4- Hənbəli məzhəb

Əhməd b. Hənbəl də hicri 164-cü ildə Bağdadda dünyaya gəlib. Əhməd b. Hənbəl hədis elminə böyük əhəmiyyət vermişdir. Hətta Əbu Yusifdən dərslər almışdır. Onun yaşadığı dövr Quranın məxluq olub olmadığı mübahisəsinin gündəmdə olduğu dövr idi. Əhməd b. Hənbəl, kitabında Əhli-Beytin (ə) fəzilətləri barəsində olan hədisləri nəql etməsi ilə yanaşı, əsərində Müaviyə və Yezidə də xüsusi sevgilər ifadə edən hədislər zikr etmişdir. Hənbəlilər, qəbir ziyarətini qadağan edir və hər bir yeniliyə bidət damğasını vururlar.

## Əhli sünnə məzhəblərinin ortaq nöqtələri

Əhli sünnə məzhəblərinin inanc və fiqhə əsaslanan məsələlərdə bir çox ortaq nöqtələri vardır ki, onlardan bəzilərini belə sıralaya bilərik:

1- Səhabələrin hamısı ədalət sahibidir.

2- Səhabə arasındakı ixtilaflar ictihaddır. Kimsənin onlara dil uzatmağa haqqı yoxdur.

3- Xilafət ümmətin qərarıyladır.

4- Səhabə və tabeinin sözləri və əməlləri dəlildir.

5- Ayağa geyilən geyimin üstünə məsh etmək olar.

6- Zalım və adil hər imamın arxasında namaz qılmaq olar[1].

**59-cu dərsin sualları**

1. Məzhəb nədir?
2. Əhli sünnənin məzhəb imamları kimlərdir?
3. Əhli sünnə məzhəblərinin ortaq nöqtələri nələrdir?

[1] *Türkiyədə Məzhəblər və Təriqətlər, Əbdulbaki Gölpınarlı,* s.101.

**DƏRS: 60**

# BƏZİ TƏRİQƏT VƏ FİRQƏLƏR

## Təriqət nə deməkdir?

Təriqət - ərəbcə bir söz olub yol mənasına gəlir. Təriqət, üsul, yəni dini inanc, qol, əməl haqqında ayrıca sistemə malik deyil. Təriqət, qulunu Tanrıya çatdıran, zövq, nəşə, irfan, eşq və ekstaz yoludur.

Bu yolu tutan şəxs, sufilərə görə varlığını Tanrıya verir. Hər şeydə onun qüdrət və hikmətini görür, bütün fani varlıqları, həqiqi var olan Tanrıda yox edər[1].

## Nəqşibəndi təriqəti

Bu təriqət Məhəmməd Bəhaəddin tərəfindən yaradılıb. Təriqət zənciri, beş vasitəylə Yusif Həmədaniyə çatan Seyid Əmir Külalə ilə bağlılığı var. Nəqşibəndi təriqətində səma və cəhri (yüksək səsli) zikr yoxdur. Bu baxımdan bu təriqət, gizli, səssiz zikr ərdabındandır. Və təriqət zəncirlərinin, bir tərəfdən Həzrəti Əliyə (ə) və bir tərəfdən də Peyğəmbər (s) tərəfindən özünə gizli zikr təlqin edilən Əbu Bəkirə çatıldığına inanılır[2].

## Süleymançılar kimlərdir?

Nəqşibəndi şeyxlərindən Süleyman adlı bir şəxsə mənsub olanlara Süleymançılar deyilmişdir. Süleyman Əfəndi, hicri 1280-ci ildə dünyaya gəlmişdir. Sapqa inqilabından əvvəl bu zat və buna tabe olanlar, ağ təkkə üstünə ağ əmmamə bükürlər, namaz qılarkən ucunu açıb arxalarına sararlar, Allaha qarşı könül

---

[1] *Türkiyədə Məzhəblər və Təriqətlər, Əbdulbaki Gölpınarlı, s.185.*

[2] *Türkiyədə Məzhəblər və Təriqətlər, Əbdulbaki Gölpınarlı,* s.217.

rüsvayçılığı göstərmək üçün, başlarını və bədənlərini aşağıya doğru əyərlər.

Bunlara xalq arasında “ağ təkkəlilər” adı verilmişdir[1].

## Nurçuluq nədir?

Səid Nursi 1873-cü ildə Bitlisin Nurs kəndində dünyaya göz açıb. İlk əvvəl Bədiuzzaman Saidi Kürdü adı ilə bilinirdi. Məhəllə məktəbində bir az təhsil almışdır. Gəncliyi mədrəsələr arasında keçən Nursinin nizamlı və intizamlı bir təhsili yoxdur. 1952-ci ildən sonra inkişaf edən Nurçuluq axınını qurdu və inkişaf etdirdi. 1960-cı ildə Urfa səfərində ölmüşdür[2].

## Zeydiyə kimlərə deyilir?

Zeydilik və ya Zeydiyə, on iki imamın dördüncüsü İmam Zeynəlabidinin (ə) oğlu Zeydə tabe olanlara deyilir. Zeyd, Əməvi xəlifələrindən Hişam dövründə Haşim oğullarına (Əhli- Beytə) edilən zülm və təzyiqlərə görə qiyam etmiş və 121-ci hicri ilində şəhid edilmişdir.

## Zeydiyə və İmamiyə arasındakı fərqlər

Zeydiyənin İmamiyədən fərqli nöqtəsi, Əbu Bəkr ilə Ömərin xilafəti və Həzrət Fatimə (s) övladlarından qılıncla qiyam edənin imamlığını qəbul etməsidir.

## İsmaililər firqəsi

İsmayıl, İmam Cəfər Sadiqin (ə) böyük oğludur. O, Mədinədə dünyaya gəlmiş və atası hələ həyatda ikən vəfat edib. İmam Sadiq

1 *Türkiyədə Məzhəblər və Təriqətlər, Əbdulbaki Gölpınarlı s.225.*

2 *Türkiyədə Məzhəblər və Təriqətlər, Əbdulbaki Gölpınarlı s.226.*

(ə) oğlu İsmayılı çox sevirdi. Oğlu öldüyündə tabutu bir neçə dəfə çiyinlərdən yerə endirərək İsmayılın kəfənini açıb oğlunun öldüyünü camaata göstərmişdir. İsmayılın vəfatından sonra bir qrup onun imam olduğunu iddia etdilər. Onun ölmədiyini, zamanın imamı olduğunu və bir gün ortaya çıxacağını müdafiə etdilər. Bu qrupa İsmaililər və ya Səbiyyə (yeddi imamçılar) deyildi[1].

## Ələvilik nədir?

Ələvilik inanc kimi şiəliklə heç bir fərqə malik deyildir. Yəni həm şiələr, həm də ələvilər Allaha, Peyğəmbərə, Qurana və on iki məsuma inanırlar.

Bu səbəbdən təməl məzhəb əsasları eynidir. Bu iki məzhəb arasındakı fərqlər daha çox mədəniyyət, ənənə və əməli uyğulamalarla fərqlənir. Başqa bir təbirlə üsuli-dində bu ikisi arasında heç bir fərq yoxdur. Əməli uyğulamalarda, şərhlərdə bir çox fərqlər vardır.

**60-cı dərsin sualları**

1. Təriqət nə deməkdir?
2. Nəqşibəndi təriqətinin banisi kimdir?
3. Zeydiyə kimlərə deyilir?
4. Zeydiyə ilə İsmaililəri ayıran nöqtələr nələrdir?
5. İsmaililər firqəsi kimlərdir və nə vaxt yaradıldı?
6. Ələvilik nədir?

[1] *Türkiyədə Məzhəblər və Təriqətlər, s.60.*

**DƏRS: 61**

# ŞİƏ

## Şiə məzhəbində məqsəd nədir?

Şiə, ərəb dilində ardıcıl mənasındadır. Belə ki, Qurani-Kərim, *"Nuhun davamçılarından biri də İbrahimdir[1]"* - deyə, buyurarkən, "Şiə" təbirini istifadə etmişdir. Amma müsəlmanların terminologiyasında şiələr, Peyğəmbərin (s) vəfatından əvvəl öz canişinini və müsəlmanların xəlifəsini müxtəlif münasibətlərdə açıqladığına inanır. Şiə, Allah Peyğəmbərinin (s) Qədiri-Xum günü, Hicrətin 10-cu ildə Zilhəccə ayının 18-ci günündə böyük bir icma arasında öz canişinini təyin etdiyinə və onu özündən sonrakı dini, elmi və siyasi məqam olaraq təyin etdiyinə inananlar üçün istifadə edilir. Ümmət, Peyğəmbərdən (s) sonra iki qrupa ayrıldı.

**Bir qrupda** Allah Peyğəmbərinin (s) öz canişinini təyın etdiyinə və bu xəlifənin eyni zamanda özünə ilk iman edən Əli b. Əbu Talib olduğuna inananlardır. Bu qrup Əli şiəsi kimi tanındılar. Baxmayaraq ki, şiə sözü ilk olaraq Allah Peyğəmbərinin (s) həyatı dövründə Həzrət Əli (ə) tərəfdarları haqqında istifadə etmişdir. Rəsuli-Əkrəm (s) Həzrət Əlini (ə) göstərərək belə buyurur: **"Canım əlində olan Allaha and olsun ki, qiyamət günü qurtuluşa çatacaq olanlar, bu (Əli) və şiəsidir[2]"**.

**Digər bir qrupda** Xilafət məqamının seçkiyə əsaslanan bir məqam olduğunu müdafiə etmiş və buna görə də Əbu Bəkrlə beyət etmişdilər. Bu qrup daha sonralar "əhli-sünnə" adı ilə tanınıb.

---

1 *Saffat, 83.*

2 *Əd-dürrul-mənsur, c.6, Bəyyinə surəsinin 7-ci ayəsinin təfsiri.*

## Şiəliyin yaranması

Şiə anlayışı açıqlandıqdan sonra, təbii olaraq şiəliyin nə vaxtdan başladığı sualı meydana gəlir və ağıllarda soru işarəsi yaradır. Bu sual iki hissəyə ayrılır.

1- İlk olaraq nə zaman bir qrup müsəlman Həzrət Peyğəmbərdən sonra, (s) Həzrət Əlinin (ə) Allah tərəfindən Peyğəmbərimizin yerinə keçəcək xəlifə olduğuna və onu təqib etməyin vacibliyinə inanıblar?

2- İkincisi, şiə sözü müasir termin mənasını nə vaxt qazandı? Həzrət Əlinin (ə) davamçıları və onun imamətinə inananlar üçün ilk olaraq nə zaman istifadə edilib?

Şiəliyin doğması İslamın yeni formalaşmağa başladığı, yəni Peyğəmbərin həyatda olduğu bir dövrdə ortaya çıxmış və şiə sözü şəxsən Peyğəmbərin tərəfindən istifadə edilmişdir.

Şiəliyin və şiə kəlməsinin Peyğəmbərdən sonra bəziləri tərəfindən ortaya çıxarıldığını deyən, əhli-sünnə mənbələrində nəql olunan yüzlərlə rəvayətdən bir neçəsini təqdim etməklə kifayətlənəcəyik.

a) İbni Asakir (hq.571) Cabir b. Abdullah Ənsaridən belə nəql edir:

“Bir gün biz Peyğəmbərin yanında ikən Əli (ə) gəldi. Bu zaman Peyğəmbər belə buyurdu: Canım əlində olan Allaha and olsun ki, mütləq bu və bunun şiələri, Qiyamət günü xilas olacaqlar”.

Sonra “Bəyyinə” surəsinin yeddinci ayəsi nazil oldu.

“*İman edib saleh əməl işləyənlərə gəlincə, xalqın ən xeyirlisi onlardır*”.

Bu hadisədən sonra Peyğəmbərin səhabələri Əlini (ə) nə vaxt görsələr “İnsanların ən xeyirlisi” gəldi deyirdilər[1].

b) Nəcəf çapı (hq.911) İbn Abbasdan belə nəql edir:

---

[1] *Şiəliyə Baxış, Doktor Məhəmməd Əli Şimali, s.18.*

"*İman edib saleh əməl işləyənlərə gəlincə, xalqın ən xeyirlisi onlardır*"- ayəsi nazil olanda Peyğəmbər (s) Əliyə (ə) buyurdu:

"**Onlar sən və şiələrindir. Qiyamət günü sizlər razı olacaqsınız və Allah da sizdən razı olacaqdır**"[1].

c) İbn Həcər (hq.974) Ümmü Sələmədən belə nəql edir: Peyğəmbər (s) Ümmü Sələmənin evində olduğu bir gecə qızı Fatimə (s) və arxasından da Əli (ə) evə gəldi. Sonra Peyğəmbər (s) belə buyurdu:

**"Ey Əli! Sən və sənin səhabələrin və şiələrin cənnət əhlidir"[2].**

## İlk şiələr kimlərdir?

Şiəlik ilk olaraq Hicazda Peyğəmbərin (s) səhabələrinin arasında meydana gəlmişdir. İslam tarixindən bəhs edən əsərlərə və din alimlərinin bioqrafiyalarını tədqiq edən kitablara baxanda, Həzrət Peyğəmbərin (s) səhabələrinin arasında və Haşim oğulları ailəsindən Abdullah b. Abbas, Fəzl b. Abbas, Əqil b. Abbas, Cəfər b. Əbu Talib kimi şəxslər şiənin tanınmış simalarından olduğu məlum olur.

Əshab içərisində Haşim nəslindən olmayan şiələr aşağıdakılardır:

Salman, Miqdad, Əbuzər, Əmmar ibn Yasir, Hüzeyfə b.Yəman və s[3].

## Şiə təlimi

Şiənin bəzi təlimlərini qısaca belə izah edək. Əlbəttə, bu təlimlərin bəzilərinin ümumiyyətlə şiə olmayanlar tərəfindən də qəbul edilməsi mümkündür. Kim bu təlimlərin hamısını qəbul edərsə, şiə məzhəbindəndir.

---

[1] *Bəyyinə, 7.*

[2] *Şiəliyə Baxış, Doktor Məhəmməd Əli Şimali,* s.21.

[3] *Şiəliyə Bakış, Doktor Məhəmməd Əli Şimali, s.29.*

1- Peyğəmbərə (s) sevgi
   a) Peyğəmbərə (s) təvəssül
   b) Peyğəmbərin (s) Əhli-Beytinə sevgi
   c) Peyğəmbərin (s) seçilmiş səhabələrinə sevgi
2- Ədalət
3- Məsumiyyət
   a) Nübuvvətdən sonra elçilik vəzifəsini yerinə yetirməkdə məsumiyyət
   b) Nübuvvətdən sonra şəxsi həyatında məsumiyyət
   c) Peyğəmbərlikdən əvvəlki məsumiyyət
4- İmamət
5- Məhdilik[1]

## Cəfərilik nədir?

Cəfəriliklə şiəlik və ya ələvilik sözləri arasında ciddi məna fərqi yoxdur. Çünki, Cəfəri demək, İmam Sadiqə (ə) tabe olmaq deməkdir. Eyni şəkildə Ələvi demək də İmam Əliyə (ə) sadiq olmaq mənasını daşıyır. İmam Əli (ə) ilə İmam Cəfər Sadiq (ə) eyni haqqın yolçusu olduğuna görə, bu iki yolun bir-birindən fərqli olması düşünülə bilməz.

Məzhəblərin aydınlaşdığı vaxtlarda Əhli-Beyt imamlarının davamçılarına Cəfəri deyilmişdir. Çünki İmam Cəfər Sadiq (ə) yaşadığı zamanın şərtləri Əhli- Beyt məktəbinin hökmlərini açıqlamaqda daha çox fürsət imkanına sahib olmuşdur.

## Şiəlik və Sünnülük

[1] *Geniş məlumat üçün bax: Şiəliyə Baxış, Doktor Məhəmməd Əli Şimali, s.99.*

Şiəlik və sünnülük İslam dinindən doğmuş iki məzhəbdir.

1- Şiələr Peyğəmbərdən (s) sonra, İslamı Peyğəmbərimizin (s) öz övladları olan Əhli-Beyt (ə) imamlarından öyrənməyi əsas tutmuşlardır.

2- Sünnülər isə bu məsələdə daha çox Peyğəmbər (s) səhabələrini təqib etmişlər.

Bu iki məzhəb arasındakı əsas fərq on iki imam inancıdır. Biz şiələr on iki Əhli-Beyt (ə) imamlarını Peyğəmbərimizin (s) yolunu davam etdirən, məsum imamlar kimi görürük. On iki imamın hər sözünü qanun kimi qəbul edir və onlara mütləq olaraq itaət edirik.

Sünnülükdə isə belə bir inam yoxdur. Sünnülüklə şiəlik arasında var olan bir çox fərqliliklər əslində Peyğəmbərdən (s) sonra imamət anlayışından qaynaqlanır.

**61-ci dərsin sualları**

1. Şiəlikdə məqsəd nədir?
2. Şiəliyin yaranması nə vaxtdan başladı?
3. İlk şiələr kimlərdir?
4. Şiə təlimləri nələrdir?
5. Cəfərilik və şiəlik eynidirmi?

**DƏRS: 62**

# ŞEYTAN

### Şeytan nədir və kimlərdir?

Şeytan, uzaqlaşmaq mənasında "şitn" sözündən törəyən bir kəlmədir. Allahın rəhmətindən uzaqlaşdığı üçün şeytan deyilmişdir. Şeytanlar, hər cür pisliyi etməyi insana vəsvəsə edən, insanı Allah yolundan uzaqlaşdıran varlıqlardır. Şeytan bir dənə deyildir. İnsanlardan və cinlərdən olan şeytanlar da var. İnsanı pisliyə sürükləyən hər cür varlığa şeytan deyilir. Bütün şeytanların başı və böyüyü İblis adlı bir cindir.

## İblis kimdir?

İblis bir cindir. O, cinlərin içində Allaha çox ibadət etmiş, buna görə də mələklərin yaşadığı məqama aparılmış bir cindir. İblis mələklərlə birlikdə ibadət edərkən Allah Hz. Adəmi (ə) yaratdı və bütün mələklərə Hz. Adəmin (ə) üstünlüyünü qəbul edərək ona hörmət məqsədilə səcdə etmələrini əmr etdi. Bütün mələklər bu əmrə itaət edib, iblis isə yersiz təkəbbürlə səcdə və itaət etməyincə, ucaldığı məqam və vəzifədən qovuldu.

İblisin əmrlər verərək insanları yoldan çıxaran bir ordusu var. İblisin bu ordusu cin və insanlardan ibarətdir. İblisin uşaqlarının olub-olmadığı barəsində Qurani-Kərimdə bir məlumat yoxdur, amma hədislərdə onun uşaqlarının olduğu və onun cütləşmə etmədən uşaq sahibi olması məlumatı keçir[1].

## İblisin sonu

[1] *Əl- mizan, c.8, s.76, Fars trc.*

İblis, Allahın əmrinə etiraz edib, Həzrət Adəmə (ə) səcdə etməyincə, Allah onu dərgahından qovur. Bunun üzərinə İblis, etdiyi ibadətlərin qarşılığı olaraq, Qiyamətə qədər yaşamaq istədiyini Allaha deyir. Allah isə qiyamətə qədər deyil, verilən möhlətin Allaha bəlli olduğu *müəyyən vaxta*[1] qədər icazə verir. Müəyyən vaxt barədə hədislərdə müxtəlif məlumatlar var. Bəzi hədislərdə müəyyən vaxt qiyamət günü olaraq, bəzi hədislərdə Hz. Mehdinin (ə) gələcəyi günə kimi, bəzi hədislərdə isə rəcət gününə kimi olduğu keçir.

**62-ci dərsin sualları**

1. Şeytan nədir və kimlərə deyilir?

3. İblis ilə şeytan fərqlidirmi?

---

1 *Hicr, 38.*

**DƏRS:63**

# CİN

Cin kəlməsi lüğətdə görülməyən, örtülü şey mənalarına gəlir. Ərəbcə "cinin" sözündən törəmişdir. "Cənnət" və "cənin" sözləri də eyni kökdən gəlib. Qurani-Kərimdə Cin surəsi adında bir surə nazil olaraq cinin varlığından bizə xəbər vermişdir. Quran bizlərə cin deyilən bir varlıq olduğunu açıq bir dillə demişdir. Yenə bir çox hədisdə cinlərin həm varlığından, həm də onların xüsusiyyətlərindən geniş bəhs edilmişdir.

## Cinlər oddan yaradılmışdır

Qurana görə cinlər oddan yaradılmış varlıqlardır. Necə ki, Allah belə buyurur: *"(Cinlərin əcdadı) cannı da tüstüsüz (təmiz) oddan O, xəlq etdi"*[1].

Cinlər cisimlərdir, amma çox zərif bir cisim olduqları üçün eynilə çox sürətli hərəkət edirlər. Belə ki, dünyanın ətrafını 10-15 dəqiqə kimi qısa bir müddətdə gəzirlər. Normalda insan və digər varlıqların girmədiyi yerlərə daxil ola, keçmədiyi yerlərdən keçirlər. Cinlər istədikləri zaman görünə bilərlər. Bəzən öz şəkillərində, bəzən də bir heyvan şəklində görünürlər.

## Cinlər insandan əvvəl yaradılmışlar

Cinlər insanlardan orta hesabla 7000 il əvvəl yaradılmışdır. Həzrət Adəmin (ə) yaradıldığı zaman iblis, mələklərin arasında Allaha ibadət edirdi. Allah, mələklərə və iblisə Həzrət Adəmə (ə) səcdə etmələri üçün əmr etdi. Bunun üzərinə mələklər səcdə etməsinə baxmayaraq, bir cin olan iblis Həzrət Adəmə (ə) səcdə

[1] *Rəhman, 15.*

etmədi. Qurani-Kərim buyurur: *"(Cinlərin babası) can tayfası (və ya iblisi) daha öncə (insandan əvvəl) tüstüsüz oddan xəlq etmişdik"*[1].

## Cinlər harada və necə yaşayırlar?

Cinlər dünyada yaşayırlar. Cinlər insan övladından əvvəl dünyada yaşayırdılar. Dünyada insan olmadığı üçün, cinlər rahat bir həyat sürürdülər. Amma Allah Adəmlə (ə) birlikdə dünyada yeni bir nəsil yaratmaq istədi və yer üzünə insanları hakim qıldı. Daha sonra Allahın əmri ilə cinlər insanlardan uzaq yerlərdə yaşamağa başladılar. Beləliklə, cinlər, ümumiyyətlə, insanların qalmadığı və tərk edilmiş yerlərdə yaşamağı üstün tuturlar. Xarabalıqlarda, qəbristanlıqlarda, səhralarda və mağaralarda yaşayırlar. Normalda zərərsiz varlıqlardır. İnsanlardan yana zərər görmədikləri təqdirdə, kimsəyə zərər verməzlər.

## Müsəlman və kafir cinlər

Cinlər də eynilə insanlar kimi ağıl sahibidir. İnsanlar kimi məsuliyyət hissi ilə yaşayırlar. Belə olduqda Allah onlara da din və Peyğəmbər göndərir. Allah insanlara göndərdiyi Peyğəmbərləri və dinləri onlara da göndərmişdi. İnsanlar necə ki, Allah tərəfindən gələn Peyğəmbərlərə inanmaq və göndərilən qaydalara tabe olmaq məcburiyyətindədirlərsə, cinlər də o Peyğəmbərlərə inanmaq və o qanunları tətbiq etmək məcburiyyətindədirlər. Beləliklə, cinlərin də müsəlmanı, kafiri, xristianı, yəhudisi var. Eyni zamanda, müsəlman cinlərin mömini və münafiqləri vardır. Bəzi cinlər də eynilə insanlar kimi heç bir dinə inanmayıb bütə sitayiş edirlər.

## Cinlər necə müsəlman oldular?

[1] *Hicr, 27.*

Cinlər çox uzun müddət yaşayırlar. Onlar orta hesabla 1000-1500 ilə qədər yaşaya bilirlər. Bu səbəbdən də cinlər bir çox Peyğəmbəri görmüşlər. Peyğəmbərimizin (s) zamanında yaşayan bir cinin Həzrət İsa (ə) və Həzrət Musayı (ə) görmüş olma ehtimalı çox böyükdür.

Peyğəmbərimiz (s) Taifdən qayıdanda Cin dərəsi deyilən bir yerdə sübh namazını qılırdı ki, oradan keçməkdə olan bir cin qrupu Peyğəmbərin (s) namazda oxuduğu Quran ayələrini eşitdilər və dayanıb ona qulaq asdılar. Peyğəmbər (s) namazını bitirdikdən sonra, cinlər öz aralarında danışaraq "Biz Musadan (ə) sonra onun kitabını təsdiq edən bir şey eşitmişik. Bu haqdır, gəlin ona iman gətirək" - dedilər. Daha sonra Peyğəmbərimizə görünərək imanlarını açıqladılar. Peyğəmbərimiz (s) də cinlərə İslam dininin bəzi əsas məsələlərini öyrətdi. Cinlər Peyğəmbərdən (s) icazə istəyib, öz tayfalarına İslam dininin gəldiyini və son Peyğəmbərin Allah tərəfindən göndərildiyini xəbər vermək üçün getdilər. O cin qrupu öz tayfalarına gedərək gözlənilən son Peyğəmbərin gəldiyini söylədilər və beləliklə, hamısı birlikdə İslam dinini qəbul etdilər. Peyğəmbərimiz (s) daha sonra Həzrət Əliyə (ə) cinlərə dini hökmləri öyrətmək üçün tapşırıqlar verdi.

Müsəlman cinlər də bizim kimi namaz qılır, oruc tutur, həccə gedirlər. Allahın bizlər üçün əmr etdiyi halal və haramlar da cinlər üçün keçərlidir. Bu səbəbdən cinlər də qiyamət günü hesab verəcək, cənnət və cəhənnəm onlar üçün də etibarlı olacaqdır.

## Cinlər kişi-qadın kimi cinsiyyətə malikdirlər

Cinlərin də insanlar kimi erkək və dişiləri var. Qurani-Kərim bu barədə belə deyir: *"Həqiqətən, (Cahiliyyət dövründə) bəzi insanlar bir para cinlərə pənah aparır, bununla da onların təkəbbürünü*

*(azğınlığını) artırırdılar (cinlər özləri haqqında çox böyük fikirlərə düşürdülər)"*[1].

Bu ayədə göründüyü kimi, cinlərin bəzilərinin kişi olduğu ifadə edilir. Bu ayədən yola çıxaraq dişi və erkək cinlər deyə bir ayrı-seçkilik edə bilərik. Cinlər uzunömürlü olduqları üçün cinlərin sayı insanların sayından çoxdur.

Qurani-Kərimdə: *"Ey cin topluluğu sizlər insanlardan çoxsunuz*[2]*"* deyə qeyd edilir.

**63-cü dərsin sualları**

1. Cin nədir və nə üçün yaradılmışdır?
2. Cinlər haralarda yaşayırlar?
3. Cinlər də insanlar kimi müsəlman və qeyri-müsəlmandılarmı?
4. Cinlərin cinsiyyəti varmı?

---

[1] *Cinn, 6.*
[2] *Ənam, 128.*

## DƏRS: 64

# NAMAZDAN SONRA OXUNAN DUALAR

**1- Ərəbcə oxunuşu:**

La ilahə illəllah, ilahən vahida və nəhnu ləhu muslimun. La ilahə illəllah və la nəbudu illa iyyah, muhlisinə ləhud-din, vələv kərihə'l muşrikun. La ilahə illəllah rəbbuna və rəbbu abainəl-əvvəlin. La ilahə illəllah, vəhdəhu, vəhdəhu, vəhdəh, əncəzə vədəh və nərara əbdəh və əazzə cundəh və həzəməl-ahzabə vəhdəh. Fə-ləhu'l-mulku və ləhul-həmd. Yuhyi və yumitu və yumitu və yuhyi və huvə həyyun la yəmut. Bi-yədihi'l-hayr və huvə əla kulli şeyin qədir[1].

**Azərbaycan dilində tərcüməsi:**

Allahdan başqa İlah yoxdur. Yeganə ilahdır O. Biz ona tabeyik (müddəalarına). Allahdan başqa İlah yoxdur. Təkcə ona ibadət edirik. Dini Ona xalis və məxsus edərik, müşriklər istəməsə belə. Allahdan başqa İlah yoxdur. Bizim və ata-babalarımızın Rəbbidir O. Allahdan başqa İlah yoxdur. O, təkdir. O, təkdir. O, təkdir. Əhdə vəfa etdi. Quluna yardım etdi. Ordusuna izzət və qələbə verdi. Təkbaşına müxalif qüvvələri xarabazara uğratdı. Təriflər yalnız ona məxsusdur. Dirildir və öldürür, öldürür və dirildir. O, heç bir zaman ölməyən diridir. Hər şey yalnız Onun əlindədir. Onun hər şeyə gücü yetər.

**2- Ərəbcə oxunuşu:**

Razitu billahi rəbbə və bil-İslami dina və bi-Muhammədin sallallahu ələyhi və alihi nəbiyya və bi-Əliyyin imama və bil-Həsəni vəl Hüseyni və Əliyyin və Muhammədin və Cəfərin və Musa və Əliyyin və Muhammədin və Əliyyin vəl Həsəni vəl Xələfis-Salihi aleyhimussəlamu əimmətən və sadətən və qadəh. Bi-him ətəvəlla

[1] *Məfatihul Cinan, s.47.*

və min adaihim ətəbərrəu. Allahummə inni əs'əlukəl-əfvə vəl-afiyətə vəl muafətə fid-dunya vəl axirə[1].

**Azərbaycan dilində tərcüməsi:**

Razı oldum ki, Rəbb olaraq Allaha, din olaraq İslama, Peyğəmbər olaraq Məhəmmədə (Allahın salamı onun və ailəsinin üzərinə olsun) imam olaraq Əliyə, imamlar və liderlər olaraq Həsənə, Hüseynə, Əliyə, Məhəmmədə, Cəfərə, Musaya, Əliyə, Məhəmmədə, Əliyə, Həsən və Saleh Xələfə (Allahın salamı onların üzərinə olsun) onlara sevgimi bəyan edirəm. Onların düşmənlərindən uzaq durmağı elan edirəm. Allahım! Mən səndən əfv və bağışlama, dünya və axirətdə sağlam və təhlükəsiz olmağı arzulayıram.

**3- Ərəbcə oxunuşu:**

İlahi hazihi səlati sələytuha. La li-hacətin minkə iləyha. Və la rağbətin minkə fiha. İlla ta'zimən və taatən və icap ət ən ləkə ila ma əmərtəni bih. İlahi in kanə fiha halələun əv naksun min rukiha əv sucudiha fəla tuahizni və təfəzzəl ələyyə bi'l kabuli və'l ğufran, birəhmətikə ya ərhəmə'r-rahimin[2].

**Azərbaycan dilində tərcüməsi:**

Allahım bax, bu mənim namazımdır, bunu sənin mənə ehtiyacın və rəğbətin var deyə etməmişəm. Sadəcə sənə təzim, itaət və mənə əmr etdiyini qəbul etmiş olduğum üçün qıldım. Allahım əgər etdiyim bu namazın ruku və səcdəsində nöqsan və xələl varsa, ondan dolayı məni hesaba çəkmə, qəbul və məğfirət mənə lütf və ehsan ver. Rəhmətinin haqqı üçün, ey mərhəmətlilərin ən mərhəmətlisi.

**4- Ərəbcə oxunuşu:**

---

[1] *Məfatihul Cinan,* s.*55*

[2] *Məfatihul Cinan,* s.52

İnnəllahə və məlaikətəhu yusəllunə ələ'n-Nəbiyy, ya əyyuhəl-ləzinə amənu sallu aləyhi və səllimu təslima[1].

**Azərbaycan dilində tərcüməsi:**

"Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər (xeyir-dua verirlər). Ey iman gətirənlər! Siz də ona salavat göndərib (onun üçün salavat deyib) layiqincə salamlayın!".

**5- Ərəbcə oxunuşu:**

Allahu la ilahə illa huvə'l-həyyu'l qəyyum la tə'xuzuhu sinətun və la nəvm, ləhu ma fi's-səmavati və ma fi'l-ərz, mən zəlləzi yəşfəu indəhu illa bi-iznih, yə'ləmu ma bəynə əydihim və ma xəlfəhum və la yuhitunə bi-şəy'in min ilmihi illa bima şaə, vəsia kursiyyuhus səmavati və'l-ərz və la yəuduhu hifzuhuma və huvə'l-əliyyu'l-əzim.

La ikrahə fi'd-dini qəd təbəyyənə'r-ruşdu minə'l ğəyy. Fə-mən yəkfur bi't-tağuti və yu'minbillahi fəqədi'stəmsəkə bi'l-urvəti'l vusqa lənfi samə ləha vəllahu səmiun əlim.

Allahu vəliyy'ulləzinə amənu yuxricuhum minə'z-zuluməti ilə'n-nur, vəlləzinə kəfəru əvliyəuhum'ut-tağutu yuxricunəhum min'ən-nuri ilə'zzulumət, uləikə əshabu'n-nəri hum fiha xalidun[2].

**Azərbaycan dilində tərcüməsi:**

"Allahdan başqa heç bir Tanrı yoxdur. (Zatı və kamal sifətləri ilə hər şeyə qadir olub bütün kainatı yaradan və idarə edən, bəndələrini dolandıran və onların işlərini yoluna qoyan) əbədi, əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa, (hamısı) Onundur. Allahın izni olmadan (qiyamətdə) Onun yanında (hüzurunda) kim şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş) edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini (bütün olmuş və olacaq şeyləri) bilir. Onlar (yaranmışlar) Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü

---

[1] *Əzhab, 56.*

[2] *Bəqərə, 255-256-257.*

(elmi, qüdrət və səltənəti) göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur!".

"Dində məcburiyyət (zorakılıq) yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edildi. Hər kəs Tağutu (Şeytanı və ya bütləri) inkar edib Allaha iman gətirsə, o, artıq (qırılmaq bilməyən) ən möhkəm bir ipdən (dəstəkdən) yapışmış olur. Allah (hər şeyi olduğu kimi) eşidəndir, biləndir!".

"Allah (Ona) iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər. Kafirlərin dostu isə Tağutdur (şeytanlardır). Onları (kafirləri) nurdan ayırıb zülmətə salarlar. Onlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar!".

### 6- Həzrəti İmam Məhdi (ə) duası

**Ərəbcə oxunuşu:**

Allahummə kun li-Vəliyyikə'l Huccət'ibnil Həsən, salavatukə aləyhi və əla abaih, fi hazih'is-saət və fi kulli saəh, vəliyyən və hafiza və qaidən və nasira və dəlilən və əyna, hətta tuskinəhu ərzəkə tav'a və tuməttiahu fiha tavila[1].

**Azərbaycan dilində tərcüməsi:**

Allahım! Sənin (insanlar üçün) dəlilin və vəlin olan Həsən Əsgərinin oğlu Məhdiyə hazırda və bütün zamanlarda himayəçi, qoruyucu, köməkçi və nəzarətçi ol. Ta ki, onu yer üzünə hakim edəsən və uzun müddət yer üzündə yaşadasan.

### 7- Fərəc duası:

İlahi, azumə'l-bəlau və bərih'əl-həfau və'n kəşəfə'l-ğitau və'nqataə'r-rəcau və zaqati'l-ərzu və muniət'is-səmau və əntə'l-

---

[1] *Əhli-Beytdən dualar, s.88.*

mustəanu və iləykə'l-müştəka və aləykə'l-muavvəlu fi'ş-şiddəti və'r-rəha.

Allahummə salli əla Muhammədin və Ali Muhammədin uli'l-əmrilləzinə fərəztə aləyna taətəhum və arrəftəna bi-zalikə mənzilətəhum fəfərric ənna bi-həqqihim fəracən, acilən, qəribən, kə-ləmhi'l-bəsəri əv huvə aqrab. Ya Muhammədu, ya Əliyy, ya Əliyyu, ya Muhamməd, ikfiyani fə-innəkuma kafiyan. Vənsurani fə-innəkuma nasiran.

Ya Məvlana ya Sahibə'z-Zaman. Əl-ğavs, əl ğavs, əl ğavs, ərdikni, ədrikni, ədrikni, əs-saətə əs-saətə əs-saəh, əl-acəl, əl-acəl, əl acəl, ya ərhəmə'r-rahimin, bi-həqqi Muhammədin və Alih'it-tahirin[1].

### 8- Fatimeyi-Zəhra təsbihatı

İlk öncə 34 dəfə "Allahu əkbər", sonra 33 dəfə "Əlhəmdulillah" və daha sonra 33 dəfə "Sübhənəllah" deyilir.

---

[1] *Məfatihul-Cinan, s.1057.*

## DƏRS: 65

# NƏCİSLƏR VƏ TƏMİZLƏYİCİLƏR

## Nəcislər

**Nəcislər on cürdür:**

1- **Sidik:** İnsanın, əti yeyilməyən və damarı kəsildikdə, qanı axan (sıçrayan) hər bir heyvanın ğaiti və sidiyi nəcisdir.

**2- İfrazat**

3- **Məni:** İnsanın və axıcı qanı olub əti yeyilməyən bütün heyvanların toxumu nəcisdir.

4- **Leş:** İnsan üçün ölü və şəri üsullara görə kəsilməmiş heyvanların ölüsü nəcisdir.

5- **Qan:** İnsan və axıcı qanı olan, yəni damarı kəsildikdə, qanı sıçrayan hər bir heyvanın qanı nəcisdir.

6- **İt:** İt və donuz, onların tükü, sümüyü, pəncəsi, dırnağı və rütubətləri nəcisdir.

**7- Donuz.**

8- **Kafir:** Yəni Allaha və onun bir olduğuna inanmayanlar. O cümlədən ğulat... Məsum imamlardan hər hansı birinin Allah olduğuna inananlar. Xəvariclər və Nasibilər - Məsum imamlara açıq düşmənçilik edənlər.

Əhli kitab olan Xristianlar, Yəhudilər və Məcusilər təmizdirlər.

9- **Şərab** (məst edici içkilərin bütün növləri) və spirtli pivə.

10- **Nəcis yeyən dəvənin təri:** İnsan nəcisi yeməyi vərdiş edən dəvənin təri nəcisdir. Nəcis yeyən digər heyvanların təri təmizdir[1].

---

[1] *Tam Risalə, Ayətullah Sistani, s.21, Məsələ: 80.*

# Mütəhhirat (pak edici təmizləyicilər)

On iki şey nəcisi təmizləyir və bunlara təmizləyici deyilir:

**1- Su**

**2- Yer:** Yer, torpaq ayağın və nəcis ayaqqabının altını risalələrdən gələn şərtlərlə təmizləyir.

**3- Günəş:** Günəş nəcis olmuş yeri, bina və divarı xüsusi şərtlərlə təmizləyir.

**4- İstihalə** (Öz keyfiyyətini itirmək): Nəcis olan bir şeyin cinsi, təmiz bir şey sayılacaq şəkildə dəyişərsə, təmiz olur və buna başqalaşma mənasını verən "istihalə" deyilir. Məsələn: nəcis bir ağacın yanıb kül olması.

**5- İnqilab** (dəyişiklik): Şərab, öz-özünə və ya içinə sirkə və duz qatmaq vasitəsilə sirkəyə çevrilsə pak olar.

**6- İntiqal:** İnsan qanı və ya axan qana malik olan (kəsildikdə qanı sıçrayaraq çıxan) heyvanın qanı, axıcı qanı olmayan heyvanın bədəninə ötürülür və artıq o heyvanın qanı sayılarsa, təmiz olar. Bu prosesin adına intiqal deyilir. İnsanın bədəninə qonan ağcaqanad öldürülsə və sorduğu qan çıxarsa təmizdir.

**7- İslam:** Əgər kafir, şəhadətini, yəni "Əşhədu ənla İlahə illəllah və əşhədu ənna Muhammədən Rəsulallah[1]" deyərsə, müsəlman olduğu kimi təmiz də olur.

**8- Təbəiyyət:** Nəcis olan bir şeyin, təmiz olan başqa bir şey vəsiləsi ilə təmiz olmasıdır[2].

**9- Nəcis yeyən heyvanın istibrası:** İnsan nəcisi yeməyi vərdiş etmiş bir heyvanın sidiyi və nəcisi nəcisdir. Təmiz olması üçün istibra (xüsusi təmizlənmə üsulu) tətbiq edilməlidir. Yəni "pislik yeyəndir" - deyilməməsi üçün, lazımi müddət ərzində

---

[1] *Şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur. Şəhadət edirəm ki Məhəmməd (s) Allahın elçisidir.*

[2] *Geniş məlumat üçün bax: Tam Risalə, Məsələ: 208.*

peyin yeməsinin qarşısı alınmalı və ona təmiz yeməklər verilməlidir.

- Dəvə: 40 gün
- İnək: 20 gün
- Qoyun: 10 gün
- Ördək: 7 və ya 5 gün
- Toyuq: 3 gün peyin yemədən saxlanmalı və təmiz yeməklər verilməlidir.

**10- Nəcisin özünün aradan qaldırılması:** Bir heyvanın bədəni, qan kimi nəcis və ya nəcis su kimi nəcisləşmiş bir şeyə bulaşarsa, onları aradan qaldırdıqdan sonra, heyvanın bədəni pak olur.

**11- Başı kəsilən heyvandan bir miqdar qan axması**: Şəri üsullara görə başı kəsilən heyvanın normal miqdarda qanı axandan sonra, daxilində qalan qan pakdır.

## Günahlar

Uca Allahın əmr və qadağalarını aşmağa günah deyilir. Allah bəndələrini sevdiyi üçün, gözəl və faydalı şeyləri etmələrini sevər, pis və zərərli şeyləri etməkdən də çəkindirmişdir. Günah işləyən insan ən başda özünə pislik etmiş olur.

Günahlar iki yerə bölünür:

1- Böyük günahlar: Allahın Qurani-Kərimdə qarşılığında təhdid və əzab vəd etdiyi hər davranışa böyük günah deyilir; İstər bu günahlara açıq və dəqiq bir şəkildə əzab vəd edilsin, istərsə, işarə və şiddətli bir çəkindirmə yolu ilə.

2- Kiçik günahlar: yuxarıdakı təsvirin əksinə.

Bütün günahlar pis və zərərlidir. Ancaq günahların bir qismi daha pis və zərəri daha böyük olduğundan böyük günah olaraq adlandırılır.

Böyük günahların bəziləri bunlardır:

1- Allaha şərik qoşmaq
2- Allahın rəhmətindən ümid kəsmək
3- Allahın qəzəbindən özünü tamamilə təhlükəsizlikdə görmək.
4- Haqsız yerə adam öldürmək
5- Ana-ataya hörmətsizlik və əziyyət etmək
6- Yetimlərin malını yemək
7- İsmətli və namuslu bir qadına zina nisbəti vermək (iftira etmək)
8- Cihaddan qaçmaq
9- Qohumlarla əlaqəni kəsmək
10- Sehr və cadu etmək
11- Zina etmək
12- Livat[1]
13- Oğurluq etmək
14- Yalan yerə and içmək
15- Vacib olduğu yerdə şahidlik etməkdən çəkinmək
16- Yalan yerə şahidlik etmək
17- Sözündə dayanmamaq
18- Vəsiyyəti yerinə yetirməmək
19- İçki içmək
20- Sələm almaq
21- Haram mal yemək
22- Qumar oynamaq
23- Qan və murdar heyvan əti yemək
24- Donuz əti yemək
25- İslami qaydalara görə kəsilməyən heyvanın ətini yemək
26- Zalıma kömək etmək
27- Zalım sultanın hökumətini qanuni sayıb, ona söykənərək yaşamaq
28- Başqalarının hüququna təcavüz etmək

---

[1] *Bir kişi başqa bir kişi ilə cinsi təmasda olmasıdır.*

29- Yalan danışmaq
30- Kibir və qürurlanaraq təkəbbür göstərmək
31- İsraf etmək
32- Xəyanət etmək
33- Dedi-qodu etmək
34- Söz gəzdirmək
35- Bihudə və boş şeylərlə məşğul olmaq
36- Həcc fərzini tərk etmək
37- Namazı tərk etmək.
38- Zəkat verməmək
39- Zalıma kömək etmək
40- Kiçik günahlarda israr etmək

## Fiqh elminə aid bəzi terminlər

**Haram:** İslam baxımından edilməsi, işlədilməsi, yeyilib-içilməsi qadağan olan şey. Haramın edilməməsindən savab qazanılır. Edilməsi isə, əzaba düçar edir.

**Halal:** İslam baxımından edilməsi, işlədilməsi, yeyilib-içilməsi yasaq olmayan şey.

**Müstəhəb**: Edilməsi yaxşı və savabı olan, lakin edilməməsi əzaba düçar etməyən iş.

**Mübah**: Şəri cəhətdən yaxşı və ya pis sayılmayan bir iş. Vacib, haram, müstəhəb və məkruh işlərdən başqa bir iş. Halal olan bir yeməyi və ya meyvəni yeyib yeməmək kimi. Bəzən də qəsb edilməmiş yer mənasında istifadə edilir.

**Məkruh**: Edilməsi şəri cəhətdən bəyənilməyən, xoş görülməyən davranış.

**Cahili qasir** (günahsız cahil): Bilməməsi bəhanəyə dayaqlı olan cahil. Yəni Allahın hökmlərini öyrənmək imkanı tapmayan yaxud da ki, özünü bilib güman edən, ancaq həqiqətdə bilməyən kəs.

**Cahili Müqəssir** (müqəssir cahil): Etibarlı bəhanəsi olmadan, öyrənməyən və cahil qalan kimsə. Yəni öyrənmə imkanı olduğu halda, diqqətsizlik edib hökmləri öyrənməyən kimsə.

**Təharət**: Lüğətdə təmizlik mənasına gəlir. Dini terminologiyada isə dəstəmaz, qüsl və ya təyəmmüm yolu ilə insanda hasil olan mənəvi vəziyyət. Bir sıra ibadətlərin şərti, başlanğıcı və açarıdır. Təmizlik olmadıqca, bu ibadətlər yerinə yetirilə bilməz.

**Şəri hakim**: İslam hökmlərini icra məqamında olan müctəhid və ya onun naibi. Başqa sözlə, İslami ölçülərə görə hökmü etibarlı olan müctəhid və ya naibi.

**Məhrəm**: Ailə qurulması şəri baxımdan qətiyyən caiz olmayan, buna görə ondan çəkinmək lazım olmayan.

**Naməhrəm**: Şəri cəhətdən məhrəm olmayan; Evlənmələri şəri baxımdan mümkün olan, lakin bir kişinin və ya qadının şəri cəhətdən digərinə baxması qadağan və haram olan kimsə.

**Nəfəqə**: Aliment, yemək pulu, dolanışıq üçün vəsait. Yemək, paltar, məskən kimi zəruri ehtiyacların təchizatına yetəcək miqdarda pul və ya əşya. Bəzi adamlara aliment həyat yoldaşı və uşaqlarının dolanışığını təmin etmək insana vacibdir və insan bunların nəfəqəsini (alimentini) təmin etmək məcburiyyətindədir.

**Mütə**: Lüğətdə zövq mənasında olan bu kəlmə dini terminologiyada müvəqqəti əqd mənasında istifadə edilir. Müəyyən bir haqq ödəyərək, müəyyən bir müddət üçün, müəyyən şərtlər daxilində əqd oxumaqla girilən müvəqqəti nikah.

**Müməyyiz**: Yaxşı və pisi anlayıb bir-birindən ayırd edə bilən uşaq.

**Müctəhid**: Allahın hökmlərini anlamaqda ictihad dərəcəsinə çatan yəni, Kitab (Quran) və sünnədən islami hökmləri çıxarmağa gücü olan kimsə.

**Ələm (ən savadlı müctəhid)**: Allahın hökmlərini müəyyən mənbələrdən anlayıb çıxarmaqda öz zamanında yaşayan müctəhidlərin hamısından daha üstün olan kimsə.

**Misqal**: Ağırlıq ölçüsü. Hər bir misqal 4,6875 qram, yəni dörd yarım qramdan bir az artıq çəkiyə (4 karat) bərabərdir.

**Qorxu namazı**: Döyüş və bu kimi hallarda xüsusi bir şəkildə qılınan namaz.

**Qürbət qəsdi**: Bir işi Allah-Təalanın əmr etdiyi üçün etmək və beləliklə, Ona yaxın olmağı niyyət etmək, yəni bir işi yalnız Allah üçün etmək.

**Qəza etmək**: Namaz və oruc kimi vaxtında yerinə yetirilməyən bir əməli vaxtı xaricində yerinə yetirmək.

**İstihalə**: Başqalaşma. Bir şeyin başqa bir şeyə çevrilməsi. Ağacın yanıb kül olması və s.

**İstimna**: Onanizm: masturbasiya. Öz-özünü cinsi baxımdan təmin etmək. Sperma-məninin çıxmasına səbəb olacaq bir işi görmək.

**İstibra**: Pisliyi təmizləmək prinsipləri və qayda-qanununa deyilir. İstibra sözü üç yerdə istifadə edilir:

1) Sidik istibrası (təmizlik prinsipləri və qayda-qanunu); Bu, sidik ifraz olunduqdan sonra, sidik sızmasının kəsilməsinin qarşısını almaq məqsədilə edilir.

2) Məni istibrası. Belə ki, məni çıxandan sonra, məcrada məni qalıqlarının qalmadığından əmin olmaq üçün sidik ifraz etmək.

3) Nəcis yeyən heyvanın istibrası. Nəcis yeyən heyvanı, öz təbii qidasına alışana qədər nəcis yeməkdən çəkindirmək.

**Xums ili**: İnsanın hər il qazandığı malları hesablayıb xums çıxması üçün təyin etdiyi gün. Bir insan həddi-buluğ çağına çatdıqdan sonra, namaz qılmalı, ilk ramazan ayını oruc tutmalı, zəkat vacib olan mallara isə zəkat ödəməli və qazanc yolu ilə əldə etdiyi gəlirin bir illik ehtiyaclarından artıq qalan miqdarının beşdə

birini xums olaraq verməlidir. Beləliklə, xums ilinin başlanğıcında, insanın əldə olunan ilk gəlirin tarixi ölçü götürülür. Bu səbəblə əkinçinin xums ili əldə etdiyi ilk məhsuldan, məmur birinin xums ili ilk aldığı maaşdan, fəhlənin xums ili ilk qazandığı puldan, dükançının xums ili ilk satışından başlayır.

**Heyz**: Qadının bətnindən bir xəstəlik və ya uşaq doğma səbəbi olmadan müəyyən günlər ərzində gələn qandır. Buna adət halı da deyilir. Gələn bu qana heyz qanı da deyilir.

**İstihazə**: Qadınların gördüyü üç növ qandan birinin adıdır. Bu, rəhmdən deyil, bir damardan gəlib tənasül orqanı yolu ilə axan qoxusuz bir qandır. Bu vəziyyətdə olan bir qadına müstəhazə deyilir.

**Aybaşı halı**: Qadının hər ay müəyyən günlərdə xüsusi xarakterli qan görmə vəziyyəti.

**Mürtəd**: İslam dinindən ayrılıb başqa dinə keçmək. İslam dinini tərk edən, əvvəlcə müsəlman olub sonra, islamdan çıxaraq Allahı və ya Peyğəmbəri (s) inkar etmək mənasına gələn dinin zəruri (müzakirə olunmayacaq dərəcədə açıq-aydın) hökmlərindən birini inkar edən kimsə. Mürtəd şərtlərinə görə iki hissəyə ayrılır:

**1) Milli mürtəd**: Müsəlman ata-anadan doğulan və kafir olduğunu bildirdikdən sonra, müsəlman olub, yenə kafir olan kəs.

**2) Fitri mürtəd**: Müsəlman atadan və ya müsəlman anadan, yaxud müsəlman ata və anadan doğulan və daha sonra kafir olan kəs.

**Kafir**: Lüğətdə üstünü örtmək və gizlətmək mənasındadır

Terminologiyada isə:

1) Allahın varlığını inkar edən kimsə.

2) Allaha şərik qoşan kəs.

3) Hz. Məhəmmədin (s) Peyğəmbərliyini qəbul etməyən kimsə.

4) Bunların birində şübhəsi olan şəxs.

5) Müsəlmanların zəruri yəni, dinin bir parçası saydığı aydın hökmləri inkar edən kimsə. Əlbəttə, bu şərtlə ki, onu inkar etməsi, Allahın varlığını, birliyini və ya Peyğəmbərliyi inkar etməyi tələb etməlidir.

**Mömin**: İslam dininin bütün əmr və qadağalarını sidq-ürəklə təsdiq, dil ilə qəbul edən, Peyğəmbərin 12 haqq xəlifəsinə iman edib onları qəbul edən şəxsə mömin deyilir.

**Kafir**: Allahı, Peyğəmbəri və dininin etiqad və əsaslarını qəbul etməyən, inkar edən kəsə deyilir.

*"Şübhəsiz ki, Cəhənnəm kafirləri bürüyəcəkdir!".*[1]

**Münafiq**: Allahın birliyini və Həzrəti Məhəmmədin Peyğəmbərliyini dillə qəbul edib, qəlbən inanmayanlara deyilir. Yəni içi başqa, çölü başqa olan şəxsdir.

**Müşrik**: Allaha inandıqları halda, ona şərik qoşan, bütləri Allaha aparan bir vasitə kimi qəbul edənlərə deyilir. Müşriklər Allaha şərik qoşur, axirətə inanmır və halal və haramı da qəbul etmirlər.

**Mükəlləf**: Yetkinlik çağına qədəm qoymaqla yanaşı, dini vəzifələri yerinə yetirmək və dini qadağalardan çəkinməyə borclu olan kəsə deyilir.

[1] *Tövbə surəsi, 49.*

# Mündəricat

Ön söz ..........3
DƏRS: 1 ..........6
DİNİN TƏRİFİ ..........6
DƏRS: 2 ..........11
DİNİ HÖKMLƏRİN ƏSAS MƏNBƏLƏRİ ..........11
DƏRS: 3 ..........15
BÜTÜN DİNLƏR DOĞRUDURMU? ..........15
DƏRS: 4 ..........20
ÜSULU DİN ..........20
DƏRS: 5 ..........23
İSLAMDA ALLAH ..........23
DƏRS: 6 ..........26
ƏDALƏT (ƏDL) ANLAYIŞI ..........26
DƏRS: 7 ..........28
NÜBÜVVƏT ..........28
DƏRS: 8 ..........31
NƏBİ, RƏSUL VƏ VƏHY ..........31
DƏRS: 9 ..........34
PEYĞƏMBƏRLƏRDƏKİ İSMƏT ..........34
DƏRS: 10 ..........38
İMAMƏT ..........38
DƏRS: 11 ..........41

ON İKİ İMAMIN ADLARI ........................................................................41
DƏRS: 12.............................................................................................45
MƏAD...................................................................................................45
DƏRS: 13.............................................................................................48
BƏRZƏX ALƏMİ ....................................................................................48
DƏRS: 14.............................................................................................51
QƏBİRDƏ SORĞU-SUAL EDƏNLƏR KİMLƏRDİR?....................................51
DƏRS: 15.............................................................................................55
SURA ÜFRÜLÜŞ....................................................................................55
DƏRS: 16.............................................................................................60
CƏNNƏT ..............................................................................................60
DƏRS: 17.............................................................................................63
CƏHƏNNƏM.........................................................................................63
DƏRS: 18.............................................................................................67
MÖHTƏZİRİN (CAN VERMƏ) HÖKMLƏRİ ................................................67
DƏRS: 19.............................................................................................69
MEYİT (ÖLÜ) QÜSULU ..........................................................................69
DƏRS: 20.............................................................................................73
FİRU-DİN.............................................................................................73
DƏRS: 21.............................................................................................76
NAMAZ QILANIN PALTARINDA AXTARILAN ŞƏRTLƏR............................76
DƏRS: 22.............................................................................................79
NAMAZIN FƏRZLƏRİ.............................................................................79
DƏRS: 23.............................................................................................82
EHTİYAT NAMAZI NECƏ QILINIR?..........................................................82
DƏRS: 24.............................................................................................84

NAMAZI POZAN ŞEYLƏR....84
DƏRS: 25....87
MÜSTƏHƏB NAMAZLAR....87
DƏRS: 26....91
AYƏT NAMAZI NƏDİR?....91
DƏRS: 27....94
ORUC....94
DƏRS: 28....97
ORUCUN NİYYƏTİ....97
DƏRS: 29....99
RAMAZAN ORUCUNUN KƏFARƏTİ....99
DƏRS: 30....101
ZƏKAT....101
DƏRS: 31....103
XUMS....103
DƏRS: 32....106
HƏCC....106
DƏRS: 33....110
CİHAD....110
DƏRS: 34....112
"ƏMR BE MƏRUF" VƏ "NƏHY ƏZ MÜNKƏR"....112
DƏRS: 35....115
TƏVƏLLA VƏ TƏBƏRRA....115
DƏRS: 36....117
QÜSL....117
DƏRS: 37....120

QURANIN FƏRZ SƏCDƏSİ OLAN SURƏLƏR....................................................120
DƏRS: 38......................................................................................................122
TƏYƏMMÜM..................................................................................................122
DƏRS: 39......................................................................................................124
DƏSTƏMAZ NƏDİR? .....................................................................................124
DƏRS: 40......................................................................................................127
SƏHABƏLƏR .................................................................................................127
DƏRS: 41......................................................................................................129
MƏLƏKLƏR....................................................................................................130
DƏRS: 42......................................................................................................136
MƏLƏKLƏRİN SAYI .......................................................................................136
DƏRS: 43......................................................................................................139
MÖCÜZƏ ......................................................................................................139
DƏRS: 44......................................................................................................141
İLAHİ KİTABLAR............................................................................................141
DƏRS: 45......................................................................................................144
QURANİ-KƏRİM............................................................................................144
DƏRS: 46......................................................................................................147
QURANDA MÖHKƏM VƏ MÜTƏŞABİH ANLAMLI AYƏLƏR ..................147
DƏRS: 47......................................................................................................150
QURANİ-KƏRİMDƏ SURƏ ANLAYIŞI NƏDİR?.........................................150
DƏRS: 48......................................................................................................154
MƏKKƏDƏ VƏ MƏDİNƏDƏ NAZİL OLAN QURAN SURƏLƏRİ İLƏ BAĞLI ANLAYIŞLAR.............................................................................................154
DƏRS: 49......................................................................................................159
MÜCTƏHİD ..................................................................................................159
DƏRS: 50......................................................................................................162

AZAN VƏ İQAMƏ ........................................................................ 162
DƏRS: 51 ........................................................................ 165
HƏDİS NƏDİR? ........................................................................ 165
DƏRS: 52 ........................................................................ 168
HƏDİSİN NÖVLƏRİ ........................................................................ 168
DƏRS: 53 ........................................................................ 172
BƏZİ ANLAYIŞLAR ........................................................................ 172
DƏRS: 54 ........................................................................ 176
ELMİ ANLAYIŞLAR ........................................................................ 176
DƏRS: 55 ........................................................................ 181
HƏDİS ELMİ İLƏ ƏLAQƏLİ ANLAYIŞLAR ........................................................................ 181
DƏRS: 56 ........................................................................ 188
BƏZİ DİNİ ANLAYIŞLAR ........................................................................ 188
DƏRS: 57 ........................................................................ 192
ŞƏFAƏT, BƏDA, QƏZA-QƏDƏR VƏ TƏVƏSSÜL ........................................................................ 192
DƏRS: 58 ........................................................................ 196
DİNİ VƏ FİQHİ ANLAYIŞLARIN BƏZİLƏRİ HAQQINDA ........................................................................ 196
DƏRS: 59 ........................................................................ 200
MƏZHƏB NƏDİR? ........................................................................ 200
DƏRS: 60 ........................................................................ 203
BƏZİ TƏRİQƏT VƏ FİRQƏLƏR ........................................................................ 203
DƏRS: 61 ........................................................................ 206
ŞİƏ ........................................................................ 206
DƏRS: 62 ........................................................................ 211
ŞEYTAN ........................................................................ 211
DƏRS:63 ........................................................................ 213

CİN ........................................................................................213
DƏRS: 64........................................................................................217
NAMAZDAN SONRA OXUNAN DUALAR ..............................................217
DƏRS: 65........................................................................................222
NƏCİSLƏR VƏ TƏMİZLƏYİCİLƏR ..........................................................222